**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**A.A.BAKIXANOV adına TARİX İNSTİTUTU**

**ƏSƏD QURBANLI**

# AZƏRBAYCANLILARIN ERMƏNİSTAN SSR-DƏN DEPORTASİYASI TARİXİNDƏN (1947-1953-cü illər)

**Bakı -2018**

AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu
Elmi Şurasının qərarı ilə çap olunur.

**Layihənin rəhbəri:** **Y.M.Mahmudov**
AMEA-nın həqiqi üzvü
Əməkdar elm xadimi
Dövlət mükafatı laureatı

**Elmi redaktor:** **N.N.Məmmədzadə**
*tarix üzrə fəlsəfə doktoru, dosent*

**Rəyçilər:** **A.Ə.Paşayev**
*tarix üzrə elmlər doktoru*
**M.İ.Əmrahov**
*tarix üzrə elmlər doktoru, professor*
**İ.S.Məmmədov**
*tarix üzrə fəlsəfə doktoru*
Dövlət mükafatı laureatı
**Nazim Mustafa**
*tarix üzrə fəlsəfə doktoru*
Dövlət mükafatı laureatı

**Qurbanlı.Ə.C.** Azərbaycanlıların Ermənistan SSR-dən deportasiyası tarixindən (1947-1953-cü illər) Bakı: 2018, 168 s.

Monoqrafiyada 1947-1953-cü illərdə Ermənistan SSR-dən, azərbaycanlıların tarixi-etnik torpaqlarından deportasiyası tədqiq edilmiş, keçmiş SSRİ və Ermənistan rəhbərlərinin soydaşlarımızın başına gətirdiyi faciələr öz əksini tapmışdır. Monoqrafiyada deportasiyaya qədərki proseslər öyrənilmiş, azərbaycanlıların deportasiyası arxiv materialları əsasında geniş şərh edilmiş, eyni zamanda köçürülən əhalinin köçürmə siyasətinə qarşı eriraz formaları sənədlər əsasında açılıb göstərilmişdir. Monoqrafiyada gətirilən faktlar Azərbaycan və erməni mənbələrinə istinad edilmiş, arxiv sənədlərinə dayanaraq yazılmışdır.

Monoqrafiya tarixçilər, tələbələr, doktorantlar, həmçinin geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

$$Q\frac{0503020907-016}{(TNP)\ 2018}$$

© Qurbanlı.Ə.C.2018

***Ermənistan deyəndə, o ərazinin keçmişdə kimə mənsub olduğu məlumdur. O ərazinin çox hissəsi azərbaycanlıların əsrlərdən-əsrlərə yaşadıqları doğma diyar olubdur. Onları öz dədə-baba yurdlarından tədricən çıxarıblar və bunlar hamısı da 1988-ci ildə Ermənistanın Azərbaycana artıq hərbi təcavüzünün başlanmasına gətirib çıxarıbdır.***

**H.Ə.Əliyev**

**Azərbaycan Respublikası Prezidenti**

# 1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Son iki əsrdə Qafqazda azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilmiş etnik təmizləmə və soyqırımı nəticəsində xalqımız ağır məhrumiyyətlərə, milli faciə və məşəqqətlərə məruz qalmışdır. Mərhələ-mərhələ gerçəkləşdirilən belə qeyri-insani siyasət nəticəsində azərbaycanlılar indiki Ermənistan adlandırılan ərazidən min illər boyu yaşadıqları öz doğma tarixi-etnik torpaqlarından didərgin salınaraq kütləvi qətl və qırğınlara məruz qalmış, xalqımıza məxsus minlərlə tarixi-mədəni abidə və yaşayış məskəni dağıdılıb viran edilmişdir.

SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli 4083 nömrəli və 1948-ci il 10 mart tarixli 754 nömrəli qərarları Azərbaycan xalqına qarşı növbəti tarixi cinayət aktı olmuşdur. Bu qərarlar əsasında 1948-1953-cü illərdə yüz əlli mindən çox azərbaycanlı Ermənistan SSR ərazisindəki dədə-baba yurdlarından kütləvi surətdə və zorakılıqla sürgün olunmuşdur. Adi hüquq normalarına zidd olan bu qərarların icrası zamanı avtoritar-totalitar rejimin mövcud repressiya qaydaları geniş tətbiq edilmiş, minlərlə insan, o cümlədən qocalar və körpələr ağır köçürülmə şəraitinə, kəskin iqlim dəyişikliyinə, fiziki sarsıntılara və mənəvi genosidə dözməyərək həlak olmuşlar. Bu işdə erməni şovinist dairələrinin və SSRİ rəhbərliyinin cinayətkar siyasəti ilə yanaşı, o dövrkü Azərbaycan rəhbərliyinin də öz xalqının taleyinə zidd mövqeyi, soydaşlarımıza qarşı törədilən cinayətlərin təşkilində və həyata keçirilməsində iştirakı da az rol oynamamışdır.

Təəssüf ki, 1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindən deportasiya olunması faktı ötən 50 il ərzində lazımınca araşdırılmamışdır, bu hadisələrə hüquqi-siyasi qiymət verilməmişdir.

Yuxarıda göstərilənləri nəzərə alaraq qərara alıram.

1. 1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyasının hərtərəfli tədqiq edilməsi, Azərbaycan xalqına qarşı dövlət səviyyəsində həyata keçirilmiş bu tarixi cinayətə hüquqi-siyasi qiymət verilməsi və onun beynəlxalq ictimaiyyətə çatdırılması məqsədi ilə aşağıdakı tərkibdə dövlət komissiyası yaradılsın:

Dövlət komissiyasının sədri:
Heydər Əliyev – Azərbaycan Respublikasının Prezidenti.
Dövlət komissiyası sədrinin müavini :
Artur Rasizadə – Azərbaycan Respublikasının baş Naziri.

Dövlət komissiyasının üzvləri:
Ramiz Mehdiyev – Azərbaycan Respublikası Prezidenti İcra Aparatının rəhbəri
Vasif Talıbov – Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri
İzzət Rüstəmov – Azərbaycan Respublikası baş nazirinin müavini
Elçin Əfəndiyev – Azərbaycan Respublikası baş nazirinin müavini
Həsən Həsənov – Azərbaycan Respublikasının xarici işlər naziri
Namiq Abbasov – Azərbaycan Respublikasının milli təhlükəsizlik naziri
Ramil Usubov – Azərbaycan Respublikasının daxili işlər naziri
Eldar Həsənov – Azərbaycan Respublikasının baş prokuroru
Südabə Həsənova – Azərbaycan Respublikası ədliyyə nazirinin birinci müavini
Xanlar Hacıyev – Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri
Sirus Təbrizli – Azərbaycan Respublikasının mətbuat və informasiya naziri
Vəfa Quluzadə – Azərbaycan Respublikasının xarici siyasət məsələlər üzrə dövlət müşaviri
Hidayət Orucov – Azərbaycan Respublikasının milli siyasət məsələləri üzrə dövlət müşaviri

Fatma Abdullazadə – Azərbaycan Respublikası Prezidenti İcra Aparatının humanitar siyasət şöbəsinin müdiri

Şahin Əliyev – Azərbaycan Respublikası Prezidenti İcra Aparatının qanunvericilik və hüquq ekspertizası məsələləri şöbəsinin müdiri

Fuad Ələsgərov – Azərbaycan Respublikası Prezidenti İcra Aparatının dövlət-hüquq şöbəsinin müdiri

Yusif Hümbətov – Azərbaycan Respublikası Prezidenti İcra Aparatının ərazi idarəetmə orqanları ilə iş şöbəsinin müdiri

Əli Həsənov – Azərbaycan Respublikası Prezidenti İcra Aparatının ictimai-siyasi şöbəsinin müdiri

Rəfael Allahverdiyev – Bakı şəhəri İcra Hakimiyyətinin başçısı

Nizami Xudiyev – Azərbaycan Respublikası Dövlət Televiziyası və Radio Verilişləri şirkətinin sədri

Fərəməz Maqsudov – Azərbaycan Elmlər Akademiyasının prezidenti

Anar Rzayev – Azərbaycan Yazıçılar Birliyinin sədri

Cəmil Quliyev – Azərbaycan Elmlər Akademiyası ictimai elmlər bölməsinin akademik- katibi əvəzi

İqrar Əliyev – Azərbaycan Elmlər Akademiyası Tarix İnstitutunun direktoru

Budaq Budaqov – Azərbaycan Elmlər Akademiyası Coğrofiya İnstitutunun direktoru

Ataxan Paşayev – Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Baş Arxiv İdarəsinin rəisi

Yusif Yusifov – N.Tusi adına Azərbaycan Dövlət Pedaqoji Universitetinin ümumi tarix kafedrasının müdiri

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu fərmanın icrası ilə bağlı məsələləri həll etsin.

**H.Ə.Əliyev**
**Azərbaycan Respublikası Prezidenti**
**Bakı şəhəri,**
**18 dekabr 1997-ci il**

# GİRİŞ

XX əsrin sonlarında müstəqillik əldə etmiş xalqımızın tarixində qaranlıq səhifələr çox olmuşdur. Yaşadığımız sovet dövrünün "total" qadağaları tariximizə aydın nəzər salmağa onilliklər boyu imkan verməmişdir. Yalnız sovet imperiyasının çökməsindən və dövlət müstəqilliyimizi qazandıqdan sonra tariximizin uzun illər gizli saxlanılan, təhrif edilən hadisələrin obyektiv mənzərəsini yaratmaq imkanı əldə etmişik. Uzun illər yasaq olunmuş belə mövzulardan biri də ikinci dünya müharibəsindən sonrakı illərdə Azərbaycan türklərinin tarixi-etnik torpaqlarından, Ermənistan SSR-dən deportasiya olunması hadisəsidir. Xalqımızın tarixinə "ağ ləkələr" kimi düşmüş bu faciəli hadisələr uzun illər tariximizin "dondurulmuş" səhifələrindən birinə çevrilmişdir.

SSRİ-də sosializmin quruculuğu gedişi prosesində totolitar rejimə müqavimət göstərən müxtəlif qruplar, siyasi partiyalar deyil, bütöv xalqlar Sovet deportasiya siyasətinə məruz qalmışdır. Onlar müxtəlif "səbəblərdən" yurd-yuvalarından zorla köçürülmüş, deportasiya edilmişlər. Deportasiyaya məruz qalmış xalqlar sırasında türk xalqları, o cümlədən Azərbaycan türkləri də olmuşdur. Onlar 1948-1953-cü illərdə Ermənistan SSR-dən İ.V.Stalinin 1947-ci il 23 dekabr tarixli fərmanı ilə köçürülmüş, qədim Azərbaycan torpaqlarında xristian ermənilər yerləşdirilmişlər. Bu ilk növbədə imperiya siyasətindən irəli gəlsə də, ermənilər uyğun şəraitdən yararlanmış, Azərbaycan türklərinin tarixi torpaqlarından köçürülməsinə nail olmuşlar.

Azərbaycan türklərinə qarşı məqsədyönlü şəkildə həyata keçirilən etnik təmizləmə siyasəti nəticəsində soydaşlarımız milli faciə və məşəqqətlərə məruz qalmışdır. Azərbaycanın Kür-Araz ovalığına köçürülmüş soydaşlarımız isti iqlim şəraitinə dözməyərək müxtəlif xəstəliklərdən tələf olmuş, əsl soyqırıma məruz qalmışlar. Təəssüflər olsun ki, soydaşlarımıza qarşı yönəlmiş bu məkrli siyasət uzun illər özünün əsl siyasi, tarixi, elmi qiymətini

almamış, etnik təmizləmə siyasəti lazımi dərəcədə özünün obyektiv təhlilini və izahını tapmamışdır. İ.V.Stalinin ölümündən sonra deportasiya olunmuş xalqlara verilmiş reabilitasiya ictimai-siyasi həyatda tarixi hadisə olsa da bu bəraətləndirmə köçürülməyə məruz qalmış 100 mindən çox soydaşımıza şamil edilməmişdir.

Yenidənqurma dövründə də, Sovet dövləti səviyyəsində xalqların zorla köçürülməsi praktikası pislənilsədə, Azərbaycan türklərinin köçürülməsinə münasibət dəyişməmiş, bu məsələ öz müsbət həllini tapmamışdır. Bütün bunların nəticəsidir ki, deportasiya ilə bağlı sovet tarix ədəbiyyatlarında Azərbaycan türklərinin tarixi torpaqlarından deportasiyası, köçürülməyə məruz qalmış xalqlar sırasına nəinki aid edilmir, eyni zamanda tarixi tədqiqatlardan da kənarda qalmışdır.

Tarixi ədalət yalnız, Ümummilli lider H.Ə.Əliyevin qətiyyəti nəticəsində bərpa olunmuş, bu hadisə dövlət səviyyəsində öz siyasi, hüquqi qiymətini almışdır. H.Ə.Əliyevin "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" kı 18 dekabr 1997-ci il tarixli fərmanında etnik təmizləmə siyasəti və onlara qarşı edilən qeyri-humanist münasibət pislənilmiş, bu problem məsələnin öyrənilməsi tarixçilər qarşısında bir vəzifə olaraq qoyulmuşdur. Beləliklə, bu mühüm tarixi faciənin gizli səhifələrinin düzgün və obyektiv yazılması tarixi zərurətə çevrilmişdir. 1948-1953-cü illərdə Azərbaycan türklərinin tarixi torpaqlarından, Ermənstan SSR-dən deportasiyasını araşdırılması, SSRİ və Ermənistan SSR rəhbərlərinin bu sahədə tutduğu mövqeyi, cinayətkar əməllərinin təhlil edilməsi, nəinki soydaşlarımıza qarşı edilən tarixi haqsızlığı aradan qaldırmaq, bu həm də, tarixi ədalətin öz yerini tutmasına yönəlik bir addımdır.

Problemin öyrənilməsinə əsasən, Dağlıq Qarabağ münaqişəsindən sonra başlanılmışdır. Bu bir tərəfdən Sovet imperiyasının çökməsi və senzuranını ləğvi ilə əlaqədar idisə, digər

tərəfdən xalqımızın tarixi taleyində baş vermiş hadisələrin yeni prizmadan qiymətləndirilməsi ilə bağlı idi.

Müxtəlif illərdə İ.Məmmədov, S.Əsədov [34a.], A.Paşayev [41], B.Nəcəfov [37], L.Həsənova [17, 18], V.Arzumanlı, N.Mustafa [8], H.Rəhimoğlu [43], C.Həsənli[19 a.], tərəfindən bir sıra əsərlər yazılmışdır ki, bunlar da problemi bu və ya digər dərəcədə əks etdirir.

Azərbaycan türklərinin deportasiyası tarixində 1948-1953-cü illər deportasiyası mühüm yer tutur. Lakin təəssüflə qeyd etmək lazımdır ki, bu problem uzun müddət tarixi tədqiqatlardan kənarda qalmışdır. 1990-ci illərin əvvəllərində ilk əsaslı reaksiya özünü ədəbi-tarixi publisistikada göstərdi. "Didərginlər" kitabında İ.Şıxlı, S.Rüstəmxanlı, H.Balıyev, T.Əhmədov, S.Əsədov və b. tanınmış şair, ədib, publisist və tarixçilər Azərbaycan türklərinin deportasiyasının üç mərhələsi arasında əlaqə, onun həyata keçirilməsi forması və məzmununu göstərir [11].

Tarixi fakt və sənədlər əsasında problemin öyrənilməsində görkəmli tarixçi-alim A.Paşayevin tədqiqatları böyük əhəmiyyətə malikdir. Bu milli faciə barədə həqiqətlər ilk dəfə olaraq A.Paşayevin "Respublika", "Vətən Səsi" qəzetlərində gedən silsilə yazılarında və "Köçürülmə" kitabında geniş əks olunmuşdur [41; 42a.].

Müəllif 1995-ci ildə "Köçürülmə" adı ilə çap olunmuş əsərində yazırdı ki, "son vaxtlara qədər azərbaycanlıların 1948-1953-cü illərdə köçürülməsinin öyrənilməsi də yasaq olunmuş mövzulardan biri idi…" [41]. A.Paşayev öz kitabında arxiv sənədləri əsasında deportasiya barədə geniş məlumat vermiş, ilk dəfə olaraq köçürülmə ilə bağlı sovet direktiv orqanlarının qəbul etdiyi qərarları və normativ aktları yığcam və əhatəli şəkildə şərh etmişdir [41].

S.Əsədovun elmi redaktorluğu ilə müəlliflər kollektivi tərəfindən "Gənclik" nəşriyyatında 1995-ci ildə çap edilmiş "Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası" kitabında Azərbaycan türklərinin 1948-1953-cü illlər deportasiyası üçüncü

mərhələ kimi ayrılmış, deportantların sayı və s. məsələlərə toxunulmuşdur [13, s.464].

Ermənistan azərbaycanlıları haqqında yazılan sanballı əsərlər içərisində faktik bazasına, tarixi-demoqrafik materialların zənginliyinə görə H.Rəhimoğlunun 1997-ci ildə nəşr edilmiş, “Silinməz adlar, sağalmaz yaralar” kitabı nəzərdən keçirilən problemin tarixşünaslığında diqqəti cəlb edən tədqiqatlardandır. Kitabda qoyulan məsələlər elmi-metodoloji baxımdan xüsusi əhəmiyyəti ilə seçilir. H.Rəhimoğlu bu dövrdə ermənilərin soydaşlarımıza qarşı törətdikləri cinayətləri tutarlı arqumentlərlə, dəqiq faktlarla açıqlamışdır. Müəllif kitabın, “Azərbaycanlılar keçmiş Ermənistan SSR ərazisində” bölümündə bu tarixi üç dövrə bölür və onları səciyyələndirir [43, s.11-102].

Problemin əsasən geniş surətdə öyrənilməsinə Azərbaycan Respublikası prezidenti Ümummilli lider H.Ə.Əliyevin “1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında” 1997-ci il 18 dekabr tarixli fərmanından sonra başlanılmışdır. [46a, № 293, 1997; 46 b, 1998]. Prezidentin bu fərmanında problemin öyrənilməsi sahəsində görülən işlər qənaətbəxş hesab edilməmiş, onun daha dərindən və hərtərəfli tədqiqi zərurəti irəli sürülmüşdür. Fərmanda haqlı olaraq deyilirdi: “SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli 4083 nömrəli və 1948-ci il 10 mart tarixli 754 nömrəli qərarları Azərbaycan xalqına qarşı növbəti tarixi cinayət aktı olmuşdur…Təəssüf ki, 1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindən deportasiya olunması faktı ötən 50 il ərzində lazımınca araşdırılmamış, bu hadisələrə hüquqi-siyasi qiymət verilməmişdir”.

Bu fərmandan sonra 1948-1953-cü illər deportasiyasına həsr edilmiş elmi konfranslar keçirilmiş, yeni kitab və məqalələr çap edilmişdi. Bu əsərlər içərisində 1998-ci ildə «Azərbaycan Ensiklopediyası» nəşriyyatında nəşr olunmuş “Deportasiya” məcmuəsidir. Məcmuədə dövlət rəhbərləri, tarixçilər, hüquqşünaslar, ictimaiyyət nümayəndələri tərəfindən dövlət rəhbərinin imza-

lamış olduğu son dərəcədə bu ədalətli fərmanı geniş şərh edilmiş, ermənilərin etnik təmizləmə siyasəti faktların dililə ictimaiyyətin diqqətinə çatdırılmışdır. [10].

B.Nəcəfov həmin ildə, 1998-ci ildə nəşr edilmiş "Deportasiya" kitabını çap etdirmişdir. Müəllif köçürmə ilə bağlı qərarların geniş siyasi şərhini vermiş, ilk dəfə olaraq zəngin arxiv materiallarını elmi dövriyyəyə daxil etmişdir. Monoqrafiyada tədqiqatçı problemin tarixi hadisələr kontekstində tədqiqinə səy göstərmişdir [37].

Azərbaycan türklərinin Ermənistan SSR-dən deportasiyası probleminin öyrənilməsində L.Həsənovanın əməyini xüsusi olaraq qeyd etmək lazımdır. Müəllifin "1948-1953-cü illərdə Azərbaycanlıların Ermənistan SSR-dən köçürülməsinin Sovet deportasiya tarixində yeri" məqaləsi problemin həllinin qoyuluşu baxımından əhəmiyyət daşıyır. L.Həsənova ilk dəfə olaraq Azərbaycan türklərinin deportasiyasını XX əsrin 30-40-cı illərindəki Sovet deportasiya siyasəti kontekstində nəzərdən keçirmişdir [16, s.96, 102].

Tədqiqatçı "Azərbaycan əhalisi XX yüzilliyin ikinci yarısında" dəyərli əsərinin bir bölümündə azərbaycanlıların deportasiyasına geniş yer vermişdir. Burada problem əhali tarixi kontekstində tədqiq edilir, onun Azərbaycan SSR əhalisinin say dinamikasına təsiri ətraflı öyrənilmişdir [17, s.91-116].

V.Arzumanlı və N.Mustafanın müəllifləri olduqları,1998-ci ildə buraxılmış "Tarixin qara səhifələri. deportasiya, soyqırımı, qaçqınlıq" kitabının "1948-1953-cü illər deportasiyası" adlı bölümü Ermənistanda azərbaycanlıların dövlət səviyyəsində tarixi torpaqlarından deportasiyasından bəhs edilir, tariximizin bir sıra qaranlıq səhifələrinin öyrənilib üzə çıxarılmasında böyük əhəmiyyət kəsb edir [8].

Azərbaycan Respublikası Milli Arxiv İdarəsi tərəfindən 2013-cü ildə A.Ə.Paşayevin redaktorluğu və əməyi nəticəsində ərsəyə gəlmiş "Azərbaycanlıların Ermənistan SSR-dən deportasiyası (1948-1953-cü illər)" adlı sənədlər toplusu o dövrdə

soydaşlarımızın başına gətirilmiş müsibətləri əyani şəkildə əks etdirir [9a.]. Bu sənədlər toplusu 1948-1953-cü illərdə baş vermiş hadisələrin sənəd materialları əsasında işıq üzü görməsi sahəsində ilk cəhddir. Bu hadisəni özündə əks etdirən arxiv materialları sovet hakimiyyəti illərində soydaşlarımıza qarşı həyata keçirildiyi və heç bir ciddi əsasa söykənməyən, qərəzli siyasətini faktların dili ilə göstərir.

Öyrənilən problemlə əlaqədar mövcud əsərlərin təhlilindən çıxarılan nəticələr onu göstərir ki, bu sahədə yazılmış əsərlərdə tədqiq etdiyimiz problemin bəzi cəhətləri zəif əks olunmuş, azərbaycanlıların deportasiyasına gətirib çıxarmış səbəblər indiyədək öyrənilməmişdir. Tarix ədəbiyyatının qısa xülasəsindən də görünür ki, bütövlükdə problemin öyrənilməsi istiqamətində bir sıra işlər görülsədə, bütün bunlar lazımı səviyyədə deyildir və problemin tədqiqinə xüsusi ehtiyac var. Bu baxımdan tədqiq etdiyimiz problemin hərtərəfli araşdırılması monoqrafiya işinin qarşısında duran başlıca vəzifələrdən biri olmuşdur.

- Monoqrafiya işinin əsas məqsədi 1948-1953-cü illərdə Ermənistan SSR-də Azərbaycan türklərinə qarşı həyata keçirilən deportasiya siyasətini kompleks şəkildə tədqiq etməkdir. Bu məqsədə müvafiq olaraq monoqrafiya işinin qarşısına aşağıdakı vəzifələr qoyulmuşdur:

- II dünya müharibəsindən sonrakı illərdə Azərbaycan türklərinin Ermənistan SSR-dən deportasiyasını kompleks nəzərdən keçirməklə deportasiyanı doğurmuş şərait və amilləri öyrənmək;

- Deportasiyada erməni kilsəsinin və erməni təşkilatlarının rolunu açıb göstərmək ;

- Azərbaycan türklərinin deportasiyasında SSRİ və Ermənistan rəhbərlərinin apardığı siyasi xətti faktlar və sənədlərlə tədqiq etmək;

- Azərbaycanlı əhalinin məcburi köçürülməsi prosesində atılan addımların qeyri-humanist və cinayətkar xarakterini öyrənmək və təhlil etmək;

Monoqrafiyanın mənbəşünaslıq bazasını ilk növbədə aşkara çıxarılmış və xeyli hissəsi elmi dövriyyəyə ilk dəfə daxil edilən mənbələr və materiallar təşkil edir. Problemin mənbəşünaslıq bazasının araşdırılması mövcud mənbələri bir neçə qrupa bölməyə imkan verir: 1) Azərbaycan Respublikası Dövlət Arxivinin və Azərbaycan Respublikası Prezidentnin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivinin fondları; 2) Problemlə bağlı respublikamızda çap edilmiş nəşrlər; 3) Elmi məqalələr; 4) Rusiyada, Ermənistanda, Türkiyədə nəşr edilmiş ədəbiyyatlar; 5) Dövrü mətbuat.

ARDA və ARPİİSSA-nin uzun illər qadağan edilmiş fondları tədqiq etdiyimiz problemi öyrənməkdə ən mühüm mənbə hesab edilə bilər [1,2,3,4,5,6,].

Mənbələrin mühüm qrupuna vaxtı ilə Ermənistanda yüksək partiya və dövlət işlərində çalışmış azərbaycanlı rəhbərlərin əsərləri daxildir. Bu əsərlər həm elmi, həm də memuar üslubdadır.Bunların içərisində H.Rəhimoğlu, S.Əsədov, İ.Məmmədov, T.Musayevin əsərlərini qeyd etmək olar [43; 34; 36].

Mənbələrin digər qrupunu isə elmi məqalələr təşkil edir. Öyrənilən problemlə bağlı məqalələrdən də geniş istifadə olunmuşdur.

Problemi araşdırmaq üçün mühüm mənbə kimi Türkiyədə, Rusiyada, keçmiş SSRİ-də, Ermənistan SSR-də müxtəlif illərdə nəşr edilmiş ədəbiyyatlardan istifadə edilmişdir. Bu ədəbiyyatlarda problemin müxtəlif tərəfləri ilə bağlı bir çox məsələlər öz əksini tapmışdır. Mənbələrdən istifadə edilərkən müəllif fikirlərinə tənqidi yanaşılmış, müqayisələr aparmaq yolu ilə faktların dəqiqləşdirilməsinə xüsusi fikir verilmişdir.

Dövri mətbuat materialları da problemi araşdırmaq üçün ən mühüm mənbədir. Monoqrafiya işi yazılarkən Moskvada, Yerevanda, Bakıda çap edilmiş "Pravda", "Kommunist" (Bakı), "Kommunist" (Yerevan), "Armyanskiy Vestnik", qəzetləri və digər mətbu orqanlarının materiallarından geniş istifadə edilmişdir. Adları çəkilən qəzet materialları əsasən informasiya xarak-

terli olduğundan və bəzən bu məlumatlar daha çox siyasiləşdiyindən dövrü mətbuat materialların öyrənilməsi, bu materialların arxiv və digər mənbələrlə tarixi müqayisəsi əsasında təhlili məqsədəuyğun hesab edilmişdir.

Monoqrafiya işi aşağıdakı elmi yeniliklə şərtlənir.

- Tədqiq etdiyimiz mövzu tarixşünaslıqda ilk dəfədir ki, müstəqil problem kimi işlənilir;

- Azərbaycanlıların deportasiyası problemi tarixi hadisələr kontekstində ilk dəfə kompleks halında tədqiq edilir;

- Azərbaycanlıların Ermənistan ərazisindən deportasiyasının siyasi kökləri ilk dəfə olaraq dərindən araşdırılır, deportasiyaya qədərki proseslərin geniş təhlili verilir;

- Monoqrafiyada deportasiya ərəfəsində erməni təşkilatlarının və Eçmiəzzin kilsəsinin fəaliyyəti ilk dəfə olaraq geniş şərh edilmişdir;

- Azərbaycanlıların deportasiyaya qarşı etiraz tədbirləri arxiv materialları əsasında ilk dəfə olaraq geniş şərh edilir;

Monoqrafiya işində gətirilən faktiki arxiv və dövrü mətbuatdan, ədəbiyyatlardan və sənədlərdən, bu materiallardan alınmış nəticə və ümumiləşdirilmələrdən respublikanın ali məktəblərində mühazirələrdə istifadə edilə bilər. Azərbaycan türklərinə qarşı yeridilən erməni mənfur siyasəti barədə tarixi həqiqətlərin hər bir azərbaycanlıya çatdırılması, erməni etnik düşmənçiliyinin millətimizə qarşı törətdiyi deportasiya və soyqırımı hadisələrinin aşkarlanması, gənclərimizdə milli şüurun formalaşmasında, milli hafizə, milli yaddaşın möhkəmlənməsində monoqrafiya əvəzsiz rol oynaya bilər.

# I FƏSİL

## Azərbaycanlıların deportasiyasını doğuran şərait və səbəblər

XX əsrin 90-cı ilərin əvvəlində Sovet imperiyasının süqutu ilə birgə sərt sovet senzurası da öz siyasi ömrünü başa vurmuş oldu. Senzuranın ləğvi və cəmiyyətdə yaranmış yeni siyasi mühitlə əlaqədar olaraq arxiv fondları üzərinə qoyulmuş "məxfi qrif"lər də aradan qaldırıldı. Üzərinə qadağa qoyulmuş bir sıra mövzular, o cümlədən Azərbaycan türklərinin 1948-1953-cü illərdə tarixi-etnik torpaqlarından – Ermənistan SSR-dən deportasiyası problemi də tarixçi-tədqiqatçıların tədqiqat predmetinə çevrildi.

Aparılmış tədqiqatlar göstərir ki, ikinci dünya müharibəsindən sonrakı illərdə Ermənistan SSR-dən türk əhalisinin kütləvi deportasiyası, XX əsrin 30-40-cı illərində Sovet İttifaqında həyata keçirilmiş və bir çox xalqlara qarşı tətbiq edilmiş sovet deportasiya siyasətinin məntiqi davamı olmuşdur [16, s.98]. Bu mənada Azərbaycan türklərinin deportasiyası problemini təhlil edərkən, həmin illərdə SSRİ-də həyata keçirilmiş sovet deportasiya siyasəti tarixinə ötəri də olsa toxunmamaq mümkün deyil.

Deportasiya latın dilində “deportatio” sözündən olub, mənası məcburi köçürülmə, qovulma, sürgün olunma deməkdir [81, s.88]. Əhalini deportasiya etmə və ya məcburi köçürmə əhalinin uzun müddət olduğu qanuni yaşayış yerlərindən zorla çıxarılması ilə müşaiyət olunan və insanların kütləvi şəkildə ev-eşiyindən, doğma torpaqlarından, ölkəsindən qovulması ilə nəticələnən hərəkətlərlə xarakterizə olunur [9, s.231].

1917-ci ildə Rusiyada çar monarxiyasının xarabalıqları üzərində qurulmuş burjua-demokratik hökumətini devirərək silah gücünə zorla siyasi hakimiyyətə yiyələnmiş bolşeviklər siyasi leksikona “sosializm”, “kommunizm” kimi məfhumlarla birgə repressiya, deportasiya istilahını da daxil etdilər.

Sovet İttifaqında sosializm quruculuğu gedişi prosesində təkcə totalitar rejimə müqavimət göstərən müxtəlif qruplar, təşkilatlar, siyasi partiyalar deyil, həmçinin bütöv xalqlar belə amansız təqiblərə məruz qalmış, məhv edilmiş, repressiya və deportasiya olunmuşdur. Bu dünya tarixində misli görünməmiş, xalqların zorla köçürülməsi praktikası idi. Təxmini rəqəmlərə görə, XX əsrin 30-40-cı illərində SSRİ-də 3.226.340 nəfər sovet deportasiya siyasətinə məruz qalmış, yaşadıqları ərazilərdən məcburi qaydada sürgün edilmişdir [57, s.135].

Həmin illərdə sovet deportasiya siyasətinə məruz qalmış xalqlar sırasında Azərbaycan türkəri də olmuşdur. Onlara qarşı ilk deportasiya vaxtı ilə Cənubi Azərbaycandan gəlib Şimali Azərbaycanda məskunlaşmış cənublu soydaşlarımıza qarşı tətbiq olunmuşdu. Pasportlaşma siyasəti həyata keçirilərkən İran Azərbaycanında doğulduğunu qeyd edən vətəndaşların bir hissəsi zorla İrana sürgün edilmişdi [20, s.140].

1937-1938-ci illərdə İrəvan, Cəlaloğlu (Stepanavan), Gümrü (keçmiş Leninakan), Allahverdi və Ermənistanın başqa rayonlarından azərbaycanlı əhali eynilə bu cür siyasətə məruz qalaraq İranlı adı altında rəsmi şəkildə ölkə ərazisindən çıxarılmışlar [45 a, s.229-230]. Bəzi mənbədə isə Azərbaycan türklərinin 1934-1941-ci illərdə Tbilisi ətrafından məcburi köçürülməsi göstərilir [86,c.I,s.472]. Faktlardan göründüyü kimi, XX əsrin 30-40-cı illərində Azərbaycan türkləri də qismən sovet deportasiya siyasətinə məruz qalmışlar. Göstərilən mənbələrdə deportasiya siyasətinə məruz qalmış azərbaycanlı əhalinin sayı barədə məlumat verilmir.

Azərbaycan türklərinin həmin illərdə geniş miqyaslı deportasiya siyasətinə məruz qalmaması üç əsas amillə müəyyən olunur; Bunlar 30-40-cı illərdə Azərbaycan türklərinin qismən deportasiyaya məruz qalması; ikincisi, Sovet ittifaqının İran siyasəti və Azərbaycan SSR-in bu siyasətdə mühüm rol oynaması; üçüncüsü, Türkiyənin müharibəyə qoşulmaması ilə bağlıdır. [16, s.102]

Belə bir fikir də səsləndirilir ki, guya Azərbaycan türklərinin müharibə illərində köçürülməsi Türkiyəni qıcıqlandıra və onu faşist Almaniyasının müttəfiqi kimi Sovet İttifaqına qarşı müharibəyə sövq edə bilərdi. Bu mülahizənin elmi əsası yoxdur. Belə bir sual etmək olar? Türkiyə türkləri ilə eyni soydan olan Ahıska türkləri, Krım türkləri tarixi ərazilərindən köçürüldü, Türkiyə müharibəyə qoşuldumu…?! Halbuki, onların tarixi ərazilərindən köçürülməsi birbaşa Türkiyə ilə əlaqələndirilir, dövlət sərhədlərinin "təhlükəsizliyi" adı altında həyata keçirilirdi. Həmin illərdə Krım türkləri, Ahıska türkləri kimi eyni soydan olan Azərbaycan türklərinin də Sovet ittifaqının Türkiyə ilə həmsərhəd ərazilərindən məcburi köçürülməsi həyata keçirilə bilərdi. Biz bir məsələdə tədqiqatçı L.Həsənova ilə razıyıq ki, Azərbaycanlıların köçürülməməsində Sovet İttifaqının İran siyasəti və Azərbaycan SSR-nin bu siyasətdə mühüm yer tutması idi [16, s.97-98]. Azərbaycan türklərinin həmin illərdə tarixi torpaqlarından köçürülməsi SSRİ-nin İran siyasəti və bu siyasətdə mühüm rol oynayan Azərbaycan SSRİ-nin iştirakına böyük zərbə ola bilərdi. Məhz bu amilə görə Sovet hökuməti belə bir addımı atmadı.

Göründüyü kimi, XX əsrin 30-40-cı illərində Azərbaycan türklərinin kütləvi deportasiyası üçün nə bir siyasi şərait, nədə ki, heç bir səbəb yox idi. Səbəb olmayan yerdə isə nəticə də ola bilməzdi... İkinci dünya müharibəsindən sonrakı illərdə isə Azərbaycan türklərinin köçürülməsi üçün siyasi şərait də var idi, nəticəni doğuran "səbəblər" də...

XX əsrin 30-40-cı illərində sovet deportasiya siyasətinə məruz qalmış xalqlar, millətlər əsassız, səbəbsiz köçürülmürdülər. Onların tarixi torpaqlarından məcburi köçürülməsinin hər birinin ayrı-ayrılıqda konkret səbəbləri var idi. Həmin xalqların məcburi köçürülməsi də rəsmi dövlət qərarlarında əsassız da olsa müəyyən səbəblərlə izah olunur, bu xalqlara qarşı saxta ittihamlar irəli sürülürdü.

Sovet deportasiya tarixi Sov.İKP XX qurultayından (1956-cı il fevral) sonra diqqəti cəlb etsə də, lakin onun hərtərəfli tədqi-

qinə 1980-ci illərin sonlarından başlanmışdır. SSRİ Ali Soveti 1989-cu ilin noyabrında "Məcburi köşürülməyə məruz qalmış xalqlara qarşı repressiya aktlarının qeyri qanuniliyi və cinayətkarlığının etiraf olunması və onların hüquqlarının təmin edilməsi haqqında" bəyannamə qəbul etmişdir [71b.]. Təəssüflər olsun ki, Sovet deportasiya tarixinə dair tədqiqatlarda və adı çəkilən bəyannamədə azərbaycanlıların Ermənistan SSR-dən deportasiyası haqqında demək olar ki, bəhs olunmur. Azərbaycanlıların deportasiyasının rəsmi sənədlərdə və Sovet deportasiya tarixindən bəhs olunan elmi ədəbiyyatlarda adının belə çəkilməməsi bu prosesin bu sıraya aid edilməməsi ilə izah edilməlidir.

Bu problemə münasibətdə istər Azərbaycan, istərsə də ümumi tarix ədəbiyyatlarında ciddi çatışmazlıqlar mövcuddur. Azərbaycanlıların deportasiyası respublikamızda daha çox yığcam şəkildə, indiki MDB məkanında isə Sovet deportasiya siyasətinə məruz qalmış xalqların köçürülmə səbəbləri sırasında azərbaycanlıların məcburi köçürülməsi nəzərə alınmadan tədqiq edilir, problemin əsl siyasi mahiyyəti məhdudlaşdırılır. Ona görə də bu problemə xüsusi fikir verilməsi vacibliyi, zərurəti meydana çıxır.

Sovet deportasiya tarixinin ən mühüm məsələlərindən biri də onu doğuran səbəblərdir. Moskvada nəşr edilən "Voprosı İstorii" ("Tarix məsələləri") jurnalında açılan "dəyirmi stolda" əsasən sovet xalqlarına qarşı tətbiq olunmuş deportasiya siyasətinin yaranması və onu doğuran səbəblər haqqında istər tarixçi, istərsə də dilçi alimlərin açdığı müzakirələr xüsusilə diqqəti cəlb edir. Belə ki, sovet xalqlarına qarşı həyata keçirilmiş deportasiyaları doğuran səbəblər barədə müxtəlif fikirlər söyləyirlər. Onların bu barədəki fikirləri ayrı-ayrılıqda həqiqətə yaxın və inandırıcı görünsə də, ümumilikdə deportasiyanı doğuran səbəblər barədə bu alimlər arasında vahid, yekdil fikir yoxdur.

T.Y.Krasovitskaya "Sovet İttifaqı 20-ci illərdə" mövzusunda keçirilən "dəyirmi stolda" deportasiyaların əsas səbəbi kimi onu Sovet İttifaqında "yekcins dil mühiti"nin yaradılması

zərurəti ilə izah edir və nümunə olaraq deportasiyaya məruz qalmış xalqlar sırasında türkdilli xalqların çoxluq təşkil etdiyini əsaslandırmağa çalışır [78, s.47-51].

V.M.Alpatov "Voprosı İstorii" jurnalının redaksiyasına göndərdiyi "K istorii Sovetskoqo yazıkoznaniya: Marr i Stalin" adlı məktub məqaləsində T.Y.Krasovitskayanın mülahizələrini dəqiq olmayan, əsaslandırılmamış səhv fikir olduğunu vurğulayır və alternativ mülahizə ilə çıxış edir. O, belə hesab edir ki, xalqların deportasiya olunmasında İ.V.Stalinin hələ Qafqazda olarkən burada yaşayan xalqlara olan simpatiyası və antipatiyası müəyyən rol oynamışdır [47, s.185-188].

Tədqiqatçı N.F.Buqay isə V.M.Alpatovun bu mülahizəsinin həqiqətə daha çox yaxın olduğunu bildirərək bu səbəbi də başqalarının sırasında baxmağı təklif edir. O, əldə olunan sənədlərə əsasən belə bir mülahizə yürüdür ki, 1930-1940-cı illərdə Sovet İttifaqında bütöv xalqların məcburi köçürülməsinin əsas səbəbi bunlardır. Birincisi, cəzalandırma – bu intiqam ilk növbədə işğal zamanı bu xalqların ayrı-ayrı şəxslərinə və qruplarına görə edilirdi; ikincisi, köçürmədə mümkün olan xəyanətə görə preventiv (qabaqlayıcı) tədbir kimi istifadə edilirdi. Onun fikrincə bütün bu tədbirlər əslində ola biləcək müharibələrdə həmin millətlərdən olanların xaricdə yaşayan soydaşları ilə bir olduğuna görə edilirdi [57, s.136].

Tədqiqatçı L.Həsənova isə belə hesab edir ki, sovet deportasiyasının həm ümumi, həm də konkret hal üçün xüsusi səbəbləri var. Onların birgə nəzərdə keçirilməsi əhəmiyyəti qeyd olunmalıdır. L.Həsənova ilk dəfə olaraq sovet deportasiya siyasətinin əlamətlərini üzə çıxartmış, onu Azərbaycan türklərinin Ermənistan SSR-dən deportasiyası ilə müqayisə etmişdir. Aydın olmuşdur ki, azərbaycanlıların deportasiyası Sovet deportasiyasının məntiqi davamıdır [16, s.94].

Onilliklər ərzində Azərbaycan türklərinin deportasiyası problemi məlum səbəblər üzündən öyrənilməmişdir. Bu faciə ilə bağlı həqiqətlər ilk dəfə tarixçi – alim A.Paşayevin arxiv mate-

rialları əsasında yazmış olduğu, “Respublika”, “Vətən Səsi” qəzetlərində gedən silsilə yazılarında və “Köçürülmə” kitabında geniş məlumat verilmişdir.[41]

Azərbaycan türklərinin deportasiyasının tədqiqi istiqamətində çoxlu elmi, publisistik və memuar ədəbiyyat meydana çıxsada, A.Paşayevin, B.Nəcəfovun, L.Həsənovanın, Nazim Mustafanın bu sahədə apardığı tədqiqat işləri öz əhəmiyyəti və elmiliyi ilə seçilir.

Lakin bununla belə onu qeyd edək ki, işıq üzü görmüş tədqiqat yönlü işlərin Azərbaycan tarixşünaslığında bu problemlə bağlı mövcud boşluğu aradan qaldırmaqda əhəmiyyəti nə qədər böyük olsa da, problemin araşdırılması ilə bağlı bir çox qaranlıq məsələlər qalmaqdadır. İkinci dünya müharibəsindən sonrakı illərdə Azərbaycan türklərinin 1948-1953-cü illərdə tarixi-etnik torpaqlarından – Ermənistan SSR-dən deportasiyasını doğuran şərait və səbəblər üzə çıxarılmamış, bu da, problemin yetərincə araşdırılmasında tarixşünaslıq elmimizdə bir boşluq yaratmışdır. Məhz bu boşluqdan da irəli gələn müxtəlif fikir və mülahizələrin ortaya çıxmasına səbəb olmuşdur.

Azərbaycan türklərinin 1948-1953-cü illərdə Ermənistan SSR-dən deportasiyasının səbəbləri barədə də müxtəlif fikirlər mövcuddur. A.Paşayev məcburi köçürülmənin əsas səbəbini Kremlin siyasi dairələrində özlərinə kök salmış erməni lobbisinin fəaliyyəti ilə əlaqələndirir [41, s.4].

Tarix elmləri doktoru B.Nəcəfov Azərbaycan türklərinin deportasiyasının “Daşnakstyun” partiyasının xüsusi ssenarisi əsasında və onun birbaşa Kremlə göstərişi əsasında həyata keçirildiyini qeyd edir [37, s.20]. Onun irəli sürdüyü mülahizələr yanlışdır və yeri gəldikcə bu məsələyə toxunacağıq.

Görkəmli tarixçi C.Həsənli isə azərbaycanlıların tarixi torpaqlarından köçürülməsi səbəbini xaricdən Ermənistan SSR-ə köçürülüb gətirilmiş erməni-repatriantların sosial – məişət şəraitinin yaxşılaşdırılması ilə bağlayır [ 19 a, s.503]. Bu fikir hələ

də tarixçilər, ictimaiyyətşünaslar və bu problemlə bağlı tədqiqatçı mütəxəssislər arasında öz hakim mövqeyini qoruyub saxlamaqdadır.

Həbib Rəhimoğlu isə azərbaycanlıların köçürülməsinin səbəbi kimi Sovet hökuməti tərəfindən dövlət səviyyəsində həyata keçirilən məkirli siyasətin davamı, ermənilərin tələblərinin icrasınının olduğunu əsas gətirir [ 43, s.74 ].

Erməni tarixçilərinə gəlincə isə onlar Ermənistandan Azərbaycan türklərinin deportasiyasının əsas səbəbini Azərbaycan K(b)P MK-nın I katibi M.C.Bağırovun və Q.Harutyunovun İ.V.Stalinə ünvanladığı xahiş müraciətində görürlər. Onlar belə hesab edirlər ki, azərbaycanlıların köçürülməsi iqtisadi səbəblə bağlı olmuş, onlar Kür-Araz ovalığının inkişaf etdirilməsi ilə əlaqədar köçürülmüşlər [79, s.57-58]. Bu da növbəti erməni yalanından başqa bir şey deyil və tarixi həqiqətdən çox-çox uzaqdır.

Tarixi saxtalaşdıran erməni tarixçilərinə belə sual etmək olar?! Əgər, köçürülmə iqtisadi səbəblə bağlı idisə, nə üçün köçürülmə ilə bağlı ən mühüm qərar və sərəncamlar məxfi qrifi adı altında aparılır və ictimaiyyətdən gizli saxlanılırdı? Məcburi köçürülmə əgər siyasi səbəblə bağlı deyildisə, nə üçün o dövrün istər mərkəzi, istərsə də yerli qəzetləri öz səhifələrində bu barədə bir kəlmə olsa da iz buraxmamışdır?

Bizim fikrimizcə, Ermənistan SSR-dən Azərbaycan türklərinin məcburi köçürülməsi ikinci dünya müharibəsi illəri və sonrakı illərdə Sovet-Türkiyə münasibətləri kontekstində rəsmi Kreml tərəfindən siyasi gündəmə çıxarılmış “erməni məsələsi” ilə qırılmaz surətdə bağlıdır [28, s.85-87]. Sovet İttifaqının Türkiyəyə qarşı ərazi tələbləri, Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları və Azərbaycan türklərinin tarixi-etnik torpaqlarından kütləvi deportasiyası bir-biri ilə sıx bağlı məsələlər olduğundan onların kompleks şəkildə tədqiqini məqsədəuyğun hesab edirik.

SSRİ Nazirlər Sovetinin “Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-nin Kür-

Araz ovalığına köçürülməsi haqqında" 1947-ci il 23 dekabr tarixli qərarından öncəki illərdə ölkə daxili və ölkə xaricində baş vermiş siyasi hadisələrin və proseslərin öyrənilməsi və tədqiq edilməsi 1947-1953-cü illərdə soydaşlarımıza qarşı həyata keçirilmiş deportasiyanın hansı siyasətdən irəli gəlməsi və onun səbəbləri barədə əsl həqiqətlərin üzə çıxarılmasına imkan verir.

# II FƏSİL

## Sovet-Türkiyə münasibətlərində «erməni məsələsi» və onun azərbaycanlıların deportasiyasına təsiri

İkinci dünya müharibəsinin sonlarına yaxın Sovet İttifaqı Avropanın böyük bir hissəsində öz geo-siyasi maraqlarını faktiki olaraq reallaşdırmış, Polşa da daxil olmaqla əksər ərazilər SSRİ-nin nəzarəti altına keçərək imperiyanın nüfuz dairəsi xeyli genişlənmişdi [68, s.332-339].

Sovet İttifaqının alman faşizmi üzərindəki tarixi qələbəsi İ.V.Stalinin siyasi nəzərlərini ölkənin cənub sərhədlərinə yönəltmişdi. SSRİ Cənubi Qafqaz regionunda Türkiyə Respublikasının torpaqları hesabına imperiyasının sərhədlərini genişləndirməyə can atır, bu məqsədlə ermənilərdən və gürcülərdən istifadə etməyə çalışırdı. Bu illərdə SSRİ-nin təqsiri üzündən gərginləşən Sovet-Türkiyə münasibətləri və Sovet İttifaqının Türkiyəyə, onun ərazi bütövlüyünə qarşı yönəlmiş əsassız ərazi iddiaları Cənubi Qafqaz regionunda imperiya sərhədlərinin genişləndirilməsi maraqlarından irəli gəlirdi. SSRİ XXİK Molotovla söhbət zamanı İ.V.Stalin xəritədə SSRİ-nin Qafqazdakı sərhədlərini göstərərək bildirmişdi "Bax, burada bizim sərhədlərimiz mənim xoşuma gəlmir" [19, s.1]. O, ilk növbədə SSRİ-nin Türkiyə ilə sərhədlərinə yenidən baxılmasına və ona düzəlişlər edilməsini nəzərdə tuturdu, Ermənistan və Gürcüstan Respublikaları adından Türkiyənin şərq bölgələrinə olan iddiasını ortaya qoyurdu.

Almaniya üzərindəki qələbə SSRİ-nin iştahını xeyli artırmışdı. Şərqi Avropa qələbə eyforiyasından sonrakı sovet ekspansiyası dövrünə qədəm qoyurdu. "Soyuq müharibə" ərəfəsində ekspansiyanın isti nəfəsi Yaxın və Orta Şərqi, xüsusilə də Türkiyəni isitməkdə idi.

Siyasi şərait də SSRİ-nin təcavüzkar niyyətlərinin həyata keçirilməsinə kömək edirdi. Belə ki, müharibənin hərbi, siyasi

nəticələrini öz xeyrinə həll edən Sovet İttifaqı II dünya müharibəsində faşist Almaniyası ilə müttəfiqlik etmiş dövlətlərlə haqq-hesab çəkməyə girişmişdi. Türkiyə Respublikası da faşist Almaniyası ilə "müttəfiqlik" etmiş dövlətlərdən biri idi [80, s.12].

Əsl həqiqətdə isə müharibənin ilk günündən etibarən Türkiyənin Xarici İşlər Naziri Ş.Saracoğlu müharibəni "bu müharibə deyil, xaç yürüşüdür" - deyə qiymətləndirmiş, Türkiyə dövləti isə bu müharibədə qabaqgörənlik nümayiş etdirərək iştirak etməmiş, öz neytrallığını qoruyub saxlaya bilmişdi [61, s.411].

1943-cü ilin noyabrın 28-dən dekabrın 1-dək İranın paytaxtı Tehranda keçirilən üç böyük dövlət başçılarının konfransında Türkiyəyə qarşı SSRİ-nin münasibətində nəzərə çarpacaq gərginliyin simptomları müharibədən sonrakı illərdə tamamilə yeni siyasi məzmun kəsb etdi. İkinci cəbhənin açılması ilə bağlı aparılan müzakirələrdə Böyük Britaniya tərəfinin təklif etdiyi "Balkan" variantının müzakirəsi zamanı İ.V.Stalinin Türkiyə ərazisindən, xüsusən də ona məxsus adaların, aeroportların, boğazların müttəfiqlərin istifadəsinə verilməsi və Türkiyəni müharibəyə qoşmaq cəhdi ilə bağlı təşəbbüsü bir nəticə verməmişdi [88, s.415].

Alman siyasətinin perspektivsizliyini başa düşən prezident İsmət İnönü və baş nazir Şükrü Saracoğlu Sovetlərin getdikcə güclənməsinin Türkiyəyə yaxşı bir şey gətirməyəcəyini bildiklərindən ABŞ və Britaniyaya meyl edirdilər [61, s.84]. Belə bir vəziyyətdə 1943-cü il dekabrın 4-6-da Misirin Qahirə şəhərində Ruzvelt və Çörçillə görüşən prezident İ.İnönü Türkiyənin Almaniyaya qarşı müharibə elan etməsi barədə birgə razılığa gəldilər. 1944-cü il avqustun 2-də Türkiyə Almaniya ilə, 1945-ci il yanvarın 3-də isə Yaponiya ilə diplomatik münasibətlərini kəsərək fevralın 23-də onlara müharibə elan etdi [19, s.209]. Lakin bununla belə Sovet İttifaqı Türkiyəni müttəfiqlərin gözündə Almaniyanın tərəfdarı kimi qələmə verməyə çalışırdı [61, s.84].

Müharibənin son illərində yalan və böhtan dolu sovet təbliğatı işə düşmüş, Türkiyənin guya müharibədə Almaniyaya

köməklik göstərmələri barədə sovet tərəfi hay-küylü təbliğata başlamışdı. Halbuki sovet xüsusi orqanlarının əlində belə bir məlumat var idi ki, Almaniya vaxtı ilə Türkiyənin ondan aldığı "Messerşimit", "Heynkel", "Dorne" döyüş təyyarələrinə ehtiyat hissələr satmaqdan imtina etmişdi. Bu ehtiyacı Suriyada alman təyyarələrini qənimət olaraq ələ keçirmiş Britaniya ödəməli olmuşdu [19, s.84]. Digər tərəfdən Türkiyənin II dünya müharibəsində Almaniya tərəfindən müharibəyə qoşulması və Qafqaz cəbhəsinin açılması Sovet ərazilərinin almanlar tərəfindən işğalı demək idi [31, №52, 2001]. Türkiyə hökuməti bu cür hərəkətlərə yol verməmişdi.

Sovet hökuməti tərəfindən Türkiyəyə qarşı hədə-qorxu, şantaj və dezinformasiyalar bəhanə idi, Türkiyə torpaqlarına və boğazlarına sahib olmaq barədə köhnə imperiya ənənələrindən qaynaqlanırdı.

Müharibədən az sonra, tezliklə Türkiyə əleyhinə Sovet İttifaqı, Montredə bağlanmış boğazlar haqqındakı konvensiyaya, I dünya müharibəsi illərində (guya - Ə.Q.) Türkiyəyə keçmiş torpaqların Sovet Ermənistanına və Sovet Gürcüstanına birləşdirilməsi kompaniyasına başlanıldı [61,s.463]. Bu illərdə İ.V.Stalin ilk dəfə olaraq SSRİ-nin geopolitikasının əsas istiqaməti kimi xristian torpaqlarının azad olunması amilindən istifadə edirdi [59, s. 16].

Onu da qeyd edək ki, hələ sovet qoşunlarının Güney Azərbaycana müdaxiləsi ərəfəsində sovet hərbi kəşfiyyatı onu da müəyyən etmişdi ki, İran və Türkiyə ilə bağlı yaranmış böhranlı vəziyyətdən istifadə edən ermənilər və onların siyasi partiyaları Qarsdan Təbrizəcən Sovet Ermənistanı daxil olmaqla "Böyük Ermənistan" yaratmaq barədə fikirləşirlər [19, s.32]. Əlbəttə ki, bütün bunlar Sovet hökumətinin diqqətindən yayına bilməzdi və hökumət onların milli əhval-ruhiyyələrinə bələd olduğundan onlardan yararlanmağa çalışırdı.

Sovet İttifaqının Türkiyəyə qarşı irəli sürdüyü iddialar əsasən iki istiqamətdə gedirdi. Bir tərəfdən Bosfor və Dardaneli

Türkiyənin nəzarəti altından çıxartmaq; ikincisi, bir sıra türk vilayətlərinin Ermənistan SSR-ə və Gürcüstan SSR-ə birləşdirməkdən ibarət idi [58, s.189].

Türkiyənin bir çox torpaqlarını SSRİ-yə birləşdirilməsini həll etmək üçün Sovet rəhbərləri ilk növbədə bütün dünyaya səpələnmiş çoxsaylı erməni əhalisinin potensialından istifadə etməklə bu torpaqların Sovet İttifaqına birləşdirilməsində ABŞ, Britaniya kimi böyük dövlətlərin razılığını almaq istəyirdilər [67, s.293].Bu torpaqlar barədə sovet planının baş tutacağı təqdirdə, geri alınacaq ərazilərin məskunlaşdırılması problemi də həll edilmiş, həmin torpaqlarda məskunlaşma problemi vaxtı ilə Türkiyə ərazisindən xarici ölkələrə miqrasiya etmiş ermənilər vasitəsilə həll edilməli idi. Sovet rəhbərləri Türkiyədən torpaq məsələsini qaldırarkən bunu "tarixi ədalətin" bərpası kimi qiymətləndirirdilər.

Lakin bir halda ki, söhbət "tarixi ədalətin bərpası"ndan gedirdisə, və "itirilmiş torpaqlar"ın Sovet İttifaqına - Ermənistan SSR-ə birləşdirlməsi ilə bağlı siyasi tələblər Türkiyə qarşısında qəti şəkildə qoyulurdusa ermənilər bu işdə çox fəal şəkildə iştirak etdilər. Ermənistan rəhbərləri, kilsə xadimləri, xaricdəki erməni spyurku (diaspora) "tarixi ədalətin" bərpa olunacağı ümidiylə İ.V.Stalinin siyasi oyununa qoşuldular [67, s.294].

Ermənilərin fəallaşmasında Sovet-Türkiyə münasibətlərində yaranmış soyuq münasibətlər də heç də az rol oynamırdı. Belə ki, Sovet hökuməti 1945-ci ilin mart ayının 19-da 1925-ci ilin 17 dekabrında Sovet İttifaqı və Türkiyə Respublikası arasında bağlanmış və "neytrallıq haqqında" müqavilənin birtərəfli qaydada denonsasiyası haqqında bəyanat vermiş, Türkiyənin SSRİ-dəki səfiri Səlim Sərpər SSRİ XXİK-ya çağırılaraq ona Sovet hökuməti tərəfindən nota təqdim edilmişdi [87, s.174]. Notada 1921-ci il 16 mart tarixli Moskva müqaviləsində təsbit edilən Sovet-Türkiyə sərhədlərində SSRİ-nin lehinə bəzi güzəştlər edilməsi; Boğazların Türkiyə ilə SSRİ tərəfindən birgə müdafiə olunması; Boğazlar rejimini nizamlayan Montre müqaviləsində

gərəkli dəyişikliklər məsələsində iki dövlət arasında prinsip razılığın əldə olunması xüsusi olaraq vurğulanırdı [80, s.15].

İ.V.Stalin Türkiyə siyasətində erməni komitə və təşkilatlarından, partiyalarından istifadə edir, bütün dünya ermənilərini Türkiyəyə qarşı ayağa qaldırmağa səy göstərirdi. Dövlət başçısı bu məsələdə daha çox dünya ermənilərinin dini, əslində isə siyasi mərkəzi olan Eçmiəzzin katolik kilsəsinin imkanlarından daha çox istifadə etməyə çalışırdı. Hələ 1941-ci ildə SSRİ hökuməti tərəfindən Ermənistan XKS-i yanında yaradılmış erməni kilsəsi üzrə xüsusi Şuranın yaradılmasına icazə verilməsi sovet rəhbərliyi ilə dünya erməniləri arasında əlaqələri koordinasiya etmək məqsədini güdür, xaricdə yaşayan ermənilər arasında fəal siyasi iş aparmaq niyyəti ilə bağlı idi. [19a, s.116].

"İtirilmiş torpaqlar"ın geri qaytarılmasında Eçmiəzzin kilsəsinin imkanları daha geniş idi və SSRİ-nin Türkiyədən "azad ediləcək ərazilər" məsələsində kilsə öz imkan və vasitələri ilə bu işdə çox böyük iş görə bilərdi. Vaxtı ilə rus çarları tərəfindən Eçmiəzzin kilsəsinə seçilmiş katolikoslar Rusiyanın Türkiyə torpaqlarında yürütdüyü imperialist siyasətlərinin həyata keçirilməsində çox böyük rolları olmuşdu [100, s.535-547]. Ermənilər arasında da "Böyük Ermənistan" mifik fikrini doğuranlar, onu ortaya atanlar da, əslində məhz erməni kilsəsi olmuşdur [92, s.14].

Türk torpaqlarına sahib olmaq məqsədilə aparılan təbliğatlara və silahlı üsyanlara dair mənbələr də təsdiq edir ki, ermənilər arasında türklərə qarşı kin və ədavəti, qisasçılığı qızışdıran başlıca qüvvə erməni kilsəsi və onun ətrafında toplanmış erməni "ziyalıları" olmuşlar [38, s.3]. Vaxtı ilə Türkiyənin Van və Bitlis vilayətlərində Rusiyanın baş konsulu olmuş general Mayevski erməni kilsə başçıları haqqında həqiqəti belə ifadə etmişdir: "Erməni ruhani başçılarının din uğrunda çalışmaları həmən-həmən yox kimidir. Lakin bununla birgə milli fikirlərin yayılmasında çox böyük xidmətlər göstərmişlər [101, s.8]. Gevond Turyan isə öz məqaləsində yazır: "Uzun zamanlardan bəri kilsələr erməni inqilab ocaqları olmuş, ən ifrat proqramlar burada hazırlanmışdır" [92, s.67].

Sovet hökuməti çar Rusiyası dönəmindən başlayaraq sıx əlaqədə olduğu Eçmiəzzin kilsəsini öz hədəfləri istiqamətində müəyyən olunmuş siyasətini uzun bir aradan sonra yenidən gündəmə gətirdi. İkinci dünya müharibəsi və ondan sonrakı illərdə SSRİ-nin Türkiyə siyasətində "erməni məsələsi"nin yenidən siyasətə qayıdışı ilə Eçmiəzzin kilsə xadimləri də özlərini və fəaliyyətlərini bu işə səfərbər etdilər.

Sovet hakimiyyətinin ilk illərində din əleyhinə görülən tədbirlər nəticəsində kilsələrin, senaqoqluqların, məscidlərin gücü xeyli dərəcədə azalmış, bütün ölkədə ateizm siyasəti dövlətin din ilə bağlı siyasətinin əsasını təşkil edirdi. Dini təsisatlar üzərinə qoyulmuş sərt qadağalar hər cür dini təbliğata yol vermirdi.

İkinci dünya müharibəsi illərində Sovet hökumətinin din ilə bağlı siyasətində əsaslı dəyişikliklər baş verdi. İlk gündən dini təsisatlar faşist Almaniyasına qarşı azadlıq mübarizəsini dəstəkləyərək dərhal vətənpərvər mövqe tutmuş, bu da dövlətin dini təsisatlarla əlaqələrinin normallaşmasına və qarşılıqlı inamın artmasına gətirib çıxardı. Həqiqətən də onların vətənpərvərliyi işdə, əməldə özünü göstərirdi. Belə ki, dini təsisatlar vasitəsilə vətənpərvər din adamları müharibəyə kömək məqsədilə yaradılmış fondlara yardım edirdilər. Dövlət də ümumkilsə yığımlarına mane olmurdu. Dövlətin kilsə siyasətinin dəyişməsi ancaq ölkə daxilindəki vəziyyətlə deyil, həm də xarici siyasi amillərlə şərtlənirdi. Birincisi, bu siyasət dini qüvvələr daxil olmaqla antifaşist qüvvələrin birləşməsi zərurəti ilə bağlı; ikincisi isə, müttəfiq dövlətlərin İ.V.Stalindən ölkədə dini azadlığın necə təmin edilməsi ilə maraqlanmaları idi [69, s.194-196]. Belə olan vəziyyətdə milli birliyin təmin olunmasında kilsələrin və başqa dini təsisatların heç də az əhəmiyyət kəsb etmədiyi bir zərurət kimi ortaya çıxdı. Hökumət milli birliyin təmin edilməsində dini təsisatların əhəmiyyətini qiymətləndirdiyindən onların fəaliyyətinə icazə verdi [56, c.II, s.162]. Rusiyanın bütün ərazisində rəsmi din müdafiə edilir, bütün kilsə başçılarının təyinatı və fəaliyyəti dövlət hakimiyyət orqanları ilə razılaşdırılmış qaydada aparılır,

ruhanilər demək olar ki, partiya - sovet çinovniklərindən ibarət idi [61, s.410-411]. Bununla belə sovet dövləti Baltikyanı ölkələrdə, Ukraynada, Belorusiyada, Gürcüstanda, Ermənistanda yeniləşmiş kilsələr təşkil etməyə can atırdı.

Bütün ölkədə olduğu kimi Eçmiəzzin kilsəsi də dövlətin din əleyhinə siyasətinin başlıca hədəflərindən biri olmuşdu. Katolikas I Xoren 1938-ci ildə NKVD əməkdaşları tərəfindən öldürüldükdən sonra yeni katalikos seçilməmişdi [92, s.87].

Tarixi mənbələr göstərir ki,öz ərazisində Eçmiəzzin katalikosluğuna toxunulmazlıq vermiş Rusiyanın Türkiyə siyasətində bu kilsə imperiyanın siyasi dayaqlarından biri olmuşdur. Çar Rusiyası zamanında olduğu kimi türklərə qarşı ermənilərdən bir alət kimi istifadə etmək siyasətini eynən davam etdirən Sovet İttifaqı rəhbərləri və onun xüsusi xidmət orqanları Eçmiəzzin kilsəsi vasitəsilə dünya ermənilərinin dini və milli duyğularını Türkiyə və Azərbaycan əleyhinə yönəltməyə çalışırdı. SSRİ və onun xüsusi xidmət orqanlarının fəal təşkilati və siyasi yardımı ilə istiqamətləndirilən katalikosluq bu illərdə imkan və vasitələri ilə dünya ermənilərini öz ətrafına toplamaqla ermənilərin Qərbi Ermənistan adlandırdıqları Şərqi Anadolunun Sovet Ermənistanına birləşdirilməsi istəyini gücləndirmişdi [15, s.241].

Müharibə illərində Eçmiəzzin kilsəsi və onun arxiyepiskopu Gevorq Çerokçyan SSRİ Xüsusi xidmət orqanları ilə əməkdaşlıq edirdi.

Bu illərdə Eçmiəzzin kilsəsi rəsmi olaraq fəaliyyət göstərməsə də, katolik kilsə başçısının müavini Gevorq Çerokçyan İ.V.Stalinlə şəxsi münasibətlər qura bilmiş, kilsə həm də müharibəyə ianə yığımında fəal rol oynayırdı. Belə olan şəraitdə G.Çerokçyan dövlət başçısı ilə Eçmiəzzin kilsəsinin bərpası ilə bağlı olaraq danışıqlar aparır, kilsənin yenidən bərpasına çalışırdı. Bu danışıqlar nəhayət 1945-ci ildə Sovet-Türkiyə münasibətlərinin gərginləşdiyi, Türkiyənin şərq vilayətlərinə sovet iddiaları şəraitində öz nəticəsini göstərdi.

1945-ci ilin aprel ayının 19-da Eçmiəzzin kilsəsinin arxiyepiskopu Gevorq Çerokçyan SSRİ XKS-nin sədri İ.V.Stalin tərəfindən qəbul edilir və onun tərəfindən arxiyepiskopa məxfi olaraq kilsənin bərpa etməsini tapşırır [89, s.192-193]. Görüşdə dövlət başçısı bərpa olunacaq kilsənin görəcəyi işlərin nədən ibarət olacağını ona anlatmış və bildirmişdi ki, o katalikos seçiləndən sonra kilsə Türkiyəyə qarşı ərazi iddiasını qaldırmalıdır [89, s.192-193]. İ.V.Stalin Türkiyəyə qarşı ərazi tələblərinə aydınlıq gətirərək bildirir: "Tezliklə müharibə qurtaracaq və bizim hökumət Türkiyənin bəzi torpaqlarını ələ keçirmək niyyətindədir. Məlumdur ki, həmin torpaqlarda ermənilər yaşamalıdırlar. Yaxşı olar ki, onlar vaxtı ilə Türkiyədən qaçmış və dünyaya səpələnmiş ermənilər olsunlar. Ona görə də təqribən 100 min erməninin immiqrasiyasını təşkil etmək lazımdır. Tezliklə bu barədə hökumətin qərarı olacaq. Siz də bu işdə bizə kömək etməlisiniz" [60, №9, 1993].

Sovet dövlət maraqları ilə Eçmiəzzin katolik kilsəsinin, ümumilikdə ümümerməni maraqlarını uzlaşdırmağı bacaran Sovet hökuməti kilsənin geniş fəaliyyət göstərməsi istiqamətində əlindən gələni edir və kilsə üçün bir sıra vacib məsələlərin həllində öz tərəfindən mümkün olan addımları atdı. SSRİ XKS yanında Dini İşlər sovetinin sədri Polyanskinin iştirakı ilə keçirilən görüşdə bərpa olunacaq kilsə üçün bir sıra güzəştlər nəzərdə tutulmuşdu. Güzəştlər dini akademiyanın bərpası; bağlanmış monastırların açılması; Bank hesabının açılması; spyurkla (diaspora) əlaqələrin genişləndirilməsi; kilsə nəşriyyatının və dini jurnalın nəşrindən ibarət idi [60]. Eçmiəzzin katalikosunun müavini Gevorq Çerokçyan ərizə ilə İ.V.Stalinə müraciət edərək Eçmiəzzin kilsəsinin fəaliyyətinə icazə verilməsi və bununla bağlı tədbirlərin həyata keçirilməsi üçün razılıq istəyir. Onun məktubu üzərində İ.V.Stalin aprelin 19-da öz dəstxətti ilə belə dərkənar qoyur. "Razıyam". SSRİ XKS-nin sədri İ.V.Stalin [42, s.40].

1945-ci ilin 22 iyununda dünyanın dörd bir tərəfindən gələn din xadimləri və erməni diasporası nümayəndəlirinin iştirakı

ilə Eçmiəzzində keçirilən katalikos seçkisi yığıncağında yeni katalikos seçilir [89, s.192]. Eçmiəzzin kilsəsinin yeni seçilmiş katalikosu VI Gevorq SSRİ XKS-nin sədri İ.V.Stalinə Türkiyəyə ərazi iddiası dolu məktubla müraciət edir. İ.V.Stalinə ünvanlanmış müraciətdə bildirilirdi: "... Ermənilər, tarixi erməni torpaqları olan və hal-hazırda Türkiyə dövlətinin ərazisində yerləşən "itirlmiş torpaqların" vətənə – Sovet Ermənistanına birləşdirilməsini səbirsizliklə gözləyirlər. Xarici ölkələrdə yaşayan minlərlə ermənilər öz doğma vətənlərinə qayıtmaq istəyirlər [82, №6,1991].

Eçmiəzzin kilsə yığıncağı nümayəndələri İ.V.Stalinə teleqramda həmçinin xahiş edirdilər ki, "erməni məsələsi"ni həll etsin. Teleqramda söhbət Türkiyənin Şərq vilayətlərinin Ermənistana birləşdirilməsindən və xaricdəki ermənilərin öz "doğma ölkələrinə" qayıtmasından gedirdi [19, s.168]. Erməni müəllifləri bu məktub və teleqramların Sovet dövlət başçısının diqtəsi ilə yazıldığını qeyd edirlər [89, s.192].

Eçmiəzzin katolik kilsəsi və onun fəaliyyəti ilə bağlı son zamanlarda erməni müəllifləri tərəfindən dərc edilən məqalələrdə ermənilər etirafla yazırlar ki, ikinci dünya müharibəsi və ondan sonrakı illərdə İ.V.Stalin tərəfindən fəaliyyəti bərpa olunmuş Eçmiəzzin kilsəsindən dövlət din ilə heç bir əlaqəsi olmayan işlərdə siyasi məqsədlərlə istifadə edirdi [48, №1, 1998].

1945-ci il aprelin 25-dən iyunun 26-dək keçirilmiş San-Fransisko konfransının gedişində Amerikada yaradılmış "Ermənistan Ermənilərinin Milli Şurası" konfransa bəyannamə təqdim etmişdi. Bəyannamə, konfransı iştirakçıları olan ABŞ, SSRİ, Britaniya, Çin nümayəndələrinin adına göndərilmişdi. Ermənilər konfrans iştirakçıları olan dövlətlərdən "erməni məsələsi"nin həllində onlara kömək göstərmələrini, Türkiyənin şərq vilayətlərinin Ermənistan SSR-ə birləşdirilməsnin tezləşdirilməsini xahiş edir, bunu xaricdəki ermənilərin öz doğma vətənlərinə qayıtması ilə izah edirdilər [19, s.168].

Tarixi məlumatlardan aydın olur ki, ermənilər böyük dövlətlərin, xüsusən də Rusiyanın təhriki ilə Türkiyə əleyhinə qalxmışlar. Çar Rusiyası dövründə "erməni məsələsi"ndən Türkiyəyə qarşı dəfələrlə istifadə olunmuşdu. Özündən əvvəlki xələflərinin siyasi kursunu davam etdirən sovet rəhbərləri tarixi təcrübədə sınaqdan çıxarılmış uydurma "məsələdən" öz xeyri üçün siyasi alət olaraq istifadə etməyə başladı. İkinci dünya müharibəsindən sonrakı illərdə SSRİ rəhbərləri və Eçmiəzzin kilsəsinin birgə "xeyir-duası" ilə "erməni məsələsi" yenidən siyasi gündəmə çıxarıldı. "Erməni məsələsi" SSRİ-nin Türkiyə siyasətində xüsusi yer tutmağa başladı.

"Erməni məsələsi" beynəlxalq münasibətlərdə ilk dəfə XIX əsrin II yarısında böyük dövlətlər tərəfindən Şərq məsələsinin bir hissəsi kimi ortaya atılmışdır [64, s.21]. Öncə Qərbdə meydana çıxan, sonralar isə Rusiyaya keçən "erməni məsələsi"ndən Rusiya dövləti 1877-1878-ci illər Rus-Türk müharibəsi, eləcə də I dünya müharibəsində Türkiyəyə qarşı istifadə etmişdir [51, s.294]. "Erməni məsələsi" siyasi mənada Osmanlı Türkiyəsinə qarşı istifadə edilmək üçün Rusiya tərəfindən ortaya atılmış, eyni məqsədlə sonradan İngiltərə, Fransa, Almaniya və digər dövlətlər tərəfindən məharətlə istifadə olunmuş siyasi şüar, "hərraca qoyulmuş məsələ" olmuşdur [34, s.279]. A.A.Yeseyan "Armyanskiy vopros i mejdunarodnaya diplomatiya" adlı əsərində yazır: "Erməni məsələsi" böyük dövlətlər üçün Türkiyə dövlətinin daxilində öz maraqlarını həyata keçirmək üçün bəhanə olmuşdur [102, s.31].

Sovet Rusiyası yarandıqdan sonra da "erməni məsələsi" Sovet İttifaqının bir nömrəli məsələsi olmağa başladı [15, s. 241]. Azərbaycan torpaqlarında Sovet dövlətinin hər cür, hər növ yardımı ilə Ermənistan dövlətinin yardımı ilə Ermənistan dövlətinin yaradılması "erməni məsələsi"nin həlli ilə bağlı ermənilərin ümidlərinin yeganə vasitəsi oldu [102, s.31].

Erməni millətçi (şovinist) dairələrinə görə "erməni məsələsi" erməni-türk münasibətlərinin kökündə duran Qərbi Ermən-

istanın azadlığı məsələsidir [74, s.3]. Ermənilər Türkiyənin Şərqi Anadolu vilayətlərini belə adlandırır. Bəs, əsl həqiqətdə "erməni məsələsi" nədir?!

"Erməni məsələsi"nin əsl mahiyyəti bundan ibarətdir ki, guya ermənilər həmişə ən çox incidilən, təqib edilən, başı bəlalı məzlum bir millətdir. Guya "Böyük Ermənistan"ın qədim, əzəli torpaqlarını gəlmə, köçəri türklər tutmuş, bədbəxt erməniləri qırmışlar, və bütün bunların nəticəsi kimi ermənilər bütün yer üzünə səpələnmişlər. Ermənilərə görə "tarixi ədalət" bərpa olunmalı, bütün dünya ictimaiyyəti birləşib öz qüvvə və köməklikləri ilə qədim "erməni torpaqlarını" türklərdən azad etməyə və "Böyük Ermənistan" yaratmağa kömək göstərməlidir [15, s.50].

Qərbdə və Rusiyada həlli vacib bir məsələ kimi qəbul edilən "erməni məsələsi" böyük dövlətlərin siyasətində ona görə yer almışdır ki, bu "məsələ" Türkiyəni parçalamaq və onu inkişafdan saxlamaq istəyən dövlətlərin maraqlarına uyğun gəlmişdir. Bu günün özündə belə bu uydurma problemdən istifadə etməyə çalışan dövlətlər az deyil.

Ermənilərin "Hay Tahd" adlandırdıqları "erməni məsələsi" əsasən iki təməl üzərində qurulub. Birincisi, "itirilmiş torpaqların" qaytarılması və birləşmiş Ermənistanın ("Böyük Ermənistan") qurulması [21, s.69]. V.Baqumyan isə bu barədə yazır: "Erməni məsələsi" əslində Sovet Ermənistanı, Anadolunun şərq hissəsi, yəni Van gölü ətrafından ibarət bir Ermənistan yaratmaq və dünya ermənilərini həmin azad olunmuş tarixi vətəndə yerləşdirilməsindən ibarətdir" [39, s.73].

Həmin illərdə "erməni məsələsi"nin həll ediləcəyi ümidiylə gündən-günə genişlənməkdə olan ümumerməni ideyası da məhz bu iki istiqamətdə gedir, təşəbbüslər bu iki məsələnin öz həllini tapması yönündə idi.

SSRİ-nin Türkiyə siyasətində "erməni məsələsi"ndən iki məqsədlə istifadə edilirdi. Birincisi, Türkiyənin şərq vilayətlərinin SSRİ-yə birləşdirilməsini dünyaya səpələnmiş ermənilər vasitəsilə həll etmək; ikincisi, boğazlar məsələsində üstünlyə nail

olmaq üçün Türkiyəyə qarşı siyasi, diplomatik, psixoloji təzyiq metodu kimi istifadə etmək.

"Erməni məsələsi"nin həlli ilə bağlı sovet rəhbərinin ermənilərə verdiyi vədlərlə əlaqədar Eçmiəzzin kilsəsinin katalikosu VI Gevorq dünyadakı erməni icmalarına, onların nümayəndələrinə, kilsə xadimlərinə, partiya və təşkilatlara müraciət edir. Katalikos müraciətdə dünya ermənilərini inandırmağa çalışırdı ki, ermənilərin ən yaxın və etibarlı dostu olan Sovet hökuməti ermənilərə xüsusi rəğbət bəsləyir və "erməni məsələsi"ni ermənilərin xeyrinə həll etmək istəyir. Yalnız Sovet hökuməti bizim "ədalətli məhkəməmizi" həll edə bilər [6, v.5].

Xaricdə yaşayan ermənilərin fəallaşmasında SİTA-nın, Sovet dövlətinin "erməni məsələsi" ilə bağlı Sovet dövlətinin rəsmi mövqeyini ifadə edən məlumatları, "Советская Армения" qəzetində Türkiyəyə qarşı ərazi iddiası qaldıran Drenik Dəmirçiyanın məqaləsi heç də az rol oynamırdı [19, s.169].

“Советская Армения" qəzetinin həmin nömrəsi Təbriz erməniləri arasında əl-əl gəzirdi. Bu məsələyə böyük maraq olduğunu görən yerli "Antifaşist" qəzeti "Советская Армения"dakı məqaləni ayrıca vərəqə şəklində nəşr etmiş və həmin nəşrlər bir neçə saat ərzində yayılmışdı [19, s.169].

Məlumatdan aydın olur ki, yerli erməni icmasının əsas müzakirə mövzusu San-Fransisko bəyannaməsidir. Təbriz ermənilərinin fikrincə, onların milli məsələsi ("erməni məsələsi" nəzərdə tutulur - Q.Ə.) yalnız Sovet İttifaqının rəsmi müdaxiləsi ilə həll edilə bilər. Təbrizdəki erməni kilsəsinin başçısı arxiyepiskop Nerses Melik-Tançiyan deyirdi: Moskvanın hesabına biz sərhədlərimizin genişləndirilməsinin və xaricdən Ermənistana qayıdışının şahidi oluruq. İndi artıq bunun vaxtıdır, bir neçə il sonra xarici həyat tərzinə öyrənmiş yeni nəsil yaranar və bu iş mümkünsüz olardı. Stalinə teleqram vurmaq üçün çox ağıllı fikirdir. Bizim üçün nə edəcəksə bu adam edəcək. Təbrizdəki daşnaksakanların lideri Hayk Əcəmyanın fikrincə, həm San-Fransisko konfransına təqdim edilən bəyannamə, həm Eçmiəz-

zin kilsə yığıncağının Stalinə teleqramı Sovet hökuməti ilə razılaşdırılmışdı. H.Əcəmyan "erməni məsələsi" ilə bağlı bütün baş verənləri Sovet İttifaqının siyasətinin nəticəsi hesab edirdi [19, s.169-170].

"Hnçak" partiyasının keçmiş üzvü Levon Çuxasızyan isə göstərirdi ki, Sar-Fransisko konfransına təqdim edilən bəyannamə, Eçmiəzzin yığıncağının Moskvaya müraciəti, Yerevan qəzetlərindəki Deranik Dəmirçiyanın, Medxasyanın məqalələri bir zəncirin həlqələridir. İndiki zaman Moskva üçün çox əlverişlidir ki, türklərlə bütün həll olunmamış məsələlərini, o cümlədən sərhəd məsələsini həll etsin. Tezliklə biz görəcəyik ki, Türkiyə ilə dostluq haqqında müqaviləni ləğv etmək barədə Molotovun notası elə-belə verilməmişdir. Təbriz ermənilərinin fikrincə "əgər Moskvanın razılığı olmasaydı, Amerika ermənilərinin bəyannaməsi meydana çıxa bilməzdi" [19, s.169-170].

1945-ci ilin ortalarından etibarən Türkiyəyə qarşı siyasi təzyiqlər güclənmişdi. 18 iyul 1945-ci ildə Səlim Sərpər SSRİ XİK Molotovla görüşdü. Səfir 7 iyun tarixli görüşmədən sonra ərazi və başqa tələblər kimi məsələlərin müzakirə mövzusu olmaması üzərində dayanınca XXİK bütün irəli sürülən tələblərin yerinə yetirilməyəcəyi təqdirdə iki dövlət arasında heç bir müqavilə bağlamaq barədə düşünməyəcəklərini bildirmişdi [97, s.288].

SSRİ-nin Türkiyəyə qarşı irəli sürdüyü ərazi tələbləri və Sovet-Türkiyə münasibətlərində yaranmış gərginlik ABŞ departamentinin diqqət mərkəzində idi. ABŞ-ın Türkiyədəki səfiri Edvin Vilson SSRİ-nin Türkiyədəki səfiri Vinoqradovla dəfələrlə Sovet-Türkiyə münasibətlərini müzakirə etmişdi. 1945-ci ilin 22 iyununda Edvin Vilson sovet səfiri ilə görüşdüyü və onun nəticələri haqqında ABŞ dövlət Departamentinə bunları bildirirdi ki, mən Sovet İttifaqının ərazi tələblərinin dünyanın siyasi dairələrində necə qarşılanacığını soruşduqda sovet səfiri cavab verdi ki, "Bu Sovet İttifaqı üçün deyil, kifayət qədər ərazisi olmayan ermənilər üçün istənilir" [97, s.290].

Türkiyəyə qarşı torpaq tələbləri artmış, bu getdikcə daha intensiv xarakter daşıyırdı. Ərazi tələbləri həm də iki dövlət arasında münasibətlərin hədsiz dərəcədə pisləşməsinə gətirib çıxarmışdı. Türkiyə hökumətinin iki dövlət arasında yaranmış siyasi gərginliyin zəiflədilməsi və onun aradan qaldırılması istiqamətindəki fəal səyləri də bir nəticə vermirdi. Baş Nazir Şükrü Saracoğlu iki dövlət arasında münasibətləri nizamlamaq, yeni müqavilə bağlamaq üçün SSRİ-yə səfər edəcəyini sovet diplomatik nümayəndəliyinə bildirsə də, İ.V.Stalin onu qəbul etməkdən imtina etmiş və bildirmişdi ki, bu yalnız Qarsın və Ərdahanın Sovet İttifaqına qaytarılacağı halda baş tuta bilər [55, s. 128].

Sovet ərazi tələbləri 1945-ci ilin 17 iyul - avqustun 2-də keçirilmiş Berlin (Potsdam) konfransında da müzakirə olundu. Müzakirələr və danışıqlarda ermənilərə özünü canıyanan kimi göstərməyə çalışan SSRİ XXİK Molotov canfəşanlıq göstərir, xaricdən ermənilərin ölkəyə qayıdışı ilə əlaqədar Ermənistan torpaqlarının genişləndirilməsi zərurətini vurğulayırdı. Nazir hətta yazıq, əzabkeş ermənilərin "tapdalanmış" hüquqlarının bərpası məsələsini qoyur, həm də bunu təkidlə tələb edirdi. SSRİ XXİK Molotov Britaniyanın XİN İden arasında olan fikir mübadiləsində sovet ərazi tələblərini açıq şəkildə ortaya qoyur və bildirirdi ki, guya 1921-ci ildə Türkiyə Sovet hökumətinin zəif düşdüyü vaxtlarda Sovet İttifaqının bir parçası olan Sovet Ermənistanının torpaqlarını işğal etmişdir. Sovet hökuməti adından danışan XXİK Molotov SSRİ ilə Türkiyə arasındakı bəzi sərhədlərin ədalətsiz olduğunu, guya Sovet Ermənistanından və Sovet Gürcüstanından Türkiyə Respublikasına keçmiş Qars, Artvin, Ərdahan vilayətlərinin Ermənistana və Gürcüstana qaytarılması tələbini qoymaqla, həmçinin iki dövlət arasındakı sərhədlərin birgə qorunması təklifini də irəli sürürdü. Danışıqlarda Böyük Britaniyanın Xarici İşlər Naziri İden ermənilər və Ermənistan adından Sovet ərazi tələblərini irəli sürən Molotovdan Türkiyə ərazisində nə qədər erməni yaşadığını soruşur. Molotov cavab verir: 400-500 min erməni. Bütövlükdə Sovet Ermənista-

nında bir milyon, Sovet Ermənistanından xaricdə isə bir milyon erməni yaşayır. Nə vaxt erməni ərazisi genişlənərsə, xaricdə yaşayan çoxlu erməni öz vətənlərinə qayıtmalı olacaq. Ermənilər qabiliyyətli və enerjili adamlardır. Xüsusən təsərrüfat məsələlərində. Əgər, Türkiyə həmin torpaqları Sovet İttifaqına qaytararsa bu ədalətli olacaq" [52].

Konfransda İ.V.Stalin isə rəsmi şəkildə bildirirdi ki, sərhədlərin düzəldilməsi məsələsindən söhbət gedirsə, mən I dünya müharibəsindən qabaqkı sərhədlərin bərpasını nəzərdə tuturam. Mən Ermənistanın müharibəyə qədərki tərkibində olan Qars rayonunu və Gürcüstanın tərkibində olan Ərdahan rayonunu nəzərdə tuturam. Biz belə hesab edirik ki, Qars və Ərdahan rayonlarındakı sərhədlər düzgün deyil. Əgər, Türkiyə bizimlə yeni bir müqavilə bağlamaq istəyirsə, bu sərhədləri düzəltmək lazımdır [52].

Ermənilər "erməni məsələsi"nin bu konfransda qaldırılmasının ermənilərin arzu və ümidlərinin ifadəsi kimi qiymətləndirsələr də, əslində "Sovet rəhbərləri ermənilərin ərazi tələbləri ilə Sovet İttifaqının Türkiyəyə qarşı ərazi tələblərini əsaslandırmaq istəyirdi" [58, s.60]. K.Brutens özünün "30 il köhnə meydanda" adlı kitabında yazır ki, Sovet hökuməti Türkiyədən geri alınacaq "erməni torpaqları"nda inzibati bölgü siyasətini də həyata keçirməli idi. "Azad olunacaq" Şərqi Anadolu torpaqlarında iki vilayət yaradılmalı idi. Qars vilayəti Ermənistan SSR-ə, Ərdahan vilayəti isə Gürcüstan SSR-ə birləşdirilməli idi. Hətta bu vilayətlərdə vilayət Partiya Komitələri də formalaşdırılmışdı. K.Brutensin yazdığına görə Qars vilayət partiya komitəsinin birinci katibi vəzifəsinə Ermənistan SSR K(b)P MK katibi Koçinyan təyin edilmişdi [73.a].

Şərqi Anadolunun bölüşdürülməsi ilə bağlı başqa bir fakt çox maraqlıdır. 1945-ci ilin payızında Moskvaya xüsusi səfər etmiş Gürcüstan SSR XXİK Q.İ.Kiknadze Gürcüstan K(b)P MK-nın birinci katibi K.N.Çarkviani tərəfindən 26 oktyabr 1945-ci il tarixdə yazılmış "Türkiyə tərkibinə daxil edilmiş Gür-

cüstan torpaqları" və "Türkiyə tərəfindən gürcü vilayətlərinin qaytarılması" məsələləri ilə bağlı iki məruzəni onun adından L.Beriyaya və G.Molotova təqdim etmişdir [58, s.190]. Ermənistan SSR və Gürcüstan SSR rəhbərləri Türkiyə tərəfindən bu torpaqların onlara qaytarılmasını o dərəcədə real hesab edirdilər ki, hətta artıq öz aralarında onların əldə olunması üçün sərt mübarizə aparırdılar [58, s.190]. Vəziyyət o həddə gəlib çatmışdı ki, Mərkəzi hökumət iki ittifaq respublikası arasında bu məsələ ilə bağlı yaranmış mübahisəni həll etməli olmuş, bu barədə hər iki respublikanı razı salacaq bir qərar qəbul etmişdi. İki respublika rəhbərləri arasında yaranmış mübahisənin əsas səbəbi Türkiyədən geri alınacaq torpaqların mərkəzi hökumət tərəfindən "ədalətsizcəsinə" bölgüsü səbəb olmuşdur.

Gürcüstan SSR XXİK Q.İ.Kiknadze bununla bağlı Lavrenti Beriyaya yazırdı: "Ermənistan SSR XXİK-nın bu sorğusu ilə bağlı yoldaş S.İ.Kaftaradze (SSRİ XXİK-nın müavini - Q.Ə.) bu məsələ ilə bağlı SSRİ XXİK-a təqdimat vermişdir. Bu təqdimata əsasən S.İ.Kaftaradze hesab edir ki, Türkiyə tərəfindən Sovet İttifaqına qaytarılacaq ərazi təxminən 26000 $km^2$ təşkil edir. Bundan 20500 $km^2$ -lik ərazi Ermənistan SSR-nin tərkibinə daxil olmalı, 5500 $km^2$ -lik ərazi isə Gürcüstan SSR-in tərkibinə daxil edilməlidir. Biz tərəfdən tərtib olunmuş arayış S.İ.Kaftaradze yoldaşın oxşar arayışı ilə onunla fərqlənirdi ki, sonuncuda keçmiş Batum və Artvin dairələrinin cənub sektorundan başqa Gürcüstan SSR ilə onun tarixi vilayətləri Ərdahan, Oltin dairələrinin də yenidən birləşdirilməsi qeyd olunmuşdur. Beləliklə də Gürcüstan SSR-in tərkibinə 12.760 $km^2$-lik ərazi, Ermənistan SSR-nin tərkibinə isə 13190 $km^2$ ərazi daxil edilməsi nəzərdə tutulur [58, s.190].

Sovet-Türkiyə münasibətlərinin kəskinləşdiyi illərdə 1945-ci ilin oktyabr ayının 27-də dünya ermənilərinin katalikosu VI Gevorq, üç böyük dövlət başçılarına, SSRİ rəhbəri İ.V.Stalinə, ABŞ prezidenti Harri Trumenə və Böyük Britaniyanın Baş Naziri K.Ettliyə məktubla müraciət edərək onlardan "erməni mə-

sələsi"nin həllinə kömək etmələrini xahiş etmişdi. Katalikosun müraciəti Ermənistanda erməni dilində çıxan "Sovetakan Hayastan" ("Sovet Ermənistanı") qəzetində bütünlüklə çap edilmişdi.

Erməni kilsəsini və onun başçıları olan katalikosları və keşişlərini əsrlərdən bəri erməni millətinin arzularının, dərdlərinin, iztirablarının cəfakeşi adlandıran katalikosun müraciətində deyilirdi: "... Türklər 1920-ci il tarixli öhdəçiliyi ayaq altına salaraq, hücum edərək Ermənistanın mühüm və həyati hissələrini təşkil edən Qars, Ərdahan, Artvin və Sürməlini aldılar. Yeni yaradılan Sovet İttifaqı, tarixi erməni torpaqlarının (?) kiçik bir qismini qurtardı və orada yaşayan erməniləri mütləq bir məhv olmadan xilas etdi. İyirmi beş ildən bəri sülh və azadlıq içində yaralarını sağaldaraq tərəqqi və inkişaf etməkdə olan Sovet Ermənistanı yaradıldı.

...Qəsb edilmiş və hələ də boş qalan bu torpaqların Türkiyənin əlindən alınaraq həqiqi sahiblərinə qaytarılmasını və Sovet Ermənistanına ilhaqını istəyirik" [104, №70, 1945]. VI Gevorq yazırdı ki, Yunanıstan, Serbiya, Rumıniya, Bolqarıstan və s. ölkələr Türkiyənin əsarətindən qurtardılar. Guya, xilas ola bilməyən isə "Ermənistan" oldu. O, dünyanın demokratik dövlətlərini, millətlərini birləşməyə və erməni millətini xilas etməyə çağırırdı [104, №70, 1945].

Xaricdə fəaliyyət göstərən erməni milli komitə və təşkilatları dünya dövlətlərinə, BMT-yə müraciət etmiş və bildirmişdilər ki, Türkiyədəki "yurd yerləri" geri qaytarılmayınca onlar öz vətənlərinə qayıtmayacaqlar. Ermənilərin arasıkəsilməyən müraciətlərinə dünyanın əksər dövlətləri, beynəlxalq təşkilatları belə cavab verirdilər ki, Türkiyə demokratik dövlətdir və ermənilər köhnə yaşayış yerlərinə qayıtmaqda sərbəstdirlər. Onlar nə vaxt istəsələr həmin yerlərə qayıda bilərlər.

Dünya dövlətlərinin, beynəlxalq təşkilatların erməniləri razı salmayan cavabından qəzəblənən VI Gevorq onlara cavab olaraq qətiyyətlə bildirirdi: "...Keçmişin saysız təcrübələrinə istinad edən erməni milləti köhnə və yeni Türkiyənin mövcud

olmadığını, Türkiyənin eyni Türkiyə olduğunu bildiyi kimi Avropa diplomatiyası ilə türklər tərəfindən edilən müraciətlərin xidmətini də yaxşı bilir.

Bütün bunların bir çarəsi vardır: Türkiyə Ermənistanını qurtarmaq və onu Sovet Ermənistanına ilhaq etmək. Bu etibarla Türkiyədəki erməni vilayətlərinin Sovet Ermənistanına birləşdirilməsini xahiş edirik" [104, №70, 1945]. SSRİ XKS 1945-ci il noyabrın 21-də "Ermənilərin xaricdən Sovet Ermənistanına qayıtmaları ilə əlaqədar tədbirlər haqqında" xüsusi qərar qəbul etdi [70, s.364]. Bu işdə Sovet rəhbərləri, onun xüsusi xidmət orqanları, Eçmiəzzin katalikosluğu, "Hnçak", "Ramkavar" və başqa komitə və təşkilatlar xaricdəki erməni icmalarında fəal iş görərək çoxsaylı ermənilərin "tarixi vətənləri"nə qayıtmasının razılığını aldılar.

Tarixçi-alim Qriqori Volınski bununla əlaqədar olaraq Rusiyada çap olunan "Obşaya qazeta"da "Özümüzünkülərə və özgələrə" adlı məqaləsində bu fakta toxunaraq yazır ki, İ.V.Stalin Qara dəniz körfəzlərini ələ keçirmək üçün Çar siyasətini davam etdirməyi özünün borcu bilirdi. Bu məqsədlə "arxanı möhkəmləndirmək üçün" xaricdə yaşayan ermənilərin ölkəyə gəlişinə icazə verdi [46, №1-2, 1998].

Sovet rəhbərləri ermənilərin xaricdən köçürülüb gətirilməsində (repatriasiyası) üç başlıca məqsəd güdürdü. Birincisi, dünyaya "ədalətli" dövlət olduğunu nümayiş etdirmək; ikincisi, Türkiyədən tələb etdikləri torpaqların ermənilər vasitəsilə SSRİ-yə birləşdirmək; üçüncüsü, SSRİ-nin Türkiyə siyasətində ermənilərin fəaliyyətini stimullaşdırmaq.

Xaricdə yaşayan ermənilərin Sovet Ermənistanına repatriasiyasının əsl mahiyyəti isə 1947-ci ilin oktyabr-noyabr aylarında Qahirə şəhərində keçirilmiş XIV konqresinin daşnakların siyasi fəaliyyətlərinə dair direktiv sənədin "repatriasiya" bölməsində təsdiqini tapmışdır. Sənəddə açıqca qeyd olunurdu ki, ermənilərin repatriasiyasından başlıca məqsəd "erməni torpaqlarının azad olunması və Ermənistanın sərhədlərinin genişləndirilməsi zərurəti ilə bağlıdır" [6, v.22].

Sənəddən göründüyü kimi Türkiyədən geri alınacaq Şərqi Anadolu torpaqları Ermənistana birləşdirilməli, daxildə isə Sovet Ermənistanının sərhədləri ermənilərin Zaqafqaziyada tələb etdikləri torpaqlar hesabına, Gürcüstandan Axalkələk, Azərbaycan Sovet Sosialist Respublikasından isə Dağlıq Qarabağ, Naxçıvan və başqa ərazilər hesabına genişləndirilməli idi.

SSRİ XKS-nin "Xarici ermənilərin Sovet Ermənistanına qayıtmaları" ilə bağlı məlum qərarını xarici ölkələrdə yaşayan ermənilər ruh yüksəkliyi ilə alqışlayır, onu Sovet hökumətinin ən böyük humanist aktı kimi baxırdılar. Qərardan dərhal sonra minlərlə xarici ölkə vətəndaşları olan ermənilər Sovet hökumətinə müraciət etdilər ki, onların "vətənə" qayıdışını sürətləndirsinlər. Hətta xarici ölkələrdəki erməni kütlələri onların vətənə qayıtması üçün öz əmlaklarını və pullarını Sovet hökumətinin ixtiyarına vermək istəyirdilər. Onların şirnikləndirilib Ermənistana gətirilməsində sovet təbliğatçı qrupları mühüm rol oynayırdılar.

Xarici ölkələrdən ermənilərin Ermənistana gəlmək istəməsi haqqındakı çoxsaylı müraciətləri respublika ictimaiyyətində çoxlu suallar doğururdu. Suallar əsasən xaricdən köçürülüb gətirilən ermənilərin harada yerləşdiriləcəyi ilə bağlı idi. Rəsmi dairələr tərəfindən ölkəyə gəlmək istəyənlər 300-500 min miqdarında göstərilirdi. Həm də onlar bir milyon erməninin ölkəyə qayıtması məsələsini həll etmək kimi böyük və çətin bir problemin altına girmiş, bu istiqamətdə götür-qoy edirdilər. Ermənistan K(b)P MK-nın I katibi Q.Harutyunov seçiciləri ilə görüşdə xarici ermənilərin ölkəyə gəlişi məsələsinə toxunur, onların məskunlaşdırılması məsələsinə münasibətini bildirirdi. Onun çıxışından məlum olur ki, Ermənistana gəlmək istəyənlər qat-qat çoxdur və hökumət olsa-olsa respublikanın indiki ərazisində maksimum 350-400 min ermənini yerləşdirə bilər. Yerdə qalan 500-600 min erməni əhalisinin yerləşdirilməsi məsələsinə toxunan Q.Harutyunov məsələni belə qoyurdu ki, Türkiyə tərəfindən guya zəbt edilmiş erməni vilayətlərinin Ermənistana qaytarıla-

cağı şəraitində ermənilərin yerləşdirilməsi baş tuta bilər. O, qətiyyətlə və inamla bildirirdi ki, bizim xaricdən gələn ermənilərdən imtina etməyə heç bir mənəvi haqqımız yoxdur və hazırda Türkiyədə olan "erməni vilayətləri"nin Sovet Ermənistanına qaytarılması məsələsinin müsbət həllinə nail olacağıq [71, № 29, 1946].

Xarici ölkələrdə yaşayan ermənilərin Sovet Ermənistanına qayıtmaları haqqındakı qərarından bir həftə sonra, 1945-ci il noyabrın 28-də Ermənistan hökuməti tərəfindən Azərbaycanın tarixi torpağı olan Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi məsələsi Mərkəzi hökumət qarşısında qaldırılır. Bütün bunlar əlbəttə ki, təsadüf deyildi.

Hadisələrin xronoloji cəhətdən də izlənilməsi də göstərir ki, istər xaricdən ermənilərin Ermənistana repatriasiyası haqqındakı qərar, istərsə də Türkiyəyə və Azərbaycana qarşı irəli sürülən ərazi tələbləri bir-biri ilə bağlı olan kompleks məsələlər idi, eyni siyasətdən, bir mərkəzdən qaynaqlanırdı. Ermənilərin Ermənistana qayıdışı haqqında qərar və onun ardınca Azərbaycana qarşı ərazi iddiasının qaldırılması yalnız və yalnız bir məqsədə xidmət edirdi. Bütün bunlardan məqsəd isə Türkiyəyə qarşı irəli sürülən sovet ərazi tələblərinə erməniləri inandırmaq, onların ərazi davasında siyasi, ideoloji iştiraklarını təmin etmək idi.

Sovet İttifaqının Türkiyəyə qarşı açıq ərazi tələbləri yüksək səviyyəli beynəlxalq görüşlərdə səsləndirilir, bu məsələ qəti şəkildə qaldırılırdı. Berlin (Potsdam) konfransının qərarlarına uyğun olaraq 1945-ci ilin dekabrın 16-20-də Moskvada ABŞ, SSRİ və Böyük Britaniya Xarici İşlər Nazirlərinin müşavirəsi oldu [7, s.243]. Üç böyük dövlətin, ABŞ, Böyük Britaniya və SSRİ XİN-nin Moskva iclasında, əsasən də Böyük Britaniyanın Xarici İşlər Naziri E.Bevinlə görüşdə sovet rəhbəri İ.V.Stalin özünün və Sovet İttifaqının Türkiyəyə qarşı açıq ərazi iddiasını bir daha bildirdikdən sonra Türkiyənin şərq vilayətlərinə iddia edən ermənilər xeyli fəallaşdılar. Onlar İranın paytaxtı Tehran şəhərində "Türkiyə Ermənistanı torpaqları"nın xəritəsini nəşr et-

dirib yaydılar [58, s.189]. Göründüyü kimi ermənilərin fəallaşması Sovet İttifaqının Türkiyə ilə, xüsusən də onun torpaqlarına qarşı iddia etməsi onların əl-qolunu açır, ermənilər də bu işdə maraqlı tərəf kimi həvəslə iştirak edirdilər.

Sovet ərazi tələblərinin müdafiə edilməsinə gürcü alimləri S.R.Canaşvili və Berdzanaşvili də cəlb edilmiş, onlar əvvəlcə Tiflisdə çıxan "Kommunist" qəzetində, sonra isə ÜİK(b)P MK-nın orqanı olan "Pravda" qəzetinin 20 dekabr 1945-ci il sayında "Türkiyədən bizim qanuni tələblərimiz" adlı tarixi məqalə çap etdirmişdilər. Türkiyəyə qarşı böhtan, iftira dolu, əsassız ərazi tələbləri ilə bağlı sözü gedən yazıda deyilirdi: "... Gürcü xalqı faşizmin darmadağın edilməsində xeyli güc sərf etmiş, ona görə də öz qanuni haqqlarını irəli sürmək hüququnu əldə etmişdir". Onlar dünya ictimaiyyətinə çatdırmaq istəyirdilər ki, guya 1920-ci ilin axırları, 1921-ci ilin əvvəllərində türklər gürcü xalqının ağır günlərində Gürcüstana hücum etmiş, Ərdahan, Oltvin, Artvin dairələrini və Batum dairəsinin cənub hissəsini zəbt etmişlər. Gürcü xalqının adından danışan bu alimlər Türkiyə dövlətini böhtanlamaqdan belə çəkinmirlər, onu müharibə illərində faşist Almaniyası ilə müttəfiqlikdə suçlayır, belə bir rəy yaratmağa çalışırdılar ki, guya Türkiyə hələ də Gürcüstanın qalan ərazisinə də göz dikmişlər. Məqalənin sonunda deyilirdi: "...Gürcü xalqı öz torpaqlarını geri almalıdır. Bu torpaqlardan o, heç vaxt imtina etməyib, edə də bilməz. Biz Ərdahan, Artvin, Oltu, İspır, Törtün, Bayburt, Gümüşhanə, Trabzon, Giresun və Gürcüstandan alınmış başqa əraziləri nəzərdə tuturuq" [53, №3011, 1945].

Məqalənin siyasi sifarişlə yazıldığı şübhə doğurmur. Əgər belə olmasaydı mərkəzi qəzetlər bu məqaləni asanlıqla çap etməz, sovet rəsmi dairələri də bu mövqedən çıxış etməz və qaldırılan məsələləri müdafiə etməzdilər. Bununla bağlı 1947-ci ilin 24 oktyabrında Birləşmiş Millətlər Təşkilatı (BMT) siyasi komissiyasında çıxış edən SSRİ NS sədrinin müavini, SSRİ XXİK-nın müavini, SSRİ-nin BMT-dəki daimi nümayəndəsi A.Y.Vışinski Moskva mətbuatında dərc olunmuş, tarixi gerçək-

likdən çox-çox uzaq, Türkiyəyə qarşı böhtan və iftira dolu məqalə müəlliflərini müdafiə edir, onların haqlı olduğu qənaətində idi. O, yüksək tribunadan gürcü ərazi tələbləri ilə bağlı bildirirdi: "...Adları çəkilən bu torpaqlar əsil dədə-baba gürcü torpaqlarıdır. Onlar gürcü xalqına həm tarixi, siyasi, etnoqrafik və bir çox əsaslarla aiddirlər. Bu ədalətlidir ona görə ki, onlar gürcü torpaqlarıdır" [65, s.87-88]. A.Y.Vışinski bu tələblərə əsas kimi SSRİ-nin Zaqafqaziyadakı cənub sərhədlərinin təhlükəsizliyini təmin etmək zərurətini göstərirdi.

A.Y.Vışinskinin bu çıxışı bütün ermənilər arasında qəzəblə və heyrətlə qarşılandı. Misirdə çıxan daşnak mətbu orqanı "Husaber" ("Ümid") qəzeti özünün 9.XII.1947-ci il tarixli baş məqaləsində yazırdı: "Vışinski və Vışinski kimiləri bu və ya digər respublikanın adından nə tələb edirlərsə yalnız öz ağaları, yəni Rusiya üçün tələb edirlər. Bu və ya digər respublika Rusiyanın öz məqsədlərini maskalamaq üçün şirmadır" [6, v.70].

Doğrudur, tələb olunan ərazilərə ermənilərin də iddia etdiyini nəzərə alsaq, daşnakların bu sərt reaksiyasını anlamaq və başa düşmək o qədər də çətin deyil. Lakin bununla belə daşnaklar Sovet hökumətinin ikili siyasətini ciddi tənqid edirdilər. Əslində müəyyən mənada haqlı idilər və daşnak mətbuatı bunu açıqca etiraf edirdi. İstər Gürcüstan adı, istərsə də Ermənistan adı tələb olunan ərazilərlə bağlı bəhanə idi. Əsil həqiqətdə isə Sovet İttifaqı Türkiyə Respublikasına qarşı irəli sürdüyü ərazi iddialarını bu ad altında sığortalayırdı.

Bütün bunlar bir də İ.V.Stalinin bir sıra türk ərazilərinin geri alacağı və həmin ərazilərin bir hissəsinin də Gürcüstan SSR-ə birləşdiriləcəyi haqda apardığı rəsmi təbliğatın və açıqlamaların onlar arasında doğurduğu ümidlərlə bağlı idi. Sovet rəsmi nümayəndələrinin Gürcüstanın Türkiyəyə qarşı sovet tələbləri ilə birgə irəli sürdüyü ərazi iddialarını qızğınlıqla müdafiə etməsi Zaqafqaziyada gürcü ekspansiyasına təkan verir, onların Azərbaycanın şimal-qərb rayonlarına – Qax, Zaqatala, Balakən rayonlarına ərazi iddiası irəli sürməsinə səbəb oldu.

1947-ci ildə, 11 noyabrda Azərbaycan K(b)P MK-ya və Azərbaycan SSR NS-nin ünvanına Azərbaycanın yengiloy əhalisi arasında, xüsusən də onların sıx yaşadıqları ərazilərin Gürcüstan SSR-yə aid olması barədə 1944-cü ildən bəri bu rayonlarda aparılan təbliğatla bağlı məlumatlar daxil olmuşdu [67, s.307].

Azərbaycan SSR NS-nin sədri Teymur Quliyevin rəhbərliyi altında xüsusi nümayəndə heyəti Qax, Zaqatala, Balakən rayonlarında olmuş, bu barədə arayış hazırlamışlar. Məlum olmuşdur ki, Gürcüstan patriarxı və Gürcüstan SSR NS yanında səlahiyyətli şuranın baş keşişi Aleksey Natadze bu rayonlarda Gürcüstan SSR DTK və onun xüsusi xidmət orqanlarının tapşırığını yerinə yetirmiş, keçmiş Zaqatala dairəsinin guya Gürcüstana aid olduğu barədə təbliğat işi aparmışlar. Azərbaycan rəhbərlərinin bu işə qarışması nəticəsində insident dincliklə həll edilmişdir [67, s.307-308].

Ermənilərin geniş ərazi ekspansiyalarından fərqli olaraq, gürcülərin ərazi iddiaları sistemli xarakter daşımırdı. Bir də ki, onlar ermənilər kimi xaricdə güclü diasporaya malik deyildilər. Düzdür, Sovet hökumətinin yüksək pillələrində özlərinə yer etmiş çoxlu sayda gürcü millətindən rəhbərlər olsa da, Gürcüstanın iddialarına heç bir kömək edə bilmirdilər. Azərbaycan rəhbərliyi hələ 1945-ci ildə Gürcüstanın ərazi iddiası ilə bağlı öz fikrini qəti olaraq bildirmiş, iddia edilən ərazilərin əvəzində azərbaycanlılar yaşayan Borçalının Azərbaycana verilməsini istəmişdi. Belə bir şərtlə də gürcülər çətin ki, razılaşa bilərdi.

Sovet kütləvi informasiya vasitələri, xarici ölkələrdə fəaliyyət göstərən çoxlu sayda erməni partiyaları, komitə və təşkilatları Türkiyəyə qarşı görünməmiş təbliğat kampaniyasına qoşulmuşdu [94,s.3].Torpaq tələbinə dünyanın müxtəlif ölkələrindəki erməni komitələri və diasporları cəlb edilmişdi. Bu təşkilatların yaradılması, onların fəaliyyət prinsiplərinin müəyyən edilməsində SSRİ-nin xüsusi xidmət orqanları xüsusilə fəallıq göstərirdilər. Erməniləri yerindəcə inandırmaq və erməni davasında iştirak etdirmək məqsədi ilə onlar yaşayan müxtəlif ölkələ-

rə təbliğatçı qruplar göndərilmişdi. Onlar "erməni məsələsi"nin ədalət və insanlığının olduğu adı altında müxtəlif erməni cəmiyyəti qurdururdular. Tarix elmləri doktoru, professor Musa Qasımov bu barədə yazır: "...Ermənilərin ayağa qaldırılması heç şübhəsiz ki, Moskvanın işi idi. Məqsəd tarixi rəqibləri olan Türkiyəni parçalamaq və zəiflətmək idi" [23, s.33].

ABŞ-ın paytaxtı Vaşinqtonda Sov.İKP MK tərəfindən təlimatlandırılan erməni kommunistləri tərəfindən "Ermənilərə ədalət" adlı bir komitə yaradılmışdı. Komitənin yaymüş olduğu bəyannamədə komitə Sovet İttifaqından kömək istəyərək Vilsonun cızdığı sərhədlərin şərqində qalan torpaqların Ermənistana birləşdirilməsini istəyirdilər. Ermənilər 26000 $km^2$ -lik Sovet Ermənistanının bütün ermənilərə azlıq etdiyini iddia edərək Türkiyədəki torpaqların Sovet Ermənistanına birləşdirilməsini tələb edirdilər [93, s.197].

"Türkiyə Ermənistanını müdafiə" komitəsində qəbul edilmiş müraciətdə isə deyilirdi: "Dünya ermənilərinin milli bir dövləti yoxdur. Sovet İttifaqının tərkibində olan Ermənistan Respublikası isə daha çox dağlıq ərazi olduğundan hər an artmaqda olan ermənilər üçün kifayət deyildir. Yüz minlərcə erməni Türkiyədəki erməni vilayətlərinin Sovet Ermənistanına birləşdiriləcəyi təqdirdə oradakı yurd yerlərinə qayıtmaq arzusundadırlar" [98, s.112-114].

1946-cı ilin may ayı da ermənilərin nümayişləri ilə keçdi. ABŞ-dakı 16 erməni təşkilatı BMT Baş Katibi Tryuqve Liyə məktub göndərərək Təhlükəsizlik Şurasının gündəliyinə "erməni məsələsi"ni salmağı və onların öz vətənlərinə qayıtmalarına icazə verməyi xahiş etdi. Məktubda göstərilirdi: "Bütün dunyadakı 4 milyon erməni tələb edir ki, Sovet Ermənistanı Qarsı, Ərdahanı, Ərzurumu, Trabzonu, Bitlisi və Vanı alsın". Məktubda daha sonra göstərilirdi ki, guya Ermənistan ərazisinin 0.9 hissəsi Türkiyənin tərkibindədir və "tarixi Ermənistan" ermənilərdən təmizlənmişdir. Guya bu torpaqların geri qaytarılmasından dünya sivilizasiyası yalnız udacaqdır [24, s.268-269].

"Daşnakstyun" partiyasının siyasi mövqelərinin güclü olduğu Livanda, Suriyada ermənilərin fəaliyyəti xeyli genişlənmişdi. Sovet xüsusi xidmət orqanları bu ölkələrdə zəif və pərakəndə fəaliyyət göstərən erməni təşkilatlarını mərkəz halına gətirmişdi. Livanda Hrant Davyanın rəhbərliyi altında Livan Kommunist partiyası yaradılmışdır. Livan ermənilərinin Milli Şurası da BMT-dən ermənilərin Qərbi Ermənistan adlandırdıqları Şərqi Anadolu torpaqlarının Sovet Ermənistanına birləşdirilməsinə kömək etmələri tələb olunurdu [98, s.108-109].

Xarici ölkələrdə olduğu kimi ölkə daxilində də ermənilər ayağa qaldırılmışdı. Onlar tərəfindən Sovet ərazi tələbləri ilə bağlı tez-tez konfranslar təşkil edilir, Türkiyəyə qarşı ərazi tələbləri müdafiə edilirdi. Konfranslarda, yığıncaqlarda diqqəti çəkən bir məsələni qeyd etmək lazımdır. Ermənilərin çıxışlarında, Türkiyədən alınacaq torpaqlarla bağlı onlarda o qədər əminlik yaranmışdı ki, onlar nəinki bunu gizlətmir, hətta tezliklə alınacaq torpaqların Ermənistana birləşdiriləcəyi qənaətində idilər. 1946-cı il fevral ayının 20-də Moskva Politexnik İnstitutunda keçirilmiş konfransda Ermənistan SSR EA-nın müxbir üzvü Civeladov öz çıxışında əminliklə bildirirdi: "Biz ümid edirik ki, vaxtı ilə Türkiyəyə keçmiş erməni vilayətləri olan Qars, Ərdahan və digər ərazilər tezliklə bizə aid edələcək, Sovet Ermənistanına bağlanacaqdır" [97, s.110].

Türkiyəyə qarşı irəli sürülən ərazi tələblərinin müdafiə edilməsinə Ermənistanın kommunistləri də qoşulmuşdu. Ermənistan K(b)P MK-nın I katibi Qriqori Harutyunov 1948-ci ildə Birləşmiş Millətlər Təşkilatında çıxış etmiş, Türkiyədən "erməni torpaqları"nın Sovet Ermənistanına qaytarılmasını bir tələb kimi irəli sürmüşdü [80 a, s.203].

Sovet-Türkiyə münasibətlərində baş verən prosesləri diqqətlə izləyən "Daşnakstyun" partiyası rəhbərləri və adi üzvləri Türkiyəyə qarşı irəli sürülən ərazi tələbləri ilə kifayətlənmir, Gürcüstana, əsasən də Azərbaycan Respublikasının torpaqlarına qarşı da ərazi tələbləri irəli sürürdülər. Görünür, Sovet hökumə-

tinin Şərqi Anadolu vilayətləri ilə bağlı irəli sürdüyü tələblər və bu ərazilərin Ermənistana aid olması barədəki Sovet hökumətinin irəli sürdüyü tarixi həqiqətdən uzaq tələbləri, həm də bu məsələdə ermənilər adından çıxış etməsi daşnakların daha çox torpaq əldə etmək iştahasını daha da artırmışdı. Daşnaklar ərazi məsələsində Sovet İttifaqını, onun hökumətini qınayır, hətta onları "erməni məsələsi"ndə tutduqları mövqeyi tənqid etməkdən belə çəkinmir, hökumətdən qəti hərəkətlər tələb edirdi.

"Daşnakstyun" partiyası həm də Türkiyədən "erməni torpaqları"nın geri alınacağına şübhə ilə yanaşır, Sovet hökumətinin Zaqafqaziyadakı "erməni torpaqları"nın Ermənistana birləşdirməyə çağırırdılar. Lakin bununla belə onlar başa düşürdülər ki, Türkiyədən torpaq almaq heç də asan məsələ deyil. Daşnak şərhçilərindən biri yazırdı: "Biz başa düşürük ki, Türkiyə Respublikasından "erməni torpaqları"nı geri almaq bir sıra problemlərlə bağlıdır, çətindir. Bəs, nəyə görə Sovet rəhbərləri, əlaqədar orqanlar öz daxilində olan torpaqlar məsələsində nə üçün və nəyə görə sərəncam vermirlər?!" [6, v.23]

Əlbəttə ki, daşnaklar daxildəki ərazilər deyəndə ilk növbədə Ermənistanın Zaqafqaziyadakı sərhədlərinin, Azərbaycanın Dağlıq Qarabağ, Naxçıvan və Gürcüstanın Axalkələk ərazilərinin Ermənistana birləşdirilməsini nəzərdə tuturdular.

Qara və Aralıq dənizlərini birləşdirən Bosfor və Dardanel boğazları üzərində nəzarəti ələ keçirmək xətti də SSRİ hökumətinin xarici siyasət fəaliyyətinin ənənəvi istiqamətini təşkil edirdi [44 a, s.79]. Fikrimizcə, "erməni məsələsi" bu yöndə də Sovet İttifaqı üçün xüsusi əhəmiyyət daşıyan məsələlərdən biri idi. Sovet İttifaqı erməniləri Türkiyəyə qarşı ayağa qaldırmaqla həm də onlar vasitəsilə Türkiyəyə qarşı siyasi, diplomatik, təsir və təzyiqlər göstərməklə boğazlar haqqında SSRİ-nin irəli sürdüyü şərtləri Türkiyəyə qəbul etdirməyə çalışırdı.

Sovet hökuməti Montredə boğazlar haqqında bağlanmış müqaviləni etibarsız saymış, boğazlar barədə yeni rejimin yaradılması məsələsini qoymuşdu. Baxmayaraq ki, 1936-cı il iyul

ayının 20-22-də 10 dövlətin, Türkiyənin, İngiltərənin, Fransanın, SSRİ-nin, Yaponiyanın, Bolqarıstanın, Yunanıstanın, Ruminiyanın, Avstriyanın, Avstraliyanın iştirakı ilə İsveçrədə - Montre konfransında Qara dəniz boğazları rejimi haqqında konvensiya imzalanmışdı [95, s.664]. 29 maddə, 4 əlavə və 1 protokoldan ibarət olan konvensiya ilk növbədə boğazlar üzərində beynəlxalq nəzarəti ləğv edir, Bosfor və Dardanel boğazlarını Türkiyənin yuridiksiyasına verirdi. Konvensiyanın şərtlərinə görə bütün ölkələrin ticarət gəmiləri üçün boğazlar açıq elan edilir, eyni zamanda Türkiyəyə boğazlar zonasında silahlı qüvvələr saxlamaq hüququ verilirdi [96, s.141-142].

SSRİ-nin 1946-cı il avqustun 7-də Türkiyəyə verdiyi notada boğazlar məsələsindəki Sovet tələbləri öz əksini tapmışdı. Boğazlar məsələsində Sovet şərtlərini ehtiva edən bu notada Sovet hökuməti II dünya müharibəsindəki hadisələrdən bəhs edir, həmin illərdə guya bəzi düşmən gəmilərinin keçdiyini iddia edir, yeni boğazlar rejiminin qurulmasını istəyirdi [99, s.219-220]. Eyni məzmunlu bir nota ABŞ və İngiltərəyə də göndərilmişdi. ABŞ Dövlət Katibinin köməkçisi Dean Acheson 7 avqust notasının boğazlar rejimini nizamlamaqdan daha çox Türkiyəni sovet nüfuz dairəsinə salmaq məqsədini güddüyünü bildirirdi [99, s.220].

ABŞ prezidenti Harri Trumen isə belə hesab edirdi ki, notadakı Sovet iddiaları qəbul edilərsə ABŞ və İngiltərənin boğazlar məsələsində söz sahibi olmalarını aradan qaldıracaq, ən əhəmiyyətlisi isə Türkiyənin müstəqilliyi aradan qalxacaqdır. Çünki, indiyə qədər olanlar göstərir ki, sovet ordusunun girdiyi hər bir ölkə qısa bir zaman içərisində sovet təsir dairəsinə keçmişdir. Boğazların birgə müdafiə olunması bəhanəsi ilə Türkiyəyə girəcək sovet əsgərləri çox çəkmədən bütün Türkiyəni nəzarət altına alacaqlar [99, s.220].

Dean Acheson isə regionda yaranmış təhlükə ilə bağlı öz qəti mövqeyini bildirirdi:"Türkiyənin sovet hegemonluğunun altına girməsi ilə Yunanıstan da eyni aqibətə məruz qalacaqdır.

Ona görə də ABŞ sovet tələblərinə birmənalı münasibət bildirməli, SSRİ-nin Türkiyəyə yerləşməsinə mane olmalıdır" [99, s.220]. Bununla bağlı olaraq 19 avqust 1946-cı il tarixdə ABŞ-ın Sovet hökumətinə verdiyi cavab notasında ABŞ-ın rəsmi mövqeyi və narahatçılığı ifadə olunurdu [99, s.220].

Sovet hökuməti irəli sürdüyü tələblərinin və şərtlərinin yerinə yetirilməsi üçün Türkiyəyə qarşı hərbi təzyiq göstərməyə çalışır, bu məqsədlə təxmini rəqəmlərə görə Qafqazda 190.000, Bolqarıstanın Türkiyə ilə sərhədində 90.000 sovet hərbçisi cəmləşdirilmişdi [99, s.220]. Başqa bir mənbədə isə Bolqarıstan Türkiyə sərhədində yaxşı silahlanmış 180 min sovet hərbiçisi yerləşdirildiyi göstərilir [58, s.189].

Amerika Birləşmiş Ştatlarının prezidenti H.Trumen Dövlət katibi Byrnes ilə görüşmədə bildirirdi: "SSRİ-nin Türkiyəni istila edərək boğazları ələ keçirmək niyyətinə şübhəm qalmadı. Əgər bu gedişə dəmir bir yumruq uzadıb "dur" deməsək, yeni bir müharibə çıxacaq" [99, s.236].

ABŞ-ın mövqeyinin dəyişməsinə təsir göstərən səbəblər bunlar idi. Əvvəla, Stalinin siyasətində Güney Azərbaycanın Sovet Azərbaycanına birləşdirilməsi ilə bağlı xüsusi planlar mövcud idi [19, s.11]. Digər tərəfdən Sovetlərin Güney Azərbaycanda möhkəmlənmək siyasəti strateji baxımdan Türkiyəyə qarşı irəli sürülən tələblərin gerçəkləşdirilməsinə kömək etməli idi [19, s.170].

Əlbəttə ki, Sovetlərin Cənubi Qafqaz regionunda yayılması ABŞ siyasi dairələrini narahat etməyə bilməzdi və onun mövqeləri ilə üst-üstə düşmürdü.

Sovet İttifaqının irəli sürdüyü tələblər ilə bağlı Türkiyənin ərazi bütövlüyü üçün real təhlükə yaranmışdı. Türkiyə dövləti SSRİ-nin hər an gözlənilən hücum təhlükəsinə qarşı ehtiyatda olanları hərbi xidmətə çağırmışdı [97, s.106]. Digər tərəfdən isə, Türkiyə öz iqtisadi və hərbi gücünü nəzərə alaraq ABŞ-la yaxınlaşır, onlardan kömək tələb edirdi [99, s.203]. Göründüyü kimi sovet tərəfinin əsassız ərazi tələbləri üzündən regionda yeni bir müharibə təhlükəsi reallaşmaqdaydı.

Nəinki Türkiyə dövləti, Yunanıstan da kommunist təhlükəsi altında idi. Belə bir şəraitdə 1947-ci ilin 12 martında Trumen doktrinasının qəbul edilməsi, ABŞ konqresində Türkiyəyə və Yunanıstana 400 milyon dollar həcmində maliyyə yardımı göstərilməsi ilk növbədə bu dövlətlərin ərazi bütövlüyünü qorumağa qadir olan ordunun modernləşdirilməsini nəzərdə tuturdu [99, s.203]. Bu məsələ ilə bağlı Harri Trumenin müraciətində deyilirdi ki, Sovet İttifaqı ABŞ mənafeləri üçün təhlükə yaradır [7, s.275].

Türkiyə Respublikası ilə ABŞ arasında 1947-ci ilin 12 iyulunda "Türkiyəyə ediləcək yardım haqqında" yeni bir müqavilənin imzalanması da Türkiyənin ərazi bütövlüyünə qarşı yönəlmiş hərbi təhlükə ilə bağlı idi və onun güc strukturlarının yenidən qurulmasına kömək etməli idi [99, s. 231].

Türkiyə ABŞ yaxınlaşması və onunla müqavilələr imzalaması Türkiyənin ərazi bütövlüyünə qarşı Sovet İttifaqı tərəfindən yönəlmiş hərbi, siyasi təhlükəni aradan qaldırmaqla yanaşı Azərbaycan türklərinin tarixi-etnik torpaqlarından deportasiya olunmasını qaçılmaz edirdi. “Soyuq müharibə” dövrünün ilk illərində Türkiyənin, SSRİ-nin siyasi rəqibinə çevrilmiş ABŞ-la hərbi, siyasi əməkdaşlığa can atması və bu məqsədlə strateji əməkdaşlığın reallaşması istiqamətində ciddi siyasi addımları fikrimizcə, sovet rəhbərlərini adekvat tədbirlərə əl atır, Türkiyə ilə sərhəd zolağından ermənilərdən ibarət etibarlı sərhəd zolağının yaradılmasını sürətləndirirdi. Belə bir sərhəd zolağının yaradılması dövlət sərhədinin “təhlükəsizliyini” təmin etməli idi.

Azərbaycan türklərinin məcburi köçürülməsinin bir səbəbi də çox güman ki, hərbi məqsədlərdən irəli gəlir və SSRİ-nin Türkiyəyə qarşı hərbi təcavüz planı ilə bağlı idi. Ermənistandan Azərbaycan türklərinin məcburi köçürülməsi ərəfəsində Ermənistan Xüsusi Xidmət orqanlarının dinləmələri zamanı köçürülmənin səbəblərinin respublikanın istər azərbaycanlı, istərsə də erməni əhalisi tərəfindən Türkiyə ilə ola biləcək müharibə ehtimalı ilə əlaqələndirilməsi heç də təsadüf deyildi və regionda

yaranmış real müharibə təhlükəsindən irəli gəlirdi. Azərbaycan türklərinin köçürülməsini sürətləndirən amillərdən biri də məhz sovet hökumətinin onlara etibar etməməsi ilə bağlı idi.

Sovet İttifaqı rəhbərlərinin bu siyasi addımı həm də Türkiyəyə qarşı irəli sürülən sovet tələbləri ilə bağlı hərbi, siyasi təzyiqin məntiqi nəticəsi idi.

Cənubi Qafqaz regionunda türk faktorunun zəiflədilməsi də Azərbaycan türklərinin köçürülməsində başlıca rol oynayırdı. Belə ki, tarix boyu rus imperiyası türk xalqlarını, o cümlədən Azərbaycan türklərinin Türkiyə ilə əlaqələrini kəsməyə çalışmış, imkan düşdükcə onları bu ölkə ilə sərhəd ərazilərdən köçürülməsini həyata keçirmişdir. Deportasiya zamanı SSRİ-nin Ermənistan-Türkiyə sərhəd zolağından 100-ə qədər kəndlərdən türk əhalisinin tamamilə köçürülməsi də məhz imperiyanın ənənəvi siyasətindən qaynaqlanırdı.

Türkiyəyə qarşı sovet ərazi tələbləri qüvvədə qalsa da, onun həyata keçirilməsi artıq real görünmürdü. Həmin illərdə ABŞ-ın İranda səfiri olmuş Rossou SSRİ-nin Türkiyə ilə bağlı siyasətinə toxunaraq yazır: "...Sovet liderləri anlaya bilmirdilər ki, ABŞ və Qərb dünyası, dünyanın belə strateji və vacib rayonunda SSRİ-nin əməllərinə göz yuma bilməzdilər. Bundan başqa bütün dünya yeni səs-küylü konfliktə etiraz etdi. Sovet notaları Türkiyədən şiddətli cavab aldı, ABŞ isə Sovet İttifaqının öz mövqelərinə yenidən baxılmasına inadla məsləhət gördülər. Sovet liderləri bu oyununun o qədər də təhlükəsiz olmadığını başa düşdülər və taktikanı dəyişdilər. Nəticədə öz mövqelərindən əl çəkdilər [58, s.304-305].

Sovet tələblərinin həyata keçməməsindən isə ən çox narahat olan ermənilər idi.Onlar üçün Şərqi Anadolunun Ermənistana birləşdirirlməsi üçün real tarixi şərait əldən qaçılmış, SSRİ rəhbərlərinin "erməni məsələsi" ilə bağlı onlara verdiyi vədlər öz həllini tapmamışdı.

1918-1920-ci illərdə daşnak Ermənistanın rəhbəri olmuş S.Varasyan Eçmiəzzin katalikosunun "erməni məsələsi"nə pat-

riarx xeyir-duası ilə bağlı İranın paytaxtı Tehranda nəşr edilən daşnak mətbu orqanı olan "Alik"in 1949-cı il 19-22 saylarında "Müəllimə müraciət" başlıqlı məqaləsi ilə çıxış edir, onu ÜİK (b)P MK-nın tərəfdarı və təəssübkeşi olmaqda təqsirləndirir. Onun VI Gevorqa müraciət etməsi təsadüf deyildi. "Erməni məsələsi" İ.V.Stalinlə Gevorq Çerokçyan (VI Gevorq) arasında olan görüş və danışıqlardan sonra yenidən siyasətə qayıtmış, ermənilərin Türkiyəyə qarşı ayağa qaldırılmasında və onların istiqamətləndirilməsində kilsə başçısı əvəzsiz rol oynamışdı.

S.Varasyan yazırdı:"...Bizim "ədalətli məhkəməmiz"məsələsinin həlli bu gün öz atom bombasını tərifləyərək onu göyə qaldıranları qətiyyən maraqlandırmır. Onlar üçün türklərlə dostluq, bizim kimi əzilən xalqın ədalətli və qanuni hüququndan olduqca qiymətlidir" [6, v.58-59]. S.Varasyan bir həqiqəti etiraf edirdi: "Biz həmçinin sizinlə razıyıq ki, böyük dövlətlər öz maraqlarına görə bu günə qədər, yerinə yetirilməyən boş ümidlər və vədlər verərək bizi aldadırlar.

Amma təəssüf! Bizi daim çar, həm də Sovet Rusiyası da aldadırdı. Sovet hökuməti də bizə belə yanaşdı" [6, v.58-59].

Demək olmaz ki, Sovet hökuməti erməniləri aldatdı və onların istəklərini yerinə yetirmədi. Əlbəttə ki, bu belə deyildir. Sovet İttifaqının Türkiyənin şərq vilayətləri barədəki təcavüzkar planlarının gerçəkləşməsinə II dünya müharibəsindən sonrakı illərdə beynəlxalq münasibətlərdə yaranmış yeni düzüm, xüsusən də Qərb amili imkan vermədi.

# III FƏSİL

## Ermənilərin siyasi şəraitdən yararlanma cəhdləri və azərbaycanlıların deportasiyasının siyasi zəmini.

İkinci dünya müharibəsindən sonrakı dövr ərzində erməni milli hərəkatının əsas ideyası bütün "qədim erməni" torpaqlarının vahid dövlətə qaytarılması ideyası olmuşdur. Əsas məsələnin həll olunması istiqamətində bütün erməni partiyaları, erməni kilsə xadimləri, ifrat erməni millətçiləri, xarici erməni icmasının ziyalıları, həmçinin erməni icması və diasporasının təmsilçiləri, erməni kommunistləri yekdilliklə, hamılıqla birgə hərəkət edirdilər [80 a, s.202].

Sovet-Türkiyə münasibətlərində yaranmış soyuq münasibətlər və Sovet hökuməti tərəfindən süni surətdə ortaya atılmış "erməni məsələsi" də ermənilərin fəallaşmasında heç də az rol oynamırdı. Bütün tarixi situasiyalardan yararlanmaq istəyən erməni lobbisi və siyasətçiləri Sovet-Türkiyə münasibətlərində baş verən prosesləri çox diqqətlə izləyir, əlverişli tarixi şəraitdən öz milli mənfəətlərini təmin etmək istəyir, bu istiqamətdə təşəbbüslər göstərirdilər.

Müharibənin ilk illərində deyil, məhz müharibənin hərbi, siyasi nəticələrinin SSRİ-nin xeyrinə həll olunduğu ərəfədə, ermənilər qazanılmaqda olan müharibənin uğurlarından öz paylarını götürmək məqsədilə Sovet İttifaqına yaxınlaşır, alman faşizmi ilə müharibədə öz köməkliklərini göstərməyə çalışırdılar.

Erməni təşkilatlarının ən çox geniş fəaliyyət göstərdikləri ölkələrdən biri də Amerika Birləşmiş Ştatları idi. 1944-cü ildə orada fəaliyyət göstərən bəzi partiya və təşkilatlar "Böyük Ermənistan" barədə xülyalarını Sovet İttifaqının fəal yardımı ilə reallaşdırmaq istəyirdilər. Bu məqsədlə bəzi partiya və təşkilatlar arasında aparılan siyasi məsləhətləşmələr və danışıqlar nəticəsində razılıq əldə edildi, "Ermənistan ermənilərinin Milli Liqası" yaradıldı [83, s.292].

Belə bir təşkilatın yaradılması zərurəti ilə bağlı "EEÜL" tərəfindən nəşr edilmiş sənəddə deyilirdi: "ABŞ-da 1944-cü ilin 19 martında "Ramkavar", "Hnçak" partiyaları, "Ermənistan ermənilərinin mütərəqqi İttifaqı" erməni icmalarında həmrəylik və əməkdaşlığı təmin etmək, eləcə də erməni xalqına ediləcək köməyə qüvvələri birləşdirmək üçün bu təşkilatlar razılıq əsasında "Ermənistan Ermənilərinin Milli Liqasını yaratdılar" [83, s.292]. Milli Liqa rəhbərliyinə Terpyan seçildi [75, №275, 1945].

"Liqa"nın qəbul etdiyi sənəddə bu təşkilatın məqsədləri açıqcasına göstərilirdi; birincisi, Sovet İttifaqının Alman faşizminə qarşı apardığı müharibəyə hərbi səylərlə kömək göstərilməsi; ikincisi, Sovet İttifaqında və Sovet Ermənistanında kömək məqsədilə müxtəlif müəssisələrin təşkili; üçüncüsü, xaricdə yaşayan ermənilərin hüquqlarının qorunması və onların erməni torpaqlarına repatriasiyasına (vətənə qaytarılmasına) hər cür kömək göstərmək". Sənəddə daha sonra deyilirdi: "ABŞ-da fəaliyyət göstərən "Ermənistan Ermənilərinin Milli Liqası" bütün ermənilərin haqlarının yeganə təmsilçisi kimi Sovet Ermənistanı hökumətini tanıyır" [83, s.292].

Təşkilat yarandığı ilk gündən bəri fəaliyyətini gündən-günə genişləndirirdi. Müharibənin sonlarına doğru erməni komitə və təşkilatları demək olar ki, bütün erməni icmalarında öz özəklərini yarada bilmişdi. Millətçi, vətənpərvər, hətta mühafizəkar erməni təşkilatları da bu işə çox fəal şəkildə qoşulmuşdu.

Erməni kommunistləri bütün erməni komitə və təşkilatlarını bir araya gəlməsi və onların birgə fəaliyyətlərini koordinasiya etmək istiqamətində fəal səy göstərirdilər. Onların yaxından köməyi ilə milli liqalar vahid cəbhə orqanlarına çevrildilər. Erməni milli təşkilatlarının vahid cəbhəsi Fransada, İngiltərədə, Balkan ölkələrində, İranda, Misirdə, Suriyada, Livanda, Fələstində və ermənilərin yaşamış olduqları başqa ölkələrdə yaradıldı [83, s.293].

Xaricdə fəaliyyət göstərən erməni komitə və təşkilatları Sovet İttifaqına faşist Almaniyası ilə müharibədə öz köməklik-

lərini göstərirdilər. Ermənistan Mərkəzi Dövlət Arxivində saxlanılan sənəd ermənilərin müharibə dövründə SSRİ-yə göstərdikləri maddi köməklikləri əks etdirir. SSRİ Dövlət Bankı Ermənistan kontorunun rəisi Rza Vəlibəyovun və baş mühasib Markaryanın verdiyi bank məlumatından gündəlik olaraq xaricdə yaşayan ermənilər tərəfindən Eçmiəzzin kilsəsinin arxiyepiskopu Gevorq Çerekçiyanın adına adına keçirilmiş pul vəsaitinin hesabatını verir [84, s.721].

Bank hesabatında göstərilir ki, 1943-cü ilin 26 yanvarından 1944-cü ilin 21 aprelinə qədər ABŞ-dan, İrandan və başqa ölkələrdə yaşayan xarici ermənilər tərəfindən yardım fonduna 417.645 rubl. 71 qəpik keçirilmişdir [84, s.721]. Həmin vəsait hesabına "Sasunlu David" tank kolonnası yaradılmış və cəbhəyə yola salınmışdır. Arxiyepiskop Gevorq Çerokçyanın 1944-cü ildə Ali Baş komandan İ.V.Stalinə göndərdiyi teleqramda bu barədə ətraflı bəhs olunur [84, s.721].

Ali Baş Komandan İ.V.Stalin 1944-cü ilin 7 iyununda arxiyepiskop Gevorq Çerokçyana göndərdiyi cavab teleqramında yardım fondu hesabına təşkil edilmiş "Sasunlu David" adlı ikinci tank kolonnasının yaradılmasında iştirakına görə ona öz təşəkkürünü bildirir. Teleqramda deyilirdi: "Xahiş edirəm, xaricdə yaşayan ermənilərə "Sasunlu David" ikinci tank kolonnasının yaradılmasında iştirakına görə mənim adımdan və Qızıl Ordu adından salamımı və təşəkkürümü çatdırasınız" [84, s.721].

Müharibə illərində fəaliyyəti leqallaşdırılmış bir çox kilsələr kimi Eçmiəzzin kilsəsi də dövlət tərəfindən bir sıra güzəştlər əldə etmiş və SSRİ-nin Türkiyə siyasətində fəal rol oynayırdı. Bir faktı da qeyd edək ki, 1945-ci ilin aprelində İ.V.Stalin tərəfindən qəbul edilən G.Çerokçyana kilsənin bərpası ilə yanaşı, xarici ölkələrdən yüz min erməninin ölkəyə immiqrasiyasını təşkil etməyi tapşırmışdı [60, №9, 1993].

VI Gevorq, İ.V.Stalinlə olan razılaşmaya əsasən, xaricdəki din xadimlərinə, partiyalara, tanınmış diaspora nümayəndələrinə müraciət edir ki, xaricdən ermənilərin repatriasiyasını təşkil

etsinlər [60]. Tezliklə Eçmiəzzin kilsəsinin təşkilatçılığı nəticəsində 130 min xarici ermənilərdən Ermənistan SSR-də yaşamaq istəmələri barədə müraciətlər qəbul edilir və Sovet hökumətinə təqdim edilir [70, s.364]. SSRİ Xalq Komissarları Soveti 1945-ci ilin noyabr ayının 21-də "Ermənilərin xaricdən Ermənistan SSR-yə qayıtmaları ilə əlaqədar tədbirlər haqqında" qərar qəbul edir [70, s.364].

Belə bir qərarın qəbul edilməsində Sovet hökuməti iki başlıca məqsəd güdürdü. Birincisi, Sovet İttifaqının Türkiyəyə qarşı irəli sürdüyü ərazi tələblərinin ermənilər tərəfindən müdafiə edilməsi; ikincisi, SSRİ-nin Türkiyə siyasətində ermənilərin iştirakını stimullaşdırmaq.

Repatriasiya. Erməni tarixçiləri və siyasətçiləri tərəfindən tez-tez işlədilən bu hüquqi termin etimoloji anlamda latın mənşəli söz olub, "patria"- vətənə dönmə və daha geniş mənada tarixi vətənə dönmə mənasını verir [81, c.II, s.349].

Tarixə ekskurs etsək, şahidi olarıq ki, ermənilər Qafqazın yerli sakinləri deyil və onlar indiki Ermənistan ərazisinə, eləcə də Qafqazın digər bölgələrinə gəlmədilər. Bu faktı qərəzsiz rus mənbələri də təsdiq edir.N.N.Şavrov,N.S.Qlinka, A.Qriboyedov, N.S.Yenikopolov və s. başqaları Rus-İran (1812-1828) və Rus-Türk (1813-1829) müharibələrindən sonra ermənilərin kütləvi surətdə İran və Türkiyə ərazilərindən köçürülərək Qafqazda, xüsusən də Azərbaycanın Qarabağ, Naxçıvan və İrəvan xanlıqları ərazilərində yerləşdirildiyini qeyd edirlər [91; 63; 62; 66] .

Erməni tarixçiləri də yazılanların doğruluğunu təsdiq edirlər. Amma necə? Onlar bu faktı "repatriasiya" olduğunu yazırlar. Erməni tarixçilərinin iddiasına görə guya ermənilər bu ərazinin ən qədim sakinləri olmuş və orta əsrlərdə "gəlmə türk-tatarlar" tərəfindən qovulmuşlar. İndi isə öz tarixi vətənlərinə qayıdırlar [27, s.10]. Onlar bu termindən istifadə etməklə, həm də belə fikir formalaşdırmağa çalışırlar ki, guya onlar bu ərazinin avtoxtan sakinləridir. Bununla onlar tarixi saxtalaşdırır, özlərinin bu əraziyə gəlmə olmalarını ört-basdır edirlər.

II dünya müharibəsindən sonrakı illərdə on minlərlə insanlar, vaxtı ilə xarici ölkələrə mühacirət etmiş keçmiş ölkə vətəndaşları yenidən öz vətənlərinə dönürdülər. Ermənilər isə özlərini immiqrant deyil, repatriant sayırdılar. Xarici ermənilərin ölkəyə qayıdışını reemiqrasiya kimi yox, məhz repatriasiya kimi xarici ermənilərin Ermənistana qayıtmaları haqqındakı qərara saldıran Kremldəki ermənilər belə bir məqsəd güdürdülər ki, onları ölkəyə gələn digər başqa xalqlarla qarışıq salmasınlar.

Repatriasiya ermənilər üçün həm də siyasi mahiyyət daşıyır. V.M.Baqumiyanın Tehranda fars dilində nəşr etdirdiyi "İran erməniləri məsələlərinə bir baxış" kitabı ermənilərin repatriasiyasının əsl mahiyyətinə aydınlıq gətirir. Erməni müəllifinə görə "daşnakların proqram və şüarlarının əsas məqsədi dünyada yaşayan erməniləri, onların özlərinin əsas həyati məsələlərindən və tələblərindən uzaqlaşdırmaqdan ibarətdir. Bu elə bir roldur ki, daşnaklar xeyli illər bundan qabaq öz öhdələrinə götürmüşlər.Bu proqramın həyata keçirilməsi üçün onlar yeni taktikaya əl atmışlar. Bu yeni taktika bütün ermənilərin "Vətənə qayıtmalarını" təşkil etməkdən ibarətdir. "Vətənə qayıtmaq" şüarı ermənilərin özlərinin iş və həyatlarından əl çəkib, bütün həyati çətinliklərini həll etmək üçün "Vətənə", yəni, Sovet Ermənistanına və Şərqi Türkiyəyə keçməli, orada "erməni məsələsi"ni həll etmək üçün mübarizə aparmalıdırlar [40, №2, 1991].

Sovet hökuməti və onun rəhbərləri xaricdə olduğu kimi, ölkə daxilində də siyasi oyuna başladılar. Xaricdə yaşayan ermənilərin Sovet Ermənistanına qayıtmaları haqqındakı, SSRİ XKS-nin 21 noyabr 1945-ci il tarixli qərarından az sonra, noyabr ayının 28-də Ermənistan tərəfindən Azərbaycanın Dağlıq Qarabağ vilayətinin Ermənistana birləşdirilməsi məsələsi qaldırıldı. Ermənistan K(b)P MK-nın I katibi Q.Harutyunov bu məsələ ilə bağlı İ.V.Stalinə ünvanladığı müraciətdə yazırdı ki, Dağlıq Qarabağ vilayəti 1923-cü ildə Ermənistanın tərkibindən çıxarılaraq Azərbaycana verilmişdir. O, yalan rəqəmlər gətirməkdən belə çəkinmir, göstərirdi ki, vilayətin əhalisi əsasən ermənilərdir. Onlar 153 min əhalinin 137 minini təşkil edir [80 a, s.203].

Ermənistan rəhbərinin tarixi saxtalaşdıran müraciətinə cavab olaraq bildirim ki, Azərbaycanın tarixi ayrılmaz hissəsi olan Dağlıq Qarababağ heç vaxt Ermənistanın tərkibində nəinki olmamış, əksinə, Ermənistan SSR 1920-ci ildə tarixi Azərbaycan torpaqlarında bolşevik Rusiyasının köməyilə yaradılmışdır.

İ.V.Stalinin tapşırığı ilə ÜİK(b)P MK katibi G.Malenkov Ermənistan rəhbərinin qaldırdığı məsələni məktubla birgə Azərbaycan K(b)P MK-nın birinci kaitibi M.C.Bağırova göndərir və ondan bu məsələyə münasibətini bildirməyi xahiş edir [80 a, s.203]. Məktubda bildirilirdi ki, ÜİK(b)P MK-nın və İttifaq hökumətinin sərəncamına təqdim edilmiş müraciətdə Ermənistan K(b)P MK və Xalq Komissarları Soveti Dağlıq Qarabağ əhalisinin istəyindən çıxış edərək Azərbaycan SSR-nin Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistan SSR-nin tərkibinə daxil edilməsini təklif edir [26, №53-54, 1998].

Azərbaycan K(b)P MK-nın I katibi M.C.Bağırov isə bununla əlaqədar 1945-ci ilin 10 dekabrında ÜİK(b)P MK katibi K.Malenkova cavab məktubunda ermənilərin qaldırdığı ərazi iddiasının əsassız olduğunu tarixi faktlarla sübut edir və bildirirdi ki, DQMV-nin Ermənistan SSR-nin tərkibinə daxil edilməsi məsələsinə baxılarkən, Ermənistan SSR-nin Azərbaycan Respublikasına bitişik olan və əsasən azərbaycanlıların məskunlaşdığı Əzizbəyov, Vedi və Qarabağlar rayonlarının Azərbaycan SSR-nin tərkibinə daxil edilməsi məsələsinə baxılmalıdır [26, s.11-12].

O dövrdə, xüsusən də Böyük Vətən müharibəsində möhkəmlənmiş xalqlar dostluğuna zərər vura biləcək bir məsələnin qaldırılması "müttəfiq" respublika rəhbərləri üçün çox riskli bir hərəkət idi. Q.Harutyunov bu cür məsələni bu şəkildə ortaya qoya bilməzdi. Əks təqdirdə onu da keçmiş həmkarı Aqasi Xancyanın aqibəti gözləyə bilərdi. Vaxtı ilə A.Xancyan erməni milli maraqlarını qorumağa cəhd etmiş və uğursuzluqla qarşılaşmışdı. Tarixçi alim, professor E.İsmayılov da bu barədə haqlı olaraq yazır: "...Lakin bir halda ki, söhbət "tarixi ədalətin bərpası"ndan və itirilmiş torpaqların geri qaytarılmasından gedirdi,

onda erməni rəhbərliyi DQMV-ni Ermənistana birləşdirilməsinə ümid etməyi mümkün saydı. Şübhəsiz ki, ancaq İ.V.Stalinin icazəsini alıb Harutyunov bu mövzuda risk edə bilərdi" [67, s.294].

Ermənistan tərəfinin qaldırdığı ərazi tələbləri tezliklə milli münasibətlərdəki mövcud vəziyyətə təsirini göstərdi və gürcü ərazi ekspansiyasını gücləndirdi. Onlar da ümidləndilər ki, bir halda ki, ermənilər Azərbaycandan ərazi tələb edilərsə, onda nə üçün onlar özlərinə aid etdikləri Qax, Zaqatala, Balakən rayonlarını Gürcüstana SSR-ə birləşdirmək üçün cəhd etməsinlər?

Ermənilərin ərazi iddiasının xarici ermənilərin ölkəyə qayıdışı haqqındakı qərardan dərhal sonra qaldırılması heç də təsadüf deyildi. Onlar bu qərardan sonra dərhal hərəkətə keçdilər, yaranmış şəraitdən faydalanmağı üstün tutdular. Ermənistan rəhbərləri SSRİ XKS-da, MK-da tez-tez görüşlər keçirir və bildirirdilər ki, ermənilərin torpaqları az, xaricdən gəlmək istəyənlər isə qat-qat çoxdur. Ermənilər bu problemin mümkün həllini Ermənistanın istər Zaqafqaziya daxilindəki, istərsə də xaricdəki sərhədlərinin genişləndirilməsi zərurətini vurğulayırdılar. M.S.Qorbaçovun məsləhətçisi olmuş K.Brutens "30 il köhnə meydanda" kitabında yazır ki, 1945-ci ilin sonları və 1946-cı ilin əvvəllərində Ermənistan K(b)P MK-nın I katibi Qriqori Harutyunov xaricdə yaşayan ermənilərin Ermənistan SSR-ə qayıdışı ilə bağlı olaraq Azərbaycanın Dağlıq Qarabağ və Naxçıvan vilayətlərinin Ermənistana birləşdirilməsi məsələsini ÜİK(b)P MK-nın katibi G.Malenkovla birlikdə dəfələrlə müzakirə etmişdi [73a, s.64].

Azərbaycanın kommunist rəhbəri M.C.Bağırovun ərazi məsələsi ilə bağlı tutduğu sərt və kəskin mövqeyi rəsmi Moskvanı və erməniləri bu fikirdən daşındırdı. Mərkəzi hökumət isə bir daha ərazi məsələlərin müzakirəsinə qayıtmadı M.C.Bağırov bu məsələdə qəti mövqe və möhkəm iradə ortaya qoymasaydı, çox güman ki, Dağlıq Qarabağ vilayəti elə o vaxtlar Azərbaycandan alınıb Ermənistana birləşdiriləcəkdi.

Ermənilərin fəallaşmasında İranda baş verən siyasi hadisələr də az rol oynamırdı. Sovet qoşunlarının İrana müdaxiləsi

ərəfəsində bu fəallıq daha da güclənmişdi. Hələ 1941-ci il avqustun sonu, sentyabrın əvvəllərində keçirilən hərbi əməliyyatlarda iştirak edən və S.Yemelyanov başda olmaqla, qrupun məlumatından aydın olur ki, ermənilər, xüsusən də burada çalışan Ermənistanın çekist qrupu Cənubi Azərbaycanla bağlı müəyyən iş aparırlar. Belə ki, Ermənistan SSR-dən çekist qrupuna rəhbərlik edən respublika Daxili İşlər Nazirinin müavini Gözəlyan Ermənistan rəhbərliyinin fikrini belə açıqlamışdı ki, guya sovet qoşunlarının işğal etdiyi "İran ərazisi" Azərbaycanla Ermənistan arasında təsir dairəsinə bölünməlidir. Ermənilərin fikrincə Təbriz Ermənistanın respublika orqanlarına tabe edilməli idi. Ancaq ona görə ki, Ermənistanın əməliyyat işçiləri guya orada işə başlayıblar. Ermənistanın xüsusi xidmət orqanları əsaslandırmağa çalışırdı ki, Ermənistan Təbrizdə çox maraqlıdır, nəinki Azərbaycan" [19, s.42].

Göründüyü kimi, ermənilərin ərazi iddiası Azərbaycan və Türkiyə ilə məhdudlaşmırdı. Onlar həm də İranla bağlı, xüsusən Cənubi Azərbaycanla bağlı iddialar irəli sürürdülər. Məlum olduğu kimi, SSRİ-nin İranda apardığı siyasət orada milli demokratik hərəkatların güclənməsinə xeyli dərəcədə təsir göstərmişdi. İranda baş verən ictimai-siyasi proseslər erməniləri də hərəkət gətirmişdi. Cənubi Azərbaycanda Pişəvəri hökumətinin qurulmasından sonra Mahabada kürd muxtariyyətinin elan edilməsi, onların burada muxtariyyət almaq üçün hərəkətlərə şirnikləndirirdi.

Mahabadda kürd muxtariyyətinin elan olunmasından sonra Urmiya rayonunda yaşayan erməniləri xeyli ruhlandırdı. Onların bu regionda muxtariyyət yaradılması arzusu, təşəbbüsü böyük erməni planının tərkib hissəsi idi, tamamən Türkiyə əleyhinə və qismən də Cənubi Azərbaycan əleyhinə istiqamətlənmişdi. Bu barədə Azərbaycan SSR XİK-nın müavini A.S.Əlizadə öz məruzəsində Azərbaycan K(b)P MK-nın birinci katibi M.C.Bağırova məlumat verirdi: "Bizim Moskvada ezamiyyətdə olduğumuz müddətdə mən, SSRİ XXİK-nın yeməkxanasında masa arxasında Ermənistan SSR XXİK Karapetyanla rastlaşdım. Karapetyanla

şəxsi söhbətdə danışıq əsasən xarici ermənilərin Sovet Ermənistanına köçürülməsindən getdi. Yeri gəlmişkən Karapetyan yoldaş İrandan köçürülən ermənilər məsələsinə də toxundu. O, İranın ancaq cənub hissəsindən ermənilərin köçürüləcəyini bildirdi, buradaca qeyd etdi ki, İranın cənubunda yaşayan ermənilərin hamısını deyil, ancaq bir hissəsi köçürüləcək. Köçürülmə zamanı erməni əhalisinin qalan hissəsi İranın şimalında saxlanılacaq, belə ki, burada erməni muxtariyyəti yaratmaq nəzərdə tuturuq. Sonra İranın şimalında yaşayan erməni əhalisinin sayı məsələsinə toxundu. Karapetyan burada 120 min erməni yaşadığını bildirdi. Mən ona bildirəndə ki, ermənilər İranda dağınıq vəziyyətdə ancaq şəhərlərdə yaşayırlar, Karapetyan Urmiya ətrafında bir neçə erməni kəndi olduğunu və hətta bu yerlərin adının qədim ermənicə olduğuna cavab verdi. Biz Karapetyanla söhbət etdiyimiz zaman SSRİ XXİK-nın Orta-Şərq şöbəsi müdirinin vəzifəsini icra edən yoldaş Sıçev keçib bizim stolun yanında əyləşdi. Karapetyan Sıçevə müraciətlə bildirdi ki, İrandan ermənilərin köçürülməsi məsələsi ancaq İranın cənub hissəsində yaşayan ermənilərə aiddir. Belə ki, İranın şimalında yaşayan ermənilərin Sovet Ermənistanına köçürülməsini onlar qoymayacaqlar"[58, s.207]. Bakı və Təbriz liderlərinin bu məsələni ciddi nəzarət altına aldıqları üçün erməniləri bu planı həyata keçirməyi baş tutmadı [58, s. 207].

Ermənilər İranda muxtariyyət əldə etmək üçün əməli cəhətdən də bu işə hazırlaşırdılar. Ölkənin müxtəlif yerlərindən onlar 1945-ci ilin ortalarından etibarən Urmiyəyə köçməyə başlayırdılar. Hətta İrandan Ermənistana köçməli olan ermənilər Ermənistana köçmək əvəzinə bu ərazidə məskunlaşmağa can atırdılar. Sovetlərin tələbi ilə Türkiyənin Şərq vilayətləri Ermənistana birləşdirildikdən sonra "Böyük Ermənistanla" sərhəddə birinci addım kimi ermənilər İran daxilində muxtariyyət almağı planlaşdırırdılar. 1945-ci ilin iyulunda məlum oldu ki, "Böyük Ermənistan" və "kiçik muxtariyyət" naminə Təbrzdəki erməni məktəbinin və erməni kilsəsinin zirzəmilərində daşnak və hnçak

partiyalarının üzvləri tərəfindən çoxlu sayda tüfəng, top, qranat, partlayıcı maddə, patron və s. gizlədilmişdir [19, s.170-171].

Bütün bu faktdan sonra belə bir nəticəyə gəlmək olur ki, ermənilər burada muxtariyyət ideyasını gerçəkləşdirmək üçün hətta silah gücünə həll etmək istəyirdilər. Lakin ermənilərin bu əməllərinin üstünün açılması onların planlarının reallaşmasına imkan vermədi.

Xarici ölkələrdə yaşayan ermənilərin Sovet Ermənistanına repatriasiyası məsələsində də onlar arasında müxtəlif fikir ayrılıqları olsa da, heç bir erməni bu qərarı təqdir etmirdi. Bununla belə onlar bu qərardan irəli gələn bu məsələ ilə bağlı öz qonşularına olan ərazi tələbləri irəli sürür, Ermənistanın sərhədlərinin genişləndirilməsi zərurətini vurğulayırdılar. Tehranda erməni dilində çıxan daşnak mətbu orqanı "Alik"("dalğa") qəzetində çap edilmiş "İmmiqrasiya i mı" ("İmmiqrasiya və biz") məqaləsində bu barədə söhbət açılır və deyilirdi: "Kütləvi repatriasiyanı yalnız o halda həyata keçirmək mümkündür ki, ermənilərin işğal altında olan tarixi torpaqları erməni xalqına qaytarılsın. Məgər daşnaklar istəmirlərmi ki, onların yüz minlərlə soydaşları öz vətənlərinə qayıtsın? II dünya müharibəsindən sonra Ermənistanın daxili sərhədləri belə artırılmayıb, genişlənməyib". Məqalədə xarici ermənilərin harada yerləşdiriləcəyi də onlarda narahatçılıq doğurur! "Moskva xaricdəki erməniləri Ermənistana köçürməyi planlaşdırıb, ancaq bu qərar hələ də kağız üzərində qalmaqdadır. Qarabağ, Gəncə, Axalkələk və Naxçıvan öz əsl sahibləri olan ermənilərə qaytarılmadığı halda o qədər əhalini harada yerləşdirmək olar?" [6, v.48-49].

Ermənistanın kommunist rəhbərləri barədə daşnak müəlliflərinin də fikri çox maraqlıdır. Hələ 1923-cü ildə daşnak liderlərindən biri olan Hovanes Kaçaznuni erməni bolşevikləri haqqında yazırdı: "Başa düşmək lazımdır, erməni bolşevikləri bizim davamçılarımızdır və onlar bizim işimizi davam etdirir və artıq edirlər. Onlar bunu edəcəklər anlayıb-anlamayacaqlarından, arzu edib-etməyəcəklərindən asılı olmayaraq" [33, s.94]. Erməni bol-

şeviklərinə qarşı açıq münasibətinə görə partiyadaşları və dostları tərəfindən ciddi tənqidə məruz qalan Kaçaznuni bütün bunlara baxmayaraq 7 iyun 1923-cü ildə Buxarestdən yazmış olduğu cavab məktubunda israrla və qətiyyətlə bildirirdi:"...Erməni bolşevikləri əsl daşnaksakandırlar. Tayı-bərabəri olmayan daşnaksakanlar bu gün məndən və səndən də böyük daşnaksakandırlar" [33, s.94].

Daşnak liderinin dediyi fikirlərin üstündən 23 il keçəndən sonra uzaqgörənliklə deyilmiş fikirlər erməni bolşevikləri tərəfindən təsdiq edildi.Artıq daşnaklarda bolşeviklərə qarşı münasibət xeyli dəyişmişdi. Daşnak müəllifi Ermənistanın kommunist rəhbərlərinin ərazi tələbləri barədə göstərdikləri əziyyətli və çətin işi etiraf edərək yazırdı: "Ermənistanın kommunist rəhbərləri də bizim narahat olduğumuz qədər ölkəmizin ağır taleyi üçün narahatçılıq keçirirlər. Hətta onlar xaricdəki ermənilərdən də çox həyəcan keçirirlər. Daha doğrusunu bilmək istəyirsinizsə, onlar daha çox qurban verirlər" [6, v. 41].

Professor B.Nəcəfov isə erməni kommunistləri haqqında, onların fəaliyyətləri barədə yazır ki, Ermənistanın kommunist rəhbərləri zahirdə sovet ideologiyası və şüarları ilə pərdələnsələr də, qəlblərinin dərinliyində daşnak idilər, daşnak prinsiplərinə tapınmışdılar.Onlar üçün "erməni məsələsi" kommunist ideologiyası və beynəlmiləlçilik prinsiplərindən qat-qat əziz və doğma idi. Məhz buna görə də repatriasiya məsələsində Ermənistan K(b)P MK, respublika rəhbərliyi xarici erməni diasporası ilə birgə hərəkət edirdi ki, elə bu həmrəylik də son nəticədə onlara uğur gətirdi" [37, s.60-61].

Sovet hökuməti xarici ölkələrdən ermənilərin köçürülüb gətirilməsi üçün geniş təbliğat işinə qoşulmuş, bu istiqamətdə bütün təbliğat vasitələrindən istifadə edirdi. 1944-cü ildə Ermənistan SSR-də "Ermənistanın Xarici Ölkələrlə Mədəni Əlaqələr cəmiyyəti yaradılmış, bu cəmiyyət ABŞ-da, Fransada, Yunanıstanda, Bolqarıstanda, Rumıniyada, İranda, Suriyada, Livanda, Misirdə və s. ölkələrdə yaşayan ermənilərlə geniş əlaqələr qurmuşdu [90, s. 132].

Sovet İttifaqı və onun xüsusi xidmət orqanları bu təşkilatın imkanlarından xarici ölkələrdə yaşayan ermənilər arasında təbliğat üçün istifadə edirdi. Ermənilər özləri də bunu etiraf edərək deyirdilər ki, xaricdə bizim təşviqatçılar kifayət qədərdir. Erməniləri dilə tutublar ki, SSRİ-yə gəlsinlər. Buradakı həyati nailiyyətləri tərənnüm edirlər, ermənilər də aldanır və tamaha düşüb gəlirlər [26, s.13].

1945-ci il noyabr ayının 20-də Ermənistanda sovet hakimiyyəti qurulmasının 25 illiyi ölkədə təntənəli şəkildə qeyd olundu. Xarici ölkələrdən ermənilərin qayıdışı ərəfəsində Sovet Ermənistanının yubileyinin geniş surətdə bütün ölkədə qeyd edilməsi əslində siyasi xarakterli tədbir idi. Bu münasibətlə SSRİ XKS, ÜİK(b)P MK Ermənistan rəhbərliyinə və erməni xalqına təbrik məktubu göndərdi. ÜİK (b)P MK-nın orqanı olan "Pravda" qəzeti isə 25 noyabr 1945-ci il sayında bayram ovqatlı yazılara geniş yer vermiş, bu əlamətdar hadisə ilə bağlı öz səhifələrində məqalələr dərc etmişdi. Həmin məqalələrdə 25 il ərzində Sovet Ermənistanının ittifaq tərkibində qazanmış olduğu siyasi, iqtisadi, sosial, mədəni nailiyyətlərdən sözbət açılır, ölkə qarşısında duran perspektiv inkişaf meylləri vurğulanırdı. "Pravda" qəzetinin "Prazdnik armyanskoqo naroda" (Erməni xalqının bayramı) adlı baş məqaləsində bütün bu qazanılmış olduğu nailiyyətlərlə yanaşı, tarixi faktlar təhrif edilir, türklərin orta əsrlərdə indiki Ermənistan ərazisini məskunlaşdırdıqlarını və guya onlar tərəfindən ermənilərin qovulub çıxarılması faktı ictimaiyyətin diqqətinə çatdırılırdı.

Qəzetdə diqqəti çəkən başqa bir məqalə isə Ermənistan K(b)P MK-nın I katibi Q.Harutyunovun "25 let Sovetskoy Armenii" (Sovet Ermənistanının 25 illiyi) başlıqlı məruzəsidir. Q.Harutyunov Ermənistanın keçdiyi inkişaf yolundan, qazandığı sosial, iqtisadi, mədəni nailiyyətlərdən danışır, Türkiyəyə qarşı ərazi tələbləri də irəli sürməkdən çəkinmir. O, bildirirdi ki, guya Ermənistanın köməksiz olduğu bir şəraitdə Türk qoşunları erməni ərazisinin əsas hissəsi olan Qarsı, Ərdahanı, Sarıqamışı, Kağız-

manı və s. başqa ərazilərini işğal etmişlər. Ermənistan rəhbəri həmin torpaqların dərhal geri qaytarılmasını tələb edirdi [71a, №281, 1945].

Respublikanın rəsmi qəzetləri isə Sovet Ermənistanının 25 illiyi yubileyi ilə bağlı xaricdəki ermənilərin, komitə və təşkilat ların təbrik məktublarına geniş yer ayırmışdı. K(b)P MK-nın orqanı olan rusdilli "Kommunist" qəzeti "Naşi bratya - armyane za rubejom s likovaniem otprazdnovali 25 letie materi-rodinı – Sovetskoy Armenii!" başlığı ilə öz səhifəsində təbriklər və müraciətlər dərc etmişdi. Parisdən ermənilərin milli cəbhəsindən göndərilmiş "Şanlı ildönümünə təbriklər" də deyilirdi: "Vətənin dən ayrı düşmüş və hazırda Parisdə yaşayan biz ermənilər erməni milli cəbhəsinin çağırışına cavab verərək, bu gün Sovet Ermənistanının 25 illik yubileyini təntənə ilə qeyd etmək üçün toplantıya yığışmışıq.

...Bütün dünya ermənilərinin devizi Sovet Ermənistanından qoparılmış ərazilərin ona birləşdirilməsini, öz doğma və indiyənəcən yad ölkəsinin ağalığı altında əzilən, inləyən öz tarixi vətənlərini görməkdi.Onda vətənlərindən dağılmış ermənilər öz ölkələrinə qayıtmaq imkanı əldə edəcəklər və Sovet Ermənistanının sosializm quruculuğunda iştirak edəcəklər".

SİTA-nın (Sov. İttifaqı Teleqraf Agentliyi) verdiyi digər bir məlumatdan isə məlum olur ki, ABŞ-da erməni əsilli ermənilərin mitinqi keçirilmişdir. 2 dekabrda Nyu-York şəhərində "Erməni Milli Liqası"nın təşəbbüsü ilə iki min beş yüz ermənninin iştirak etdiyi kütləvi mitinq iştirakçıları ABŞ prezidenti Harri Trumenə, Böyük Britaniyanın baş naziri K.Ettliyə, Sovet rəhbəri İ.V.Stalinə müraciət qəbul etmişlər. Müraciətdə deyilirdi: "Qısa dövr olan 25 il ərzində Sovet Ermənistanı və ermənilər respublikanın yüksək inkişafına nail olmuşlar. Lakin bütün bunlarla birlikdə qeyd edirik ki, "erməni məsələsi" hələ də həll olunmamışdır. Bununla belə mitinq iştirakçıları ümid edirlər ki, erməni məsələsi müsbət həll olunacaq, dövlət rəhbərlərinin müdrikliyi nəticəsində Türkiyədəki erməni vilayətləri azad ediləcək, ermə-

nilər vətənlərinə qayıdacaqlar" [75, №275, 1945].

Xarici ölkələrdə təşkil edilən ermənilərin çoxsaylı mitinqlərinin təşkilində xüsusi xidmət orqanları başlıca rol oynayırdılar. Belə olmasaydı, bu mitinqlərdə sovet rəsmiləri, xaricdəki sovet səfirliklərinin təmsilçiləri iştirak etməzdilər. Belə faktlar kifayət qədərdir. Parisdə keçirilən mitinqdə SSRİ-nin Fransadakı səfiri Boqolomov, Nyu-Yorkda keçirilən mitinqdə isə sovet konsulunun vəzifəsini icra edən Mixaylov və başqaları iştirak etmişlər.

Xaricdə yaşayan ermənilərin Sovet Ermənistanına qayıdışı ərəfəsində ermənilər yaşayan bir sıra xarici ölkələrdə Sovet Ermənistanının 25 illiyinə həsr olunmuş böyük fotosərgi keçirilmişdi. Sərginin keçirilməsindən məqsəd Sovet Ermənistanının qazandığı sosial-iqtisadi, mədəni uğurları təbliğ etmək və bununla da Sovet Ermənistanına gəlmək istəyən erməniləri şirnikləndirmək idi. Sərgi daha çox ermənilərin kasıb halda yaşadıqları Fələstində, Kiprdə və s. ölkələrdə nümayiş etdirilirdi. Sərgidə Sovet İttifaqı tərəfindən təbliğat məqsədilə Sovet Ermənistanının ictimai, siyasi, iqtisadi, mədəni həyatından bəhs edən mətbuat, məktəb dərslikləri, kinofilmlər köçürüləcək ermənilər arasında əyani təbliğat vasitəsinə çevrilmişdi. Bu materiallarda Sovet Ermənistanının qazandığı iqtisadi və mədəni nailiyyətlərlə yanaşı, repatriant ermənilərin köçürülmə vaxtı və yerləşdirilməsinin hazırlığı barədə məlumatlar verilirdi. Repatriasiya ərəfəsində cəmiyyətin orqanı olan "Sovetakan Hayastan" (Sovet Ermənistanı) mətbu orqanının xüsusi rolu olmuşdur. 1945-ci ildən nəşrə başlayan bu jurnal dünyanın 30-dan çox ermənilər yaşayan ölkələrə göndərilmişdi [90, s.132].

Repatriasiya ərəfəsində Erməni Milli Şurası ərazi tələbləri ilə bağlı fəaliyyətini daha da gücləndirmişdi. Misirin İsgəndəriyyə şəhərində yaşayan ermənilər erməni milli şurasını yaratmış və özlərinə "Ermənistan-ermənilər üçündür" şüarını seçmişlər. Şuranın qəbul etdiyi manifestdə deyilirdi: "Biz erməni məsələsinin müdafiəsini sözsüz olaraq, Sovet Ermənistanı hökumətinə və İ.V.Stalinə etibar edərək aşağıdakı qərarları qəbul etmişdir.

Birincisi, erməni xalqının tarixi haqlarını nəzərə alaraq və BMT-nin dəfələrlə elan etdiyi azadlıq və humanizm prinsiplərinə əsaslanaraq Türkiyə tərəfindən zorla Sevr müqaviləsinin əksinə olaraq işğal olunmuş erməni vilayətləri Sovet Ermənistanına birləşdirilsin; ikincisi, xaricdə yaşayan ermənilərin Sovet Ermənistanına qaytarılmasına kömək və yardım edilsin [75, №3, 1946].

Misirdəki erməni Milli Şurası tərəfindən BMT-nin Baş katibinə ünvanlanmış müraciətdə isə deyilirdi: "Cənab sədr! Misirin erməni Milli Şurası BMT-nin baş assambleyasının qarşısında duran məsələlərin tarixi əhəmiyyətini, demokratik nümayəndələrin ədalətçilik ruhunu nəzərə alaraq, sizin diqqətinizi Sovet Ermənistanının türklər tərəfindən işğal olunmuş erməni ərazilərinin qaytarılması məsələsinə cəlb edirik". Misir Erməni Milli Şurası "erməni məsələsi"nin tez və ədalətli həllini ABŞ-da EMŞ-nın 1945-ci ildə San-Fransisko konfransına təqdim etdiyi memorandum əsasında həllini istəyir və milli maraqlarının müdafiəsini Sovet Ermənistanına etibar edirdi.

Livanın EMŞ-nın sədri Manvelyanın Suriya və Livanda yaşayan 200 min erməni adından BMT Baş Assambleyası sədrinə vurduğu teleqramda Türkiyədəki "erməni torpaqları"nın Sovet Ermənistanına qaytarılması tələb edilir və belə bir ümid ifadə olunurdu ki, BMT, erməni-türk konfliktini ədalətlə həll edəcək [75, №25, 1946].

Xarici ermənilərin Sovet Ermənistanına köçürülüb gətirilməsi kompaniyasında Ermənistan hökumətinin nümayəndələri də hədsiz fəallıq göstərirdilər. Ermənistan hökumətinin xüsusi nümayəndəsi Nazaryan bu məqsədlə Beyrutda, Dəməşqdə olmuş, onları vətənə qayıtmalarına çağırmışdır. Nazaryanın ermənilər arasında apardığı təbliğatdan sonra ermənilərin əksəriyyəti Sovet Ermənistanına qayıtmaq arzusunu bildirmişlər [85].

Apardığımız tədqiqat göstərir ki, xarici ölkələrdə fəaliyyət göstərən "Hnçak" (Zəng), "Ramkavar" kimi millətçi-şovinist partiyaların Sovet İttifaqı ilə, onun xüsusi xidmət orqanları ilə sıx əlaqələri var idi. Bir şey təəssüfedicidir ki, ifrat millətçi erməni partiyaları Sovet tarix ədəbiyyatlarında mütərəqqi partiyalar ki-

mi qələmə verilirdi. Xarici ermənilərin Ermənistana repatriasiyasında və Sovet hökumətinin Türkiyə siyasətində bu partiyalar xüsusi rol oynayırdılar.

1887-ci ildə Cenevrə şəhərində Cenevrə Universitetində təhsil alan qafqazlı ermənilər tərəfindən yaradılmış "Hnçak" partiyası Rusiyada fəaliyyət göstərən xalqçı qrupların təsiri altında meydana çıxmışdır. Onların əsas məqsədi silahlı üsyana və Avropa diplomatiyasının köməyi ilə "Qərbi Ermənistanı" (Şərqi Anadolu nəzərdə tutulur) azad etmək idi. Bu partiya vaxtı ilə Türkiyə ərazisində yaratmış olduğu gizli təşkilatlar vasitəsilə üsyanlar təşkil edərək dinc türk əhalisinə divan tutmuşlar [44, s.79-80].

Özünün xırda burjua-millətçi xarakterinə baxmayaraq bu partiya birinci olaraq Ermənistanda qurulan Sovet hökumətini tanımış və xarici ölkələrdəki erməni icmalarında ermənilərin Sovet İttifaqı və Sovet Ermənistanı ətrafında birləşməsinə çalışır, yeni Ermənistan qurulmasına kömək edirdi.

Sovet hökumətinin ilk illərindən başlayaraq "Hnçak"çılar xaricdə yaşayan ermənilərin Ermənistana kütləvi repatriasiyasını təşkil etmiş, onların vətənə qayıtması üçün çox iş görmüşdü. 1924, 1926, 1932 və 1936-cı illərdə Fransadan, Yunanıstandan və s. başqa ölkələrdən 75 min erməninin Ermənistana qayıtmasında böyük rol oynamışdı [83, s.103].

"Hnçak"çıların qəzeti "Eritasard Hayastan" (Gənc Ermənistan) yazırdı: "Biz deyirik və həmişə deyəcəyik. Erməni xalqı özünün coğrafi vəziyyətinə, siyasi şərtlərinə, özünün milli maraqlarına tamamilə uyğun gələn yolunu tapmışdır. O, həmişə rus xalqı ilə yanaşı dayanıb və dayanacaqdır. Erməni xalqı özünün şəxsi təcrübəsində ağır sınaqlardan keçərək bu siyasətin doğruluğuna inanmışdır [83, s.249].

"Ramkavar" (Azadlıq) partiyası isə 1885-ci ildə Fransanın Marsel şəhərində M.Portuqalyan tərəfindən qurulmuş "Armenakan"partiyasının bazasında yaradılmışdır. Armenakanlar "Qərbi Ermənistanı" türk ərazisindən qoparmaq uğrunda mübarizə adı altında Türkiyədə münaqişələr törətmişdir [74, s.21-22]. Sonralar yenidən təşkil edilən bu partiya "Ramkavar" adlandırıldı.

A.Myasnikyan "Partiya xarici erməni icmalarında" adlı tədqiqat əsərində "Ramkavar"ları xarici ölkələrdə erməni kapitalının təmsilçisi olduğunu qeyd edir və göstərir ki, öz ətrafında orta və iri ticarətçiləri birləşdirən "Ramkavar" partiyası Türkiyə ermənilərinin hüquqlarının bərpası uğrunda mübarizə aparır, Türkiyədə olan "erməni torpaqlarının" qaytarılmasına çalışırdılar" [83, s.294-295].

Ermənistanda sovet hakimiyyəti qurulması faktını qiymətləndirən"Ramkavar"lar bunu yeganə və alternativsiz,erməni xalqının və onun dövlətçiliyinin dirçəlişi, onun qorunub saxlanılmasının ictimai-siyasi təminatı kimi qəbul edərək SSRİ-ni və Sovet Ermənistanını tanımışlar, diaspora ilə SSRİ-nin, eləcə də Ermənistan SSR ilə əlaqələrini qura bilmişdilər [83, s.12].

"Ramkavar"lara görə "Ermənistan onlar üçün elə bir güc-dür ki, onun köməyi ilə bütün erməni xalqı böyük dövlətlərə və bütün mədəni dünyaya öz tələblərini (hay tahdı - "erməni məhkəməsi") elan edə biləcək" [83, s.294-295]. Bu partiya Ermənistanda sovet hakimiyyəti qurulduqdan dərhal sonra ona hərtərəfli kömək göstərmiş, onların yaxından köməyi ilə 1924-1936-cı illərdə minlərlə repatriant Ermənistan SSR-yə gəlmişdir [83, s.103].

"Ramkavar"partiyası burjua-millətçi ideologiyası baxımından kommunizmi qəbul etməsələr də, ümumerməni məsələsi naminə Sovet hökuməti ilə əməkdaşlıq xətti yeridirdi.

İstər "Hnçak", istərsə də, "Ramkavar" partiyaları repatriasiyanı alqışlayır və bu tədbirdə fəal iştirak edirdilər. Bəs"Daşnakstyun" partiyasının pepatriasiyaya münasibəti necə idi? Yeri gəlmişkən onu qeyd edim ki, "Ramkavar", "Hnçak" partiyalarını "Daşnakstyun"dan fərqləndirən ideoloji fərq deyil, ümumerməni məsələsində tutduqları taktiki fərqlər ayırır.

Repatriasiya haqqında 1945-ci ilin noyabrın 21-də SSRİ XKS-nin məlum qərarı xaricdə fəaliyyət göstərən bir çox erməni partiya və komitələrinə məlum olsa da və onların bu qərara münasibəti, mövqeyi açıqlansa da, "Daşnakstyun" partiyası hadisə və prosesləri diqqətlə izləyir və gözləmə mövqeyi tutmuşdu. Doğrudur, onların öz münasibətlərini qəti olaraq bildirməməsi

onların Qərbpərəst siyasətləri ilə bağlı olsa da, daşnaklar Sovet İttifaqının "erməni məsələsi"nin həlli ilə bağlı apardığı siyasətin nə ilə bitəcəyini aydınlaşdırmaq istəyirdilər.Daşnak lideri S.Varasyanın Eçmiəzzin katalikosu VI Gevorqdan bu soru ilə arayış tələb etməsi də, təsadüfi deyildi və daşnakların mövqeyini əks etdirir. O, sual edirdi: "... Sizdə nikbinlik və özünə inam hardandır ki, Sovet hökuməti ermənilərin ən sadiq, etibarlı dostudur və ancaq o bizim "ədalətli məhkəməmizi" həll edə bilər? Əlinizdə doğrudan da belə bir əsas var ki, Sovet hökuməti doğrudanmı ermənilərə rəğbət bəsləyir və "erməni məsələsi"ni onların xeyrinə həll etmək istəyir? Əgər sizin əlinizdə belə bir fakt varsa deyin..." [6, v.58-59].

Daşnak partiyasının tarixinə nəzər salsaq görərik ki, 1892-ci ildə yaranmış bu partiya proqram sənədindən göründüyü kimi iğtişaşlar və terror törətməklə "ermənilərin mənafeyini" qorumaq adı altında antitürk siyasətini yeritmiş, ermənilər arasında türklərə qarşı intiqam hissini daima qızışdırmışlar.

1918-1920-ci illərdə, Ararat Respublikası dövründə daşnaklar İrəvan ərazisində on minlərlə Azərbaycan türkünü soyqırıma məruz qoymuş, yüz minlərlə azərbaycanlı tarixi torpaqlarından didərgin salınmışdı. [8, s.104].

SSRİ Ali Sovetinin Rəyasət Heyəti 19 oktyabr 1946-cı ildə "Vətənə - Sovet Ermənistanına qayıdan erməni millətindən olan şəxslərə SSRİ vətəndaşlığı verilməsi qaydaları haqqında"kı qərarı ilə ermənilərin köçürülüb gətirilməsini qanuniləşdirdi. Qərarda göstərilirdi: "SSRİ XKS-nin 21 noyabr 1945-ci il "Xarici ermənilərin Sovet Ermənistanına qayıtmaları tədbirləri haqqında" qərarına uyğun olaraq xaricdən vətənə - Sovet Ermənistanına qayıdan erməni millətindən olan şəxslərin qayıtmaları qanuniləşdirilsin, SSRİ-yə daxil olduqları ilk gündən etibarən SSRİ-nin vətəndaşı kimi tanınsınlar" [54, №39, 1946].

1947-ci ilin aprel may aylarında ABŞ-ın Nyu-York şəhərində ümumdünya ermənilərinin konqresi öz işinə başladı. Bu konqres 40-cı illərin II yarısında erməni məsələsi gündəliyə gəl-

dikdən sonra xaricdə yaşayan ermənilərin təşkil etdiyi ən böyük tədbir idi. Onun işində dünyanın 22 ölkəsindən 715 nümayəndə iştirak edirdi. "Soyuq müharibə" illərində keçirilən bu konqresdə istər Sovet İttifaqı tərəfdən, istərsə də, qərb dövlətlərindən gəlmiş çoxlu erməni diasporunun nümayəndələri və kilsə xadimləri iştirak edirdilər [49, s.6]. Konqres nümayəndələri ABŞ dövlət katibinin müavini D. Acheson ilə görüşdə ona təqdim etdikləri məktubda xahiş edirdilər ki, ermənilər tərəfindən Türkiyəyə qarşı sürülən ərazi tələbləri dövlət departamenti tərəfindən müdafiə edilsin. [49, s.6].

"Daşnakstyun" partiyasının 1947-ci ilin oktyabr-noyabr aylarında Qahirədə keçirdikləri XIV konqresi də Türkiyəyə, SSRİ və böyük dövlətlərə münasibət, "kürd məsələsinə" və "erməni məsələsinə" yanaşması ermənilərin Ermənistana repatriasiyası haqqında məsələlər müzakirə edildi. Konqresdə "Daşnakstyun"partiyasının Amerika Birləşmiş Ştatlarında, Fransada, Yunanıstanda, Misirdə, İranda, Suriyada, Livanda, İraqda, Balkan ölkələrində, eləcə də başqa ölkələrdə fəaliyyət göstərən əsas mərkəzlərinin nümayəndələri iştirak edirdilər [6, v.32-36].

Tədqiqatımızın mövzusu ilə bilavasitə bağlı olduğundan bizim üçün ən böyük marağı direktiv sənədin "repatriasiya" bölməsi doğurur sənəddə "Daşnakstyun" partiyasının xarici ermənilərin Sovet Ermənistanına repatriasiyası məsələsinə münasibəti açıqlanır.Bu məsələ ilə bağlı konqresdə dinlənilən məruzələrdən irəli gələrək daşnakların gəldiyi nəticələr bunlardan ibarət idi: Birincisi, "Daşnakstyun" partiyası repatriasiya məsələsinə mühüm və müsbət iş kimi baxır; ikincisi, qeyd edir ki, repatriasiya erməni məsələsinin başqa tərəflərinin həllində uğurlu addımdır; üçüncüsü, kütləvi repatriasiya erməni torpaqlarının azad olunması və Ermənistanın sərhədlərinin genişləndirilməsi ilə bağlıdır" [6, v.22].

Göründüyü kimi Sovet hökumətinin "erməni məsələsi"nin həlli ilə bağlı ermənilərə verdiyi vədlər bu sənəddə öz əksini tapmışdır. Lakin bununla belə, "Daşnakstyun" partiyası repat-

riasiyaya qarşı çıxır və buna qarşı əks-təbliğat aparırdı. Bütün bunlar əlbəttə ki, səbəbsiz deyildi. Bununla bağlı sənəddə göstərilirdi: "Son iki ilin hadisələri göstərir ki, repatriasiya bir tərəfdən daşnaklara qarşı mübarizə, digər tərəfdən isə güclü erməni icmalarının dağıdılması məqsədini güdür". Daşnaklara görə SSRİ-də elə erməni icmaları var ki, repatriasiya ermənilərin birləşdirilməsi planının bir hissəsini təmin etməli idi. Lakin bu kütlələrə bilərəkdən etinasızlıq göstərilir. Repatriasiya dağınıq və təminatsız icmalarda keçirilmək əvəzinə, həm maddi, həm də mədəni cəhətdən güclü icmalarda aparılaraq onları məhv etmək məqsədini güdür" [6, v.22-24].

SSRİ-nin xüsusi xidmət orqanları repatriasiyanı həyata keçirərkən Sovet İttifaqına düşmən münasibətdə olan "Daşnakstyun" partiyasının mövqelərinin güclü olduğu icmalarda aparırdı. Bu da onunla bağlı idi ki, "soyuq müharibə" illərində bu partiya MKİ (ABŞ Mərkəzi Kəşfiyyat İdarəsi) ilə əməkdaşlıq edir, qərbyönümlü və antisovet xətti yeridirdilər [32, s.150]. Sovet hökuməti repatriasiyasını daşnakların da qeyd etdiyi kimi, "təminatlı icmalarda" aparması, həm də daşnakları siyasi cəhətdən neytrallaşdırmaq məqsədini güdürdü.

"Daşnakstyun" partiyasının repatriasiyaya qarşı apardığı əks-təbliğatın ən əsas səbəbi tamamilə başqa idi. Direktiv sənədin "Böyük dövlətlərə münasibətdə bizim mövqeyimiz" adlanan bölməsində "Daşnakstyun" partiyasının əsil mövqeyi açıq-aydın görünür. Həmin bölmədə daşnaklar tərəfindən Sovet İttifaqı və onun rəhbərləri kəskin ittiham edilir, erməniləri aldatması xüsusi olaraq vurğulanırdı. Daşnaklara görə Sovet hökuməti gənc daşnak hökumətini beşiyindəcə boğmuşdur; ikincisi, SSRİ erməni torpaqlarının birləşdirilməsi üçün bircə addım belə atmadı. Daşnaklar bunu nəzərdə tutur ki, Sovet İttifaqı Türkiyənin şərq vilayətlərinin, "Qərbi Ermənistan"ın Ermənistana birləşdirilməsinə nail olmamışdır. Sovet hökumətinin "Ermənistanın Zaqafqaziya daxilindəki sərhədlərinin birləşdirmək istəməməsi" fikrinə gəlincə isə daşnaklar Azərbaycanın Dağlıq Qarabağ, Naxçıvan vila-

yətlərini və Gürcüstandan Axalkələk torpaqlarını nəzərdə tuturdular [6, v.71].

Bütün bunlar Sovet hökumətinin ikinci dünya müharibəsi illərində Türkiyə əleyhinə siyasətdə "erməni məsələsi"nin həlli ilə bağlı onlara verdikləri vəddən irəli gəlirdi.

Xarici ermənilərin Ermənistana repatriasiyası ətrafında başlanan qızğın mübahisələr partiyalararası ehtirasları coşdurdu və bu məsələ ilə bağlı ziddiyyətli möqveləri üzə çıxartdı. Bu məsələ ilə bağlı partiyalararası mübahisələr o qədər qızışmışdı ki, bəzi yerlərdə ermənilərin bir-biri ilə silahlı münaqişəsi baş verdi. "Daşnakstyun" partiyası özünün ənənəvi mübarizə metodu olan terrordan istifadə etməkdən belə çəkinmirdi. Daşnaklar siyasi mövqelərinin güclü olduğu Livanda terror törətdilər. Xarici ermənilərin Sovet Ermənistanına qayıtması ilə əlaqədar Livanın paytaxtı Beyrutda çağırılmış mitinqlərdən birində kommunist Poqos Nadiryan daşnak terrorçusunun gülləsi ilə qətlə yetirildi [22, s.113-114].

Bir faktı da qeyd edək ki, xarici ermənilərin Sovet Ermənistanına repatriasiyası üçün erməni partiya və təşkilatları onların köçürülüb gətirilməsinin maliyyə xərclərini öz üzərlərinə götürmüşdülər. Onlar bu işdə daha çox maliyyə vəsaiti ayırır, daha şox pul xərcləyirdilər. Xarici ermənilərin Ermənistana qayıdışı üçün Ümumerməni Xeyriyyə Təşkilatı bir milyon dollardan artıq pul xərcləmişdi [70, s.364].

Sovet İttifaqının, onun xüsusi xidmət orqanlarının və xaricdə fəaliyyət göstərən müxtəlif erməni təşkilatlarının yaxından köməyi və apardıqları təbliğat vasitəsi ilə xarici ölkələrdə yaşayan ermənilərin az qismini inandıra bilmiş və bunun nəticəsində 1947-ci ilə qədər 85.787 nəfər Ermənistan SSR-ə köçürülüb gətirilmişdir [71, № 29, 1946]. Erməni mənbələrində isə onların sayı 100 min göstərilir [70,s.364]. Ermənistan SSR NS-nin sədri S.K.Karapetyan Sovet Ermənistanının 27-ci ildönümü münasibətilə keçirilən yığıncaqda bildirirdi ki, 1947-ci ilin yayına qədər Ermənistana 80 min xarici erməni qayıtmışdır [73, №279, 1947].

Köçürülüb gətirilən ermənilər əsasən ABŞ, Fransa, Bolqarıstan, Rumıniya, Suriya, Livan, Misir və İranda yaşamış ermənilər idi.

Xarici ölkələrdən köçürülüb gətirilən ermənilərin əsas kütləsini daşnak meylli elementlər təşkil edirdi. Onlar üzdə sovet hakimiyyətinə loyal olduqlarını bildirsələr də, əslində vətənə, orada "erməni məsələsi" naminə qayıdırdılar [37, s.58].

Azərbaycan SSR DTK sədri (KQB) general-mayor Yemelyanovun 24 avqust 1946-cı ildə tam məxfi qrifli "Dağlıq Qarabağ Muxtar Vilayətinin bir qrup erməni ziyalıları arasındakı mənfi əhvalatlar haqqında"kı arayışda xaricdən gəlmiş erməni-repatriantların antisovet meylli olması faktını təsdiqləyir. DTK-nın sədri belə bir qənaətdədir ki, yerli ermənilərin Sovet hökumətinin ictimai-iqtisadi quruluşlarına olan müxalif baxışları xaricdən gələn ermənilərin antisovet baxışları ilə əlaqədardır [26, s.13]. Bu faktın özü xarici erməni-repatriantların ölkəyə gəlişinin əsl məqsədləri barədə fikir yürütməyə imkan verir.

Ermənistan SSR DTK-nın 2-ci şöbəsinin rəisi mayor Krxambarov, Azərbaycan SSR DTK-nın sədrinə və eyni zamanda Azərbaycan SSR DQMV TK rəisi mayor T.Sevumova göndərdiyi məlumatda bildirirdi: "Təhqiqat nəticəsində aydın olmuşdur ki, vaxtı ilə "Daşnakstyun" partiyasının üzvü olmuş, 1913-cü ildə Amerika Birləşmiş Ştatlarına gedib, böyük fermerlərindən birinə çevrilən Suvaryan Zaxar Emieviç Rusiya elektroxod gəmisində "Panik" adlı agentlə söhbətində demişdir. "Mən Qarabağlıyam və Qarabağa gedirəm. Mən gəlmişəm ki, "Böyük Ermənistan" yarana". Məlumatda daha sonra Suvaryanın əməlləri barədə məlumat verilir və bildirilir ki, o, yolda olarkən repatriant - erməni ailələri arasında təbliğat aparmış və bununla kifayətlənməyərək Ermənistanın müxtəlif rayonlarını gəzərək, orada antisovet və millətçi ideyaları təbliğ etmişdir. Bundan sonra o, Qarabağa getmişdir". DQMV Təhlükəsizlik Komitəsi sədrinə həmin şəxsin nəzarətə götürülməsinin vacibliyi göstərilirdi" [2, iş 78, v.22]. Ermənilər özləri də təsdiq edir ki, "Erməni-repatriantların çox hissəsi casusluq fəaliyyətində ittiham olunaraq sonradan Sibirə sürgün edilmişlər [60, №9, 1993].

1947-ci ildə xarici ermənilərin Ermənistana repatriasiyasının sürəti xeyli azalmışdı. 1946-cı ildə bu rəqəm 51.238 nəfər təşkil edirdisə, 1946-cı illə müqayisədə 1947-ci ildə Ermənistan SSR-ə 34.549 nəfər erməni - repatriant gəlmişdi [98, s.115]. 1947-ci ilin ortalarından başlayaraq xarici ermənilərin köçürülüb gətirilməsi planı azaldılmış, 1949-cu ildə isə Ermənistan KP MK-nin qərarı ilə bu köçürülmə prosesi tamam dayandırılmışdı.

Azalmanın bir səbəbi "Daşnakstyun" partiyasının xaricdə yaşayan və Sovet Ermənistanına gəlmək istəyən ermənilər arasında apardığı əks təbliğat idisə, digər səbəbi ölkəyə gəlmiş erməni-repatriantların bir qisminin əvvəlki yaşadığı ölkələrə qayıtması və öz soydaşları arasında sovet həyat tərzinin acı gerçəkliyini açıqlamaları idi.

Sovet hökuməti tərəfindən "erməni məsələsi"nin həlli ilə bağlı ermənilərə vermiş olduğu vədin yerinə yetirilməməsi də erməni-repatriantların Sovet İttifaqına, Ermənistana gəlişinə mane olan ən əsas amillərdən biri idi.

İkinci dünya müharibəsindən sonrakı illərdə ölkədə reemiqrasiya prosesi geniş vüsət almışdı. Vaxtı ilə ölkə ərazisini tərk etmiş on minlərlə keçmiş ölkə vətəndaşları yenidən öz vətənlərinə dönürdülər. Repatriasiya işləri üzrə Mərkəzi İdarənin 1953-cü il yanvarın 1-nə qədər olan məlumatına görə 5.457.876 nəfər sovet vətəndaşı, 4.059.736 nəfər xarici ölkə vətəndaşları qayıtmışdılar [61, s.456].

SSRİ-nin Türkiyəyə qarşı ərazi tələblərindən əl çəkmədiyi bir vaxtda xaricdə daşnaklar tərəfindən Sovetlər əleyhinə başlanan təbliğat bütövlükdə reemiqrasiya prosesinə təsir edir, Sovet hökumətinin dünyada süni surətdə yaratmış olduğu "ədalətli dövlət" imicinə zərər vurmaqla yanaşı ermənilər arasında "erməni məsələsi"nin həllinə ümidi zeyli azaldırdı. VI Gevorqun dünya ermənilərinə müraciətlə yazmış olduğu "...ermənilərin bütün milli arzularının yerinə yetirilməsi mümkünsüzdür" fikrinə münasibət bildirən S.Varasyan ona cavabında bildirirdi: "bununla da siz ermənilərdə məyusluq və ümidsizlik acısı yaradırsınız..." [6, v.58].

İ.V.Stalinlə Gevorq Çerokçyan arasında olan razılaşmaya görə xarici ölkələrdən köçürülüb gətirilən ermənilərin növbəti axını da gəlməli və onlar Türkiyədən alınıb Ermənistan SSR-ə birləşdiriləcək torpaqlarda yerləşdirilməli idilər. "İtirilmiş torpaqlar"ın geri alınması məsələsinin həlli isə gündən-günə uzanır, rəsmi Moskva üçün həlli çətin bir problemə çevrilmişdi. Ermənilər isə hələ də "erməni məsələsi"nin həll ediləcəyinə ümid edir, onun həllini gözləməkdə idilər...

Türkiyəyə qarşı Sovet ərazi tələblərinin boşa çıxması, Dağlıq Qarabağın Ermənistana birləşdirilməsinin qeyri-mümkünlüyü ilə üzləşən İ.V.Stalin belə bir şəraitdə tələm-tələsik olaraq Azərbaycan türklərinin Ermənistandan köçürülməsi haqqında qərar qəbul etdi. Bu tələm-tələsiklik SSRİ Nazirlər Sovetinin "Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürülməsi haqqında"kı 1947-ci il 23 dekabr tarixli qərarından da görünür. Qərar preambulasız, izahatsız qəbul edilmişdi [6, v.13-14].

SSRİ Nazirlər Sovetinin 23 dekabr tarixli qərarının 11-ci maddəsində də rəsmi Moskvanın, eləcədə erməni lobbisinin və millətçi dairələrinin məkrli niyyətlərini də duymamaq mümkün deyil. Qərarda azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar onların boşaltdıqları tikililərin və yaşayış evlərininin xaricdən Ermənistan SSR-ə gələn erməniləri yerləşdirmək üçün onların isifadəsinə verilməsi qeyd olunur, bununla bağlı Ermənistan SSR Nazirlər Sovetinə xüsusi göstəriş verilirdi [6, v.13-14].

Sovet hökuməti Azərbaycan türklərini tarixi-etnik torpaqlarından deportasiya etməklə, ikinci dünya müharibəsi illərində ermənilərə SSRİ-nin Türkiyə siyasətində ermənilərdən siyasi alət kimi istifadə müqabilində vermiş olduğu vədi qismən yerinə yetirdi.SSRİ Nazirlər Sovetinin "Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürülməsi haqqında"kı 1947-ci il 23 dekabr tarixli qərarı ermənilərin ənənəvi etnik təmizləmə siyasətinə yenidən rəvac verdi.

Qərarın qəbul edilməsində əsas səbəb kimi M.C.Bağırovun Q.Harutyunovla birgə İ.V.Stalinə yazmış olduqları məktub-müraciət əsas göütürülsə də, bu sahədə apardığımız tədqiqat göstərir ki, Azərbaycan türklərinin tarixi torpaqlarından məcburi köçürülməsi siyasi səbəblərlə bağlı olmuşdur [30, s.105-106].

Bəzi tədqiqatçılarlar bu müraciəti əsas götürərək Azərbaycanın o vaxtkı kommunist rəhbəri M.C.Bağırovu təqsirləndirir, onu Azərbaycan türklərinin tarixi torpaqlarından köçürülməsində günahkar sayırlar. Doğrudanmı köçürülmədə M.C.Bağırov günahkar idi? Arxivdə saxlanılan birgə məktubun üzərində nəinki imza, hətta ayın tarixi belə göstərilməmişdir. Bütün bunlar bizə belə bir fikir yürütməyə imkan verir ki, məktubun mətni İrəvanda hazırlanmış və çox güman ki, sovet rəhbərliyi tərəfindən razılaşdırılmışdır.

M.C.Bağırovun məktuba imza atıb-atmaması məsələsinə gəlincə isə son tədqiqatlar buna aydınlıq gətirir. Azərbaycan K(b)P MK-nın ikinci katibi olmuş M.H.Seyidov öz xatirələrində yazır ki, 1947-ci ilin oktyabrından MK-nın siyasi bürosunun qərarı ilə Azərbaycan K(b)P MK-nın I katibi M.C.Bağırova noyabrın birindən başlayaraq Esentukidə müalicə olunmaq üçün 4.5 aylıq məzuniyyət verildi. M.C.Bağırov bu qərarı elan etdi və bildirdi ki, ÜİK(b)P MK-nın qərarına uyğun olaraq MK-nın I katibi səlahiyyətləri II katibə keçir...Fevralın sonunda M.C. Bağırov məzuniyyətdən qayıtdı və işə başladı [67, s.296]. Tarix elmləri doktoru E.İsmayılov belə hesab edir ki, çox güman ki, bu işə razılıq vermədiyi üçün M.C.Bağırov müvəqqəti olaraq vəzifəsindən kənarlaşdırılmışdı.O, belə fikirdədir ki, birgə məktuba ola bilsin ki, M.H.Seyidov imza atmış olsun [67, s.296-297].

Birgə məktuba kimin imza atması bizim üçün o qədər də önəmli deyil. Nəzərə alsaq ki, geo-politika dövlətin həyati marağıdır və Azərbaycan türklərinin deportasiyası da həmin maraqlara qurban verilmişdir, onda bu barədə düşünməyə dəyər... Azərbaycan rəhbərlərindən kiminsə həmin məktuba imza atmaması İ.V.Stalin üçün həlledici olmaya da bilərdi.

Məktubda bildirilirdi: "...Mingəçevir sisteminin həyata keçirilməsi zamanı suvarılma nəticəsində yeni torpaq sahələrinin meydana gəlməsi və pambıqçılıq rayonlarının mövcud kolxozlarında işçi qüvvəsinin çatışmaması, habelə pambıq məhsuldarlığının yüksəldilməsi vəzifəsi Azərbaycan SSR-nin bu rayonlardakı əhalinin artırılması məsələsini ortaya çıxarır.

Ermənistanda yaşayan azərbaycanlı əhalinin 130 min nəfər miqdarında həmin rayonlara köçürülməsi bu məsələnin real həlli ola bilərdi.

Azərbaycanlı əhalinin Ermənistandan Azərbaycana köçürülməsi xarici ölkələrdən öz vətənlərinə qayıdan ermənilərin qəbul edilməsi və yerləşdirilməsi vəzifəsini xeyli asanlaşdırmış olardı..." [4, v.1-2].

Ermənistanda hazırlanmış məktubun mətnindən göründüyü kimi Ermənistan rəhbərləri Mərkəzi hökumət qarşısında respublikadan 130 min azərbaycanlının köçürülməsi məsələsini qoyurdu. Bu da onunla bağlı idi ki, Ermənistan rəhbərləri respublikaya gəlmək istəyən 130 min xarici erməninin müraciətini Mərkəzi hökumətə təqdim etmişdi. Repatriasiya illərində 80 mindən artıq xarici erməninin ölkəyə gəlməsi ermənilərin 130 min miqdarında azərbaycanlıların köçürülməsi planının reallaşmasına imkan vermədi. Sovet hökuməti 100 min Azərbaycan türkünün köçürülməsinə qərar verdi...

# IV FƏSİL

## Azərbaycanlıların deportasiyasının həyata keçirilməsi

Azərbaycan türklərinin tarixi-etnik torpaqlardan məcburi köçürülməsi iddia edildiyi kimi heç də iqtisadi səbəblə deyil, siyasi səbəblərlə bağlı olmuşdur.

SSRİ Nazirlər Sovetinin "Kolxozçuların və başqa azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürülməsi haqqında"kı 1947-ci il 23 dekabr tarixli qərarı ermənilərin aborigen türk əhalisinə qarşı ənənəvi etnik təmizləmə siyasətinə yenidən rəvac verməklə yanaşı onların aqressiv planlarının reallaşmasına yol açmış oldu. Azərbaycan türklərinin köçürülməsi haqqında Mərkəzi hökumətin qəbul etdiyi qərarların siyasi aspektdə şərhi də onu göstərir ki, bu qərarlar türk əhalisinin respublika ərazisindən istədikləri forma və metodlarla çıxarılması üçün erməni rəsmi və şovinist dairələrinə hər cür sərbəstlik verirdi.

Məcburi köçürülmə ilə bağlı arxiv materialları ilə tanışlıq və azərbaycanlıların Ermənistandan deportasiyası prosesinin izlənilməsi də təsdiq edir ki, deportasiya prosesi ermənilərin türk əhalisinə qarşı olan tarixi-etnik düşmənçiliyi zəminində həyata keçirilir, etnik təmizləmə siyasətinin yeni formada davamı idi.

Təxmini hesablamalarımıza görə deportasiya ərəfəsində Ermənistanda 170 mindən artıq Azərbaycan türkü yaşayır, "Əzizbəyov, Vedi, Qarabağlar, Qukasyan, Basarkeçər, Qafan və s. başqa rayonlarda əhalinin böyük əksəriyyətini onlar təşkil edirdilər" [22, s.59]. Azərbaycan türkləri Ermənistan SSR üzrə 24 rayonun 220 koxozunda elliklə, 63 kolxozunda isə qarışıq şəkildə yaşayırdılar. [ 17, s.100]

SSRİ NS-nin "Kolxozçuların və başqa azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-nin Kür-Araz ovalı-

ğına köçürülməsi haqqında" 4083 saylı 23 dekabr 1947-ci il tarixli qərarı əsrlərdən bəri bu torpağın avtoxtan sakinləri olan türk əhalisi üçün qəfil və gözlənilməz olur. Köçürüləcək türk əhalisi bu qərarı kədər və hüzn içərisində qarşılayır və böyük əksəriyyət köçürülmənin səbəbini ermənilərin Azərbaycan türklərinə qarşı olan tarixi-etnik düşmənçilikləri ilə əlaqələndirirdilər [5, v.20-30].

Respublikanın erməni əhalisi isə SSRİ NS-nin məlum qərarını sevinc içərisində qarşılayır, bunu tarixi, təbii hadisə kimi qarşılayırdılar. Ermənistan SSR DİN Xoren Qriqoryanın məlumatına görə azərbaycanlıların köçürülməsi ilə bağlı Yerevan, Leninakan və eləcə də respublikanın başqa şəhər, rayon və kəndlərinin erməni əhalisi tərəfindən də müxtəlif mülahizələr səslənir ki, bunlar da millətçi xarakter daşıyır [5, v.27].

Bunu erməni millətindən olan Yerevan şəhər sakini Yervand Mesropyanın ifadəsindən də görmək olur; o, bildirirdi: "Azərbaycanlıları nəinki Ermənistandan, həmçinin Naxçıvan MSSR-dən çıxarmaq və onu Ermənistana birləşdirmək lazımdır" [5, v.27]. Onun bu fikri fərdi səciyyə daşımasına baxmayaraq, ümumerməni düşüncəsindən irəli gəlir, bütün ermənilərin milli arzularının ifadəsi idi. Əlbəttə ki, bunun da tarixi, siyasi, ideoloji kökləri var idi. XIX əsrin 80-90-cı illərindən başlayaraq "Daşnakstyun" başda olmaqla erməni şovinist partiyaları və təşkilatları "gəlmə türk-tatarların" bu torpaqlardan qovulması və onların qırılması hüququnun təbiiliyi haqqında irqi-nəzəri ideologiyanı praktik formada tətbiqinə nail olmuşdu. "Türkə ölüm" şüarı sosial, siyasi, sinfi mövqeyindən asılı olmayaraq hər bir erməninin milli düşüncə sisteminin bir hissəsi idi [45, s.27 ].

Daşnaksakanlar bununla fəxr edir və qürur duyurdular. Onlar bildirirdilər: "Tərəddüdsüz, filansız bəyan etmək lazımdır ki, bugünkü Sovet Ermənistanında və məhdud Sovet İttifaqındakı hər bir erməni vətəndaşı və sadə erməni adamı erməni inqilabi ittifaqının (Daşnakstyun) düşündüyü kimi düşünür" [6, v.41].

SSRİ NS-nin "Kolxozçuların və başqa azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-nin Kür-Araz ovalı-

ğına köçürülməsi haqqında"kı 23 dekabr 1947-ci il tarixli qərarında 1948-ci ildə 10 min nəfərin, 1949-cu ildə 40 min nəfərin, 1950-ci ildə isə 50 min azərbaycanlının köçürülməsi nəzərdə tutulurdu [4, v.13-14].

1948-ci ilin 10 martında SSRİ Nazirlər Sovetinin sədri İ.V.Stalinin və İşlər İdarəsinin rəisi Çadeyevin imzası ilə "Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar tədbirlər haqqında" 754 saylı ikinci qəranını qəbul edir [4, v.21-25].

1948-ci il 10 mart tarixli qərarında azərbaycanlıların Kür-Araz ovalığına köçürülməsi ilə bağlı konkret tədbirlərdən bəhs olunur və göstərilirdi ki, bu qərar SSRİ Nazirlər Sovetinin 23 dekabr 1947-ci il tarixli qərarına əlavədir [4, v.101]. Qərarda köçürülmə dövrü üçün köçürüləcək bütün işlər Azərbaycan SSR-nin və Ermənistan SSR-nin rəhbərlərinin üzərinə qoyulmuşdu [4, v.22-25]. Qərarda Azərbaycan SSR və Ermənistan SSR Nazirlər Sovetinə tapşırılırdı ki, köçürüləcək əhali arasında köçürmənin şərtləri və köçürülənlərə dövlət tərəfindən güzəştlər haqqında izahat işləri aparılsın. [4, v.101]

Ermənistandan köçürülən azərbaycanlı əhaliyə bir sıra "güzəştlər" nəzərdə tutulur, "Kənd təssərüfatında köçürmə işləri üzrə güzəştlər haqqında "SSRİ Mərkəzi İcraiyyə Komitəsi və SSRİ Xalq Komissarları Sovetinin 1937-ci il 17 noyabr tarixli qərarı Kür-Araz ovalığına köçürülən azərbaycanlı əhaliyə də şamil edilirdi. Maraqlıdır ki, bu qərar məhz 1937-ci ildə Sibir, Qazaxıstan və Uzaq Şərqə köçürülənlərə aid idi. Həmin qərara əsasən Ermənistandan köçürülən azərbaycanlı əhaliyə, hər bir köçkünün köçürmə bileti ilə təmin edilməsi nəzərdə tutulmuş, bu məqsədlə  5000 nüsxə köçürmə billeti hazırlanaraq Ermənistana SSR-ə göndərilmişdi. [1a, v.244-247]

Köçürüləcək əhalinin yerləşdiriləcəyi ərazi Azərbaycanın Kür-Araz ovalığı müəyyən edildiyindən, onların Ermənistan SSR-dən köçürülüb yerləşdirilməsində daha ağır yük Azərbay-

can SSR hökumətinin üzərinə düşürdü. Azərbaycan K(b)P MK SSRİ NS-nın 10 mart 1948-ci il, 754 saylı qərarından irəli gələn vəzifələri həll etmək məqsədilə 1948-ci ilin 19 martında xüsusi qərar qəbul etdi [4 v.19-21]. Azərbaycan SSR Nazirlər Sovetinin sədri T.Quliyevin və Azərbaycan K(b)P MK-nin katibi H.Seyidovun M.C.Bağırova ünvanlanmış məlumatında Azərbaycan SSR Nazirlər Soveti yanında Köçürmə şöbəsinin yenidən təşkil edilməsi məqsədəuyğun hesab edilirdi. [3a, v. 101]

Azərbaycan K(b)P MK 19 mart 1948-ci il tarixli qərarı ilə Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Kür-Araz ovalığına köçürüləcəyi müddətdə köçürülmə ilə bağlı məsələnin yerindəcə tez və və operativ həlli məqsədilə Azərbaycan SSR Nazirlər Sovetinin İrəvan şəhərində xüsusi nümayəndəliyini açmış, həmin vəzifəyə Mürsəl Nəcəf oğlu Məmmədov təyin edilmişdi. [4, v.19-21]

SSRİ rəhbərliyi köçürülmə ilə bağlı həlledici qərarların Azərbaycan SSR hökumətinin üzərinə qoymaqla, özünün tarix qarşısındakı məsuliyyətini "sığortalayır", Azərbaycan rəhbərlərini gələcəkdə bu köçürülməyə görə öz xalqı qarşısında ittiham altında qoymaq məqsədini güdürdü. SSRİ-nin kommunist rəhbərləri bu incə siyasəti ilə əslində deportasiyanın əsl mahiyyətini ört-basdır etmək istəyirdi.

Azərbaycan K(b)P MK-si 13 aprel 1948-ci ildə “Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürülməsi ilə əlaqadar kütləvi təbliğat tədbirləri haqqında” qərar qəbul edir. Bu qərardan irəli gələrək 1948-ci ilin yanvarında Azərbaycan SSR Nazirlər Sovetinin və Azərbaycan K(b)P MK-nin nümayəndələri Ermənistan SSR-ə ezam olundular. Onların qarşısında Ermənistan SSR Nazirlər Soveti ilə birgə köçürülmə ilə əlaqadar tədbirlər planı işləyib hazırlamaq, azərbaycanlı köçkünlər arasında izahat işləri aparmaq vəzifələrinin həlli dururdu. [1a, v.19-20]

Azərbaycanlı əhalinin Ermənistandan köçürülməsi ilə əlaqədar Respublikada köçürmə idarəsi yaradılmışdı. Köçürmə

illərində Ermənistanda Köçürmə İdarəsinə əvvəlcə Respublika Nazirlər Sovetinin sədri Karapetyan rəhbərlik etmiş, sonradan onu bu vəzifədə Aqaronyan, B.Astvaçaturyan və K.Mutafyan əvəz etmişdir [1, v. 283].

Ermənistan SSR-dən Azərbaycan türklərinin deportasiyası prosesi 1948-ci ildən etibarən həyata keçirilməyə başlasa da, 1947-ci ilin dekabrından 1948-ci ilin yanvarına qədər Ermənistan SSR-dən Azərbaycan SSR-ə icazəsiz köçənlərin sayı daha çox idi.Yüzlərlə azərbaycanlı ailəsi Ermənistanda ermənilərlə birgə yaşamağın qeyri mümkünlüyünü bir daha anlayaraq və öz ev-eşiyini məcburən ataraq rəsmi köçürülməni gözləmədən dərhal Azərbaycan SSR-ə köçüb gəlmişdi. Azərbaycan SSR Nazirlər Soveti yanında Köçürmə İdarəsinin rəisi N.A.Brutensin NS-nin sədri T.Quliyeva 15 mart 1948-ci il tarixli arayışında bu barədə geniş bəhs olunur. Onun hökumətə məlumatında Kirovabad (Gəncə) zonasına 200-dən çox azərbaycanlı ailəsinin köçüb gəldiyi və onların Qərb bölgəsində - Samux, Şamxor (Şəmkir) Tovuz, Qazax, Akstafa rayonlarında yerləşmək istədiyi bildirilirdi. [2a, v.8-10].

Ermənistan SSR Nazirlər Sovetinin hazırladığı ilkin köçürmə planından aydın olur ki, respublikanın 53 yaşayış məntəqəsindən 11.244 nəfər əhalidən ibarət olan 2.378 təsərrüfatın köçürülməsi nəzərdə tutulurdu [4, v.3-6]. İlkin plana görə 1948-ci ilin yazında 6.360 nəfər əhalisi olan 1.159 təsərrüfat, payızda isə 4.884 nəfər əhalisi olan 1.119 azərbaycanlı təsərrüfatı köçürülməli idi. Bu rəqəm SSRİ NS-nin 1947-ci il 23 dekabr tarixli qərarında nəzərdə tutulmuş 10 min nəfərdən artıq idi. Göründüyü kimi, Ermənistanın kommunist rəhbərləri ilk günlərdən daha çox azərbaycanlı əhalini köçürmək istəyirdilər.

Ermənilər ilkin olaraq azərbaycanlılarla ermənilərin birgə yaşadıqları qarışıq kəndləri, əsasən də iri azərbaycanlı kəndlərini köçürmək istəyirdilər. Bunlardan biri 245 təsərrüfatı olan (1179 nəfər) Noyomberyan rayonunun Ləmbəli kəndi, o biri isə 238 təsərrüfatı olan (1410 nəfər) Zəngibasar rayonunun Mehmandar

kəndləri idi [4, v.3]. Bu kəndlərin köçürülməsi ilkin köçürmə planında nəzərdə tutulmuşdu.

Köçürülmə tədbirləri respublikanın 22 rayonunu, xüsusən Zəngibasar, Artaşat, Vedi, Qarabağlar, Basarkeçər, Noyomberyan, Mikoyan, Dilican, Kirovakan və s. başqa azərbaycanlılar yaşayan rayonları əhatə edirdi. Erməni millətçiləri ilk növbədə türk əhalini kompakt yaşadığı rayonlardan köçürməyə çalışırdılar [2, v.221-227].

Azərbaycan SSR NS yanında Köçürmə İdarəsinin İrəvandakı nümayəndəsi M.N.Məmmədovun 12 aprel 1948-ci il tarixdə Azərbaycan K(b)P MK-nın birinci katibi M.C.Bağırova və Nazirlər Sovetinin sədri Teymur Quliyevə ünvanladığı ilkin köçürmə planından məlum olur ki, belə bir böyük köçürülmə tədbirləri köçürüləcək azərbaycanlı əhalisi arasında həddən çox suallar doğurmuş, bu məqsədlə Ermənistanın müxtəlif rayon və kəndlərindən azərbaycanlı əhalisinin müxtəlif təbəqələrindən olan şəxslər İrəvana - Azərbaycan SSR NS-nin nümayəndəliyinə üz tutur, bir çox suallara cavab axtarırlar [4, v.3]. Əhalinin digər bir qismi isə bu işin nə ilə bitəcəyini gözləmədən ev axtarmaq üçün Azərbaycan SSR-ə köçmüşdü.

Köçürülmə haqqında SSRİ NS-nin 1947-ci il 23 dekabr və 10 mart 1948-ci il tarixli qərarlarında bir-birinə zidd maddələr öz əksini tapmışdı. Bu da köçürmənin gedişində problem yaradırdı. SSRİ NS-nin 23 dekabr 1947-ci il tarixli qərarının 11 maddəsində azərbaycanlı əhalinin Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar onların boşaltdıqları tikililərdə və yaşayış evlərində xaricdən gələn erməniləri yerləşdirilməsi nəzərdə tutulsa da, SSRİ NS-nin 10 mart 1948-ci il tarixli qərarının IV bəndində Ermənistan SSR NS-yə tapşırılırdı ki, köçkün kolxozçuların, fəhlələrin, xidmətçilərin köçürülməsi ilə bağlı evlərin alqı-satqısına kömək etsinlər.

Göstərilən bu bənd erməni rəhbərlərinə tez bir zamanda azərbaycanlı əhalini köçürmək imkanı verirdi. Ermənistan SSR NS-nin sədri Karapetyan, rayon icraiyyə komitəsi sədrləri müşa-

virəsində azərbaycanlı əhalinin evlərini satmaq üçün onlara kömək etmələri barədə göstərişinə baxmayaraq, kəndlərin rəhbər işçiləri, xüsusilə kolxoz sədrləri onlara kömək etmələri əvəzinə onlara maneçilik törədirdilər. Erməni milliyyətindən olan vəzifəli şəxslər bu işə ciddi maneələr törətməklə onları ev-eşiklərini birdəfəlik Ermənistanda qoyub getməyə təhrik edirdilər. Artaşat (Qəmərli) rayonunun Zovaşen, Barsraşen, Zəngibasar rayonunun Göygümbəz kəndlərinin azərbaycanlı əhalisi evlərini satmaq üçün alıcılarla razılaşsalar da, bu kəndin erməni millətindən olan kolxoz sədrləri bu işdən xəbərdar olan kimi onlara öz evlərini başqa kəndlərin erməni sakinlərinə satmağı qadağan etmişlər [4, v. 4].

SSRİ NS-nin "Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar tədbirlər haqqında" 10 mart 1948-ci il tarixli qərarının III bəndində "Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülən şəxslərin dərhal işdən azad edilməsi Nazirlik, idarə və müəssisə rəhbərlərinə bir vəzifə olaraq tapşırılırdı" [4, v.14]. Erməni idarə və müəssisə rəhbərləri bu göstərişdən istifadə edərək azərbaycanlı kolxozçu, fəhlə və qulluqçuların kütləvi surətdə işdən azad edilməsi prosesinə girişdilər.

Azərbaycan SSR NS-nin İrəvandakı xüsusi nümayəndəsi M.N.Məmmədovun verdiyi məlumat bu faktı təsdiq edir. Belə ki, ona çoxlu azərbaycanlılar müraciət edərək bildirmişlər ki, onları mümkün qədər tez bir müddətdə Azərbaycana köçürsünlər [4, v.4]. Onun məlumatından aydın olur ki, nümayəndəliyə müraciət edənlərin əksəriyyəti işsiz insanlardır. Erməni milliyyətindən olan vəzifəli şəxslər xaricdən Ermənistan SSR-ə gəlmiş erməni-repatriantları yerləşdirmək, onları işlə təmin etmək bəhanəsi ilə azərbaycanlıları kütləvi surətdə işdən azad etmişlər [4, v.3-6]. İş yerini itirmiş və çarəsiz qalan azərbaycanlılar köçməyi daha üstün tutmuşlar.

Bununla bağlı professor B.Nəcəfov haqlı olaraq yazır: "Əgər işçini məcburi qaydada, özü də hətta idarə müdiriyyətinin təşəbbüsü ilə deyil, SSRİ NS-nin qərarı ilə işdən azad etdikləri bir halda, hansı könüllülükdən söhbət gedə bilərdi" [37, s.85].

Xarici ölkələrdən Ermənistana gəlmiş erməni-repatriantların əksəriyyəti "Hnçak","Ramkavar","Daşnakstyun" kimi şovinist-millətçi partiyaların üzvləri idi. Onların buraya gəlməkdə əsas məqsədi "erməni məsələsi" naminə iş görmək idi. Onların arasında sovet təbliğatına inandırılaraq, yüksək vədlərlə buraya gətirilmişdilər. Erməni-repatriantlar yerli erməniləri qızışdırır, onları azərbaycanlılarla sərt rəftar etməyə məcbur edirdilər. Ermənilərin təzyiqləri gücləndiyinə və yerli hakimiyyət orqanlarından əsaslı tədbirlər görülmədiyinə görə köçmək istəməyən azərbaycanlılar da köçmək qərarına gəlirdilər [25, s.261].

Erməni millətindən olan yerli, partiya, sovet rəhbərləri Azərbaycan türklərinin deportasiyasını sürətləndirmək məqsədilə onların pasport seriya və nömrələrini götürərək, onların adından mərkəzi hökumətə, eləcə də Azərbaycan hökumətinə məktubla müraciət edir və göstərirdilər ki, biz azərbaycanlıları öz vətənimizə köçürəsiniz [25, s.262].

Azərbaycanlıların Ermənistandan köçürülməsi üçün nəzərdə tutulmuş cari plana İrəvan şəhərinin müxtəlif kateqoriyalarından olan azərbaycanlı sakinləri də salınmışdı. 230 nəfərlik şəhər sakinlərinin Kür-Araz ovalığı ilə heç bir əlaqəsi olmadığını, onların oraya göndərilməsinin yolverilməz olduğunu başa düşən M.N.Məmmədov, M.C.Bağırovdan xahiş edir ki, bu sakinlərin heç olmasa Bakı şəhərinə yaxın olan Abşeron rayonunda yerləşdirilməsinə köməklik göstərsin [4, v.5-6].

Azərbaycanın kommunist rəhbərləri də azərbaycanlı idilər və soydaşlarının üzləşdiyi bu acı tale onları da düşündürməyə bilməzdi. Onların arasında sərt rejim şəraitində belə dolayısı və yaxud birbaşa öz sözünü deyənlər tapılırdı. Azərbaycan SSR NS-nin sədri Teymur Quliyev milli mənafedən irəli gələrək SSRİ NS sədrinin müavini V.Molotova ünvanladığı məktubunda

göstərirdi ki, köçürülən əhalinin əksər hissəsi Ermənistanın dağ rayonlarında yaşadığı üçün Kür-Araz ovalığının iqlim şəraitinə alışa bilmir. T.Quliyev Mərkəzi hökumətdən onların bir hissəsinin dağlıq və dağətəyi rayonlarda yerləşdirilməsinə icazə verilməsi, onların şimal-qərb zonasında, Şəki, Qax, Balakən, Zaqatala rayonlarında yerləşdirməyi xahiş edir. [4, v.376-378].

Məlumdur ki, SSRİ NS-nin "Kolxozçuların və başqa azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürülməsi haqqında" 23 dekabr 1947-ci il tarixli qərarında azərbaycanlıların Ermənistandan köçürülməsi "könüllülük" prinsipləri əsasında həyata keçirilməli idi. Qərarda deyilirdi: "100 min kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürülməsi könüllü əsaslar üzrə köçürülsün" [4, v.81]. Bəxtiyar Nəcəfov bu barədə yazır: "...Əgər söhbət könüllülükdən gedirsə, o zaman "köçürülsün" sərəncamı olduqca yersiz görünür, yox əgər köçürülmə yuxarıdan məcburi qaydada aparılırsa, o zaman "könüllü" sözü rişxənd kimi səslənir, köçürülsün sözü əmr kimi səslənir. Belə ki, "sərəncam" anlayışı könüllülüklə deyil, məcburiyyətlə bağlıdır" [37, s.81].

Arxivdə qorunub saxlanılan bir çox rəsmi sənədlərdə də köçürülmənin guya könüllü qaydada aparıldığı qeyd olunur. Doğrudanmı köçürmə könüllü idi? Göçürüləcək azərbaycanlı əhalinin köçürmə siyasətinə münasibəti necə idi və onlar bu siyasi tədbiri necə qarşılayırdılar?

Bəzi erməni müəllifləri də son zamanlar belə bir faktla çıxış edərək göstərirlər ki, guya köçürülmə könüllü olmuşdur. Guya onlar Kür-Araz ovalığının yenidən qurulması ilə bağlı Azərbaycan K(b)P MK-nın birinci katibi M.C.Bağırovun SSRİ NS-nə xahiş müraciəti əsasında köçürülmüşlər. Onlar onu da qeyd edirlər ki, azərbaycanlılar təkcə Ermənistandan deyil, Gürcüstandan və Orta Asiya respublikalarından da köçürülmüşlər [79, s.57-58]. Əlbəttə ki, onların bununla bağlı gətirdiyi əsassız arqument tarixi gerçəkliyi əks etdirmir və növbəti erməni yalanından başqa bir şey deyil.

Tədqiqat işimizlə bağlı Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi Siyasi Sənədlər Arxivində işləyərkən rast gəldiyimiz bir arxiv sənədi bu məsələ ilə bağlı müəyyən tarixi həqiqətlərin üzə çıxarılmasında, xüsusilə də, türk əhalisinin bu amansız və dəhşətli prosesə olan münasibətinə aydınlıq gətirmək baxımından qiymətli mənbədir. Bu sənəd həm də o vaxtkı, V.Stalin başda olmaqla SSRİ rəhbərlərinin, Ermənistanın kommunist, əslində isə daşnak siyasi dairələrinin azərbaycanlılara qarşı yönəldilmiş və həyata keçirilmiş çirkin, cinayətkarar hərəkətlərini ifşa etmək üçün olduqca tutarlı sənəddir.

Arxiv sənədindən məlum olur ki, SSRİ NS-nin "Kolxozçuların və başqa azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürülməsi haqqında" 23 dekabr 1947-ci il tarixli qərarında nəzərdə tutulduğu kimi köçürülmə heç də xoşluqla olmayıb və məcburi xarakter daşıyıb.

Əvvəllər Azərbaycan SSR DİN-da yüksək vəzifə tutmuş, 30-cu illərdə azərbaycanlıların repressiyasında xeyli dərəcədə aktiv, cinayətkar rol oynamış və köçürmə illərində Ermənistan SSR Daxili İşlər Naziri olmuş general-mayor Xoren Qriqoryanın Azərbaycan K(b)P MK-nın birinci katibi M.C.Bağırova ünvanladığı, üzərində "tamamilə məxfidir" qrifli 3 may 1948-ci il tarixli "Ermənistan SSR-nin azərbaycanlı əhalisi arasında Azərbaycan SSR-ə köçürülməyə dair əhval-ruhiyyə haqqında"kı arayışda bildirilir: "Xarakterik haldır ki, gələcək köçürülmə haqqında əhaliyə xəbər verilən kimi və bu tədbirin məqsədləri kolxozçuların ümumi yığıncağında açıqlandığı zaman iştirakçılar öz tərəflərindən hökumətin bu qərarını yekdilliklə müsbət qarşılasalar da, öz aralarında olan təkbətək söhbətlərində əhalinin çoxu bu tədbirə qarşı öz etirazlarını bildirirlər" [5, v.21].

Köçürülmə ərəfəsində Ermənistanın Xüsusi Xidmət Orqanları və onların yerlərdəki çoxsaylı agentləri vasitəsi ilə azərbaycanlı əhalinin köçürmə siyasətinə olan münasibəti öyrənilir və lazımi dövlət instansiyalarına çatdırılırdı. Azərbaycanlı əhalisi arasında aparılan dinləmələr və ictimai rəyin öyrənilməsi zamanı məlum olur ki, əhali tərəfindən köçürülməyə olan müna-

sibət rəsmi orqanların bildirdiyi kimi heç də birmənalı deyildi. Ermənistan SSR DİN X.Qriqoryan azərbaycanlı əhali arasında yaranmış mənfi əhval-ruhiyyəni onlar arasında təbliğat qrupları tərəfindən aparılmış zəif izahat işləri ilə bağlasa da, əsl həqiqətdə Azərbaycan türkləri min illər boyu yaşadıqları, onlara məxsus tarixi torpaqlarını heç də asanlıqla tərk etmək istəmirdilər.

Bu faktı təsdiq edən X.Qriqoryan Azərbaycan rəhbərinə ünvanladığı arayışda bildirirdi:"Bizim tərəfimizdən çoxlu faktlar əldə olunmuşdur ki, azərbaycanlılar yaşayış yerlərindən köçmək istəmirlər. Onların öz yaxın adamlarının qəbirlərini yad edərkən, məzar başında ayrılıq haqqında ağılar demələri onların köçmək istəmədiklərini göstərir..." [5, v.20].

SSRİ Nazirlər Sovetinin Azərbaycan türklərinin köçürülməsi haqqındakı məlum qərarına qarşı qeyri və yarım-leqal formalarda gizli də olsa, mənfi münasibət davam edir, demək olar ki, Ermənistanın türklər yaşayan bütün rayonlarını əhatə etmişdi. Köçürülməyə qarşı mənfi münasibət Zəngibasar, Amasya, Noyomberyan, Basarkeçər, Sisyan, Vedi, Qarabağlar, Artaşat, Oktomberyan, Qafan, Meğri və s. başqa rayonların azərbaycanlı əhalisi arasında kəskin şəkildə nəzərə çarpırdı [5, v.21-28].

Amasiya rayonunun Çivinli, Basarkeçər rayonunun Şişqaya kəndlərinin əhalisinin böyük hissəsi qəti surətdə Azərbaycana köçməkdən imtina etmiş, Artaşat (Qəmərli) rayonunun Axund Bozavənd, habelə Darğalı kəndinin azərbaycanlı əhalisi isə bildirirdilər ki, bizimlə nə edirlərsə etsinlər, heç bir halda biz buradan köçən deyilik. Qoy bizi elə yerimizdəcə öldürsünlər [5, v.20-30]. Qafan rayonunun Siznak kənd kolxozunun sədri Bəşir Tağıyev isə bütün həmkəndlilərinin köçürməyə münasibətini ifadə edərək deyirdi: "Doğma kənddə ölmək, təzə yerə köçməkdən yaxşıdır" [5, v.25].

Azərbaycan türklərinin köçürülməsi elan edildikdən sonra əhalinin əl-qolu soyumuş, onlar arasında psixoloji bir vəziyyət yaranmışdı. Əhalidə əvvəlki tək qurub-yaratmaq həvəsi ölmüş, hətta alınlarının təri ilə, min bir zəhmət hesabına əkib-becərdik-

ləri şəxsi təsərrüfatlar belə onların gözündən düşmüşdü. Hamı artıq nə vaxt köçürüləcəklərini "səbirsizliklə" gözləyirdilər və onlara elə gəlirdi ki, artıq hər şeyin sonu çatmışdır.

Azərbaycanlı əhali qəti əmin idi ki, onlar Ermənistandan köçürüləcək və onlara məxsus fərdi təsərrüfatlar və tikililər xarici ölkələrdən köçürülüb gətirilmiş erməni-repatriantlara veriləcək. Zavallı əhali nə bilirdi ki, erməni-repatriantların onlara məxsus təsərrüfatlarda və tikililərdə yerləşdiriləcəyi barədə rəsmi qərar və məlumatlar onların tarixi torpaqlarından köçürülməsi üçün bəhanədən başqa bir şey deyil. Sonralar onların özləri də bunu gördülər və inandılar ki, bu bəhanə imiş. Həmin illərdə köçürülmüş azərbaycanlı əhalinin böyük bir qisminin şahidliyi də təsdiq edir ki, onların köçürüldüyü azərbaycanlı kəndlərinə bir nəfər də olsun erməni-repatriant gəlmirdi.

Zəngibasar rayonunun Zəngilər, Xırda Dəmirçi, Oktomberyan rayonunun Baxcalar kəndlərinin bir qrup sakinləri - Namazov Sultanəli Rəhim oğlu, Yusubova Güllü Abbas qızı, Mirzəyev Məşədi Teymur İsgəndər oğlu, Məmmədov Əli, Həsənov Əbdüləli, Kərimov Qulam və başqaları köçürülmənin səbəbini erməni-repatriantların gəlişi ilə əlaqələndirirdilər. Onlar bu qənaətdə idilər ki, onların təsərrüfatlarında erməni-repatriantlar yerləşdiriləcək [5, v.20-26]. Amasiya rayon MTS-nin bir qrup traktorçusu isə bu fikrə gəlmişdilər ki, bu il onlar yaz əkinini keyfiyyətsiz keçirəcəklər. Çünki bu məhsulu ermənilər yığacaq və bizə heç nə çatmayacaq [5, v.22].

Amasiya rayonunun Çivinli, İbiş, Daşkörpü, Zəngibasar rayonunun Şurakənd, Zəngilər, Kolanlı, Ağahəmzəli, Vedi rayonunun Böyük Vedi, Taytan, Şirazlı kəndlərinin bir qrup sakinləri isə öz evlərini sökür, tikinti materiallarını satır və həyətyanı meyvə ağaclarını kəsib doğrayırdılar ki, onlara qismət olmayan fərdi təsərrüfatlar və tikililər ermənilərə qalmasın [5, v.22-27].

Kolxoz təsərrüfatlarında çalışan azərbaycanlı əhali köçürmə siyasətinə etiraz əlaməti olaraq tarlalara çıxmır, vergi ödəməkdən imtina edirdilər. Oktomberyan rayonunun Baxcalar kən-

dinin kolxozçularından Davudov Qubış, Məmmədov Aloş, Abdullayev Abdulla, Həsənov Həsən, Əliyev Yusup, Məmmədov Abbas, Zəngibasar rayonunun Zəngilər, Kolanlı, Ağahəmzəli, Basarkeçər rayonunun Çaxırlı, Amasiya rayonunun Çivinli kəndlərinin kolxozçuları kütləvi surətdə işə çıxmaqdan imtina etmişlər. Onlardan işə çıxmamalarının səbəbini soruşduqda onlar cavab verirdilər ki, bir halda ermənilər bizi Ermənistandan köçürürlər, kim üçün və nə üçün biz işləməliyik [5, v.22-30].

Vergi ödəməkdən imtina edən Zəngibasar rayonunun Sarıcalar kəndinin kolxozçuları isə bunu onunla izah edirdilər ki, onsuzda hamımızı köçürəcəklər. Nahaq yerə bizim kolxozçular vergi ödəyirlər [5, v.23-26]. Göygümbəz kəndinin kolxozçuları Əliyev Abbas, Rəhimov İsmayıl isə kolxozçularla söhbətdə bildirirdilər ki, nahaq yerə biz kolxozda işləyirik, bizim bütün əməyimiz ermənilərə qalacaq. Ümumiyyətlə, ermənilərlə yaşamaq çətindir. Çünki onlar bizi sıxışdırırlar, hətta kolxozlarda belə bizə münasib iş vermirlər [5, v.24].

Dinləmələrdən aydın olur ki, azərbaycanlı əhalinin əksər hissəsi köçürülmənin əsas səbəbini ermənilərin türklərə qarşı olan tarixi-etnik düşmənçiliklərində görürdülər. Bütün bunlar təsadüf deyildi. Azərbaycanlıların yaşlı və cavan nəsli bu ərazidə ermənilərin zaman-zaman onların başına gətirdikləri qanlı faciələrin şahidi idilər. 1905-07-ci illərin məşəqqətli hadisələrini, 1918-1920-ci illərin kütləvi qətllərlə müşaiyət olunan qaçqınlıq illərini yaşayan türklərin qan yaddaşı ermənilərin törətdikləri dəhşətli faciələri hələ də unuda bilməmişdi.

Azərbaycan türkləri sovet hakimiyyəti illərində A.Xancyanın Ermənistanda birinci katibi olduğu illərdə onun yeritdiyi millətçi siyasətini özlərinin sosial-iqtisadi, mədəni, mənəvi həyatlarında yaşamışdılar. A.Xancyan tərəfindən yüzlərlə türk mənşəli yer adları dəyişdirilmiş, türk əhalisinə qarşı diskriminasiya siyasətinin əsası qoyulmuşdu. Bu baxımdan Azərbaycan türklərinin onların köçürülməsi səbəbini bununla izah etməsi heç də yanlış deyildi. Müəyyən dərəcədə onlar öz mülahizələrində

haqlı idilər, ətraflarında baş verən ictimai-siyasi prosesləri, hadisələri anlayır, düzgün qiymətləndirirdilər.

Zəngibasar rayonunun Şorkənd, Zəngilər kəndlərinin bir qrup sakinlərinin fikirləri fərdi deyil, azərbaycanlı əhalinin ictimai rəyinin real ifadəsi idi. Onlar bu fikirdə idilər: "Ermənistan K(b)P MK-nın keçmiş katibi A.Xancyanın planına görə dünyanın hər yerindən bütün ermənilər gəlməli idi. Naxçıvan Ermənistana birləşdirilməli, bütün azərbaycanlılar isə Ermənistandan köçürülməliydilər. İndi budur, A.Xancyanın arzusu yerinə yetirilir. Məgər ermənilərlə azərbaycanlılar dostluqda yaşaya bilərlər?! Tarixdə həmişə ermənilərlə azərbaycanlılar arasında düşmənçilik halları olub və gələcəkdə də olacaq..." [5, v.25].

Hələ daşnak Ermənistanı dövründə (1918-1920) azərbaycanlı əhaliyə qarşı soyqırımı siyasəti həyata keçirilmiş, bu siyasət nəticəsində on minlərlə azərbaycanlı tarixi torpaqlarından didərgin salınmışdılar. Çar Rusiyasının süqutundan sonra yeni yaranmış Sovet Rusiyası ilk gündən xalqların, millətlərin dövlət qarşısında, cəmiyyət qarşısında hüquq bərabərliyini elan etmiş, hər cür milli-irqi ayrı-seçkiliyi qadağan etmişdi. Ermənistanda sovet hakimiyyəti qurulduqdan sonra bu ərazini məcburi vəziyyətdə tərk etmiş on minlərlə Azərbaycan türkü sovet dövlətinin milli siyasətinə inanaraq dədə-baba torpaqlarına qayıtmış, əvvəlki həyat ritmini bərpa etmişdilər.

Sovet Ermənistanında müəyyən dərəcədə sabitlik şəraitində yaşayan türk əhali 1941-1945-ci illər sovet-alman müharibəsinin onlara vurduğu fiziki, mənəvi yaralarını sağaltmamış yeni bir dəhşətli siyasətlə üzbəüz qaldılar. Vətəndaşları olduqları "ədalətli, humanist" Sovet hökuməti onların tarixi torpaqlarından köçürülməsi haqqında qərar qəbul etmişdi. Artıq əhalinin böyük əksəriyyəti Sovet hökumətinə, onun milli siyasətinə inanmır və deyirdilər: "Bolşeviklərin siyasəti aldatmaq üzərində qurulub" [5, v.25].

Azərbaycan türklərinin köçürülməsi haqqında SSRİ NS-nin məlum qərarının kütləvi məlumat vasitələri ilə əhaliyə çatdı-

rılmaması, qərarın onlardan gizli saxlanılması azərbaycanlı əhalidə onların köçürüləcəyi ərazi, onun istiqaməti ilə bağlı şübhələrin meydana çıxmasında və bəzən şaiyə xarakteri daşımasında həlledici sözünü deyirdi. Köçürüləcək azərbaycanlı əhali köçürülmənin nə dərəcədə dəhşətli olduğunu bilirdilər. Onlar Krımdan Krım türklərinin, Məhsətiyədən Ahıska türklərinin hansı şəraitdə köçürülmələrindən xəbərdar idilər. Köçürüləcək ərazi və onun istiqaməti ilə bağlı şübhələrin yaranması onlarda sovet dövlətinə olan inamsızlıqdan irəli gəlirdi. Amasiya rayonunun Quzukənd, Təpəköy, Zəngibasar rayonunun Sarıcalar kəndlərinin türk əhalisi belə hesab edirdilər ki, köçürülmə heç də könüllü olmayacaq və onlar Axalkələkdə olduğu kimi dəmiryol vaqonlarına doldurulub Qazaxıstana aparılacaqlar [5, v.22].

Ən cəsarətli etiraz forması isə Arpaçay (Axuryan) və Araz çayları boyunca yaşayan azərbaycanlı əhalinin müəyyən qrupu tərəfindən irəli sürülürdü. Onlar köçürülmə tədbirlərinə qoşulmaqdansa Türkiyə və İrana keçmək haqqında götür-qoy edir, bəziləri isə vaxtında bu ölkədən çıxıb getməməkdə öz təəssüflərini gizlətmirdilər [5, v.30].

Köçürüləcək azərbaycanlı əhali əsasən Ermənistanın dağlıq və dağətəyi rayonlarında yaşadıqlarından onları maraqlandıran və narahat edən məsələlərdən biri Azərbaycan SSR-nin Kür-Araz ovalığının iqlim şəraiti idi. Onların əksəriyyəti 1905-1907, 1918-1920-ci illərdəki qaçqınlıq məşəqqətlərini görmüş, həmin zonanın isti iqlim şəraitinin fəlakətlərini yaşamış insanlar idi. Qaçqınlıq taleyini yaşamış, onun acı və faciəli aqibətini öz şəxsi həyatında görmüş Sisyan rayonunun Comərdli kəndinin sakini Qurbanov Cəlal öz həmkəndliləri ilə söhbətdə iqlim şəraiti ilə bağlı deyirdi: "Çoxusu bilmir ki, Azərbaycanda necə istilər olur. 1918-1920-ci illərdə azərbaycanlılar Ermənistandan Naxçıvana qaçmışdılar. Onda biz 14 nəfər idik, 2 ildən sonra isə cəmi 3 nəfər qalmışdıq. Qalan 11 nəfər isti və xəstəlikdən öldü. Ora Naxçıvan idi, bu Mingəçevir isə daha pisdir. Bizdən çox-çox qurban gedəcək" [5, v.29].

Köçürüləcək əhali iqlim şəraiti ilə bağlı narahatlıqlarını gizlətmir, onların əsasən dağlıq və dağətəyi rayonlarda yerləşdirilməsini hökumətdən xahiş edirdilər. M.Məmmədovun məlumatında göstərilirdi ki, köçkünlər Kirovabad (indiki Gəncə), Şamxor (indiki Şəmkir), Tovuz, Ağstafa, Qazax və Kirovabad ətrafında məskunlaşmaq istəyirdilər [4, v.5].

Dinləmələrdən görünür ki, istər azərbaycanlı əhalinin, istərsə də erməni əhalisinin fikir və mülahizələrində Sovet hökumətinin türk əhalisinə olan etimadsızlığı da öz əksini tapmışdı. Zəngibasar rayonunun xırda Dəmirçi, Rəncbər və başqa kəndlərin sakinləri belə hesab edirdilər ki, onlar ona görə köçürülürlər ki, Sovet hökuməti azərbaycanlıların Türkiyə ilə sərhəd zolağında yaşamasına inanmır. Çünki, SSRİ ilə Türkiyə arasında müharibə olarsa, sərhəd rayonlarında yaşayan azərbaycanlılar Türkiyəyə keçə bilərlər. Budur bizim köçürülməyimizin əsas səbəbi [5, v.24].

Azərbaycanlılar tərəfindən səslənən bu cür mülahizələrdə qərəzli heç nə yox idi. XX əsrin 30-40-cı illərində minlərlə azərbaycanlı "pantürkist", Türkiyənin casusu kimi güllələnmiş, sürgünə göndərilmişdi. Krım və Ahıska türkləri də Türkiyə türkləri ilə eyni soy təşkil etdiklərinə görə Türkiyə ilə sərhəd ərazilərdən köçürülmüşlər.

Sovet dövlətinin türk soylu xalqlara qarşı mənfi və əsassız münasibətindən çıxış edən ermənilər də Azərbaycan türklərinə qarşı böhtan və iftiralar atır və hesab edirdilər ki, azərbaycanlıların Ermənistandan köçürülməsi məsələsinə şübhə olmamalıdır. Birinci növbədə Araz və Axuryan (Arpaçay) çayları sahilində yaşayan azərbaycanlılar köçürüləcək, sonra isə İrəvan şəhərindən azərbaycanlıların köçürülməsinə başlanılacaq. İlk növbədə azərbaycanlılardan sərhəd rayonları kəndlərinin azad edilməsi tam aydındır. Çünki, onlar tez-tez dövlət sərhəddini pozurlar. Türkiyə guya onlardan casusluq ocaqları yaradır [5, v.30].

Ermənistanın erməni əhalisi arasında da Azərbaycan türklərinin məcburi köçürülməsini Sovet İttifaqı və Türkiyə Res-

publikası arasında ola biləcək müharibə ehtimalı ilə əlaqələndirənlər vardı. Sovet-Türkiyə münasibətlərində yaranmış gərgin vəziyyət ermənilərdə psixoloji əhval-ruhiyyənin yaranmasında özünü göstərirdi. Bu əhval-ruhiyyə daha çox yerli və xaricdən gəlmiş erməni-repatriantlar arasında kəskin şəkildə müşahidə olunurdu. Yerevan şəhər sakini Şura Arutyunovna Ordyanın erməni-repatriant qonşularına dedikləri də bu faktı təsdiq edir. O, xaricdən gəlmiş erməni qonşularına məsləhət görürdü: "Siz xaricdə yaşayan və Sovet Ermənistanına gəlmək istəyən öz qohumlarınıza məktub yazaraq bildirin ki, tələsib gəlməsinlər, tezliklə SSRİ ilə Türkiyə Respublikası arasında müharibə olacaq" [5, v.29-30].

Azərbaycan türklərinin Ermənistan SSR-dən köçürülməsinin səbəblərinin Ermənistanın istər azərbaycanlı əhalisi, istərsə də erməni əhalisi tərəfindən bu şəkildə qiymətləndirilməsi və başa düşülməsi heç də təsadüfi deyildi. Bu dövrdə Sovet İttifaqının təqsiri üzündən SSRİ ilə Türkiyə Respublikası arasında münasibətlər müharibə həddinə qədər gərginləşmişdi. Bunun da səbəbi Sovet İttifaqının Türkiyə Respublikasına qarşı irəli sürdüyü əsassız ərazi tələbləri idi. Köçürülmənin səbəbləri barədə erməni və azərbaycanlılar tərəfindən irəli sürülən mülahizələr regionda yaranmış hərbi gərginliklə bağlı idi və azərbaycanlıların köçürülməsini sürətləndirən amillərdən biri idi.

Xarici ölkələrdən köçürülüb gətirilmiş erməni-repatriantlarda özlərinin əsl simasını gizlətmir, emissar fəaliyyətlə məşğul idilər və açıqdan-açığa ermənilər arasında təbliğat aparırdılar. Fransa Respublikasından Ermənistana gəlmiş və keçmişdə daşnak xmbabeti (dəstə başçısı) olmuş Smbat Kirovakanda bir qrup ermənilər arasında daşnak ideyalarını yayır və deyirdi: "Daşnaklar" vaxtı ilə Naxçıvan MSSR-nin Ermənistan SSR-ə birləşdirilməsi məsələsini qoymuşdular, amma qismət olmadı. İndi isə vaxtdır, məsələni qoymaq lazımdır, çünki Ermənistanın torpağı azdır" [5, v.20-30]. Bu ərazi tələbləri təkcə ölkə daxilində səslənmirdi.

Azərbaycan türklərinin deportasiyası illərində xaricdə fəaliyyət göstərən "Daşnakstyun" partiyası, onun mətbu orqanlarının Ermənistanın sərhədlərinin genişləndirilməsi ilə bağlı ərazi tələbləri artmışdı. Bütün bunlar həmin illərdə "Daşnakstyun" partiyasının siyasi fəaliyyətini əks etdirən materiallardan da aydın görünür.

Daşnak publisisti Saak Ztçyan Tehranda erməni dilində çıxan "Alik" ("Dalğa") qəzetinin 1948-ci il, 25/26 avqust 190-191-ci saylarında "Naxçıvanın Ermənistan üçün əhəmiyyəti" adlı məqaləsi xüsusilə diqqəti cəlb edir. Daşnak müəllifi yazırdı: "Bu gün nəhayət ki, Sovet İttifaqı 27 illik siyasi intriqalardan sonra 1925-ci ildə Türkiyə Respublikası arasında bağlanmış müqaviləni etibarsız saydığı bir vaxtda Naxçıvanın Azərbaycana verildiyi müqaviləni də etibarsız saymalı, onu Ermənistana qaytarmalıdır" [6, v.22]. Müəllif tarixə də müraciət etməyi unutmur və yazır ki, guya Naxçıvan Ermənistanın tarixi və coğrafi tamını təşkil edir və İrandan öz vətənlərinə - Ermənistana qayıdan ermənilər üçün ən yaxşı yaşayış yeridir [6, v.50].

Sovet-Türkiyə münasibətlərində yaranmış gərgin münasibətlər, Sovet İttifaqının Türkiyədən ərazi tələbləri, eləcə də Azərbaycan türklərinin tarixi torpaqlarından deportasiyası erməni millətçilərinin torpaq iştahasını daha da artırmış, onlarda daha böyük ərazilər əldə etmək istəyini gücləndirmişdi.

Köçürülmə tədbirlərinə qarşı etiraz edən azərbaycanlı əhali onların köçürülməsi ilə bağlı SSRİ hökumətinə, Azərbaycan rəhbərliyinə teleqramlar vururdular. Teleqramlarda onların narazılığı açıq-aşkar ifadə olunurdu. Mərkəzi hökumətə vurulan teleqramlar Ermənistanın poçt idarələrində ciddi nəzarətə götürülür, onun mətni yoxlanıldıqdan sonra teleqramların vurulmasına icazə verilirdi. Bəzi hallarda isə onlara göndərilmiş cavab teleqramları sahiblərinə bilərəkdən çatdırılmırdı.

Köçürülmə siyasətinə yalnız sadə əhali etiraz etmirdi. Bu tədbirə qarşı bəzən açıq, bəzən də dolayısı yolla respublikanın azərbaycanlılar yaşayan rayonlarında yüksək vəzifə tutmuş par-

tiya, sovet, təsərrüfat rəhbərləri də qoşulmuşdular. Mirzə Bəşirov, Qəşəm Şahbazov, İbiş Abbasov, Yaqub Qəribov, Rəhim Allahverdiyev, Yusif Abbasov, T.Musayev kütləvi köçürülməyə qarşı olduqları üçün Ermənistan K(b)P MK bürosunun xüsusi göstərişi əsasında tutduqları vəzifələrdən azad edilmişlər [36, s.174-175]. Vəzifələrindən azad edilmiş bu şəxslərdən bəziləri Ermənistan rəhbərlərinin təqiblərindən baş götürüb Azərbaycana köçmüş, Azərbaycan SSR hökumət orqanlarında çalışmışlar. Qarabağlar rayon partiya komitəsinin birinci katibi işləmiş Cəfər Vəlibəyov da köçürülmə siyasətini ciddi tənqid etdiyinə görə respublikanın hakimiyyət orqanları tərəfindən ciddi təqiblərə məruz qalmışdır [36, s.175].

Ermənistan SSR Meğri rayonunun Nüvədi kəndinin əhalisinin Mingəçevirə köçürülməsi nəzərdə tutulsa da,onlar yaşayış yerlərindən köçmək istəmirdilər.Nüvədi kəndinin Azərbaycan SSR-in Zəngilan rayonunun ərazisinə aid edilməsi barəsində Nüvədi kənd “Qırmızı Sərhəd” kolxozunun əməkçilərinin İ.V.Stalinə yazmış olduqları 23 aprel 1948-ci il tarixli məktubunda deyilirdi: “Bu ilin aprelində bizə məlumat verdilər ki, kənd əhalisi ilə birlikdə Azərbaycan SSR-ə köçürülməliyik və Emənistan azərbaycanlıları Azərbaycanda yaşamalıdırlar. Bizim Nüvədi kəndi hər iki respublikanın sərhədində yerləşir. 1920-ci ilə qədər (1929-cu ilə qədər – Ə.Q) Azərbaycan SSR Zəngilan rayonuna məxsus idi, sonra isə Ermənistan SSR Meğri rayonunun tərkibinə keçirildi. Dəmiryol xəttinin çəkilməsi iki respublikanı birləşdirdi. Bütün bunlardan çıxış edərək, artıq dərəcədə xahiş edirik ki, bizi köçürməkdənsə, əvvəllər olduğu kimi Nüvədi kəndinin Azərbaycan SSR Zəngilan rayonunun tərkibinə keçirəsiniz.” [2a, v.48].

Köçürülmə tədbirlərinə qoşulmayan və bütün əhalisi ilə birlikdə bu siyasi tədbirə etiraz edən Noyomberyan rayonunun Ləmbəli kəndinin əhalisi hələ 1948-ci ildə köçürülməsi nəzərdə tutulan kəndlərin siyahısında idi. SSRİ NS-nin 140848 saylı 29 sentyabr 1948-ciil tarixli qərarına əsasən, Ermənistan SSR NS

Ləmbəli zeytun sovxozu və qonşu Kərkilə kəndində subtropik sovxoz yaradılması haqqında xüsusi qərar qəbul etmiş və bununla əlaqədar həmin kəndlərin sakinləri sərəncama əsasən Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürülməli, onlara məxsus malikanə və torpaqlar ermənilərə verilməli idi [1, v.152].

Bu barədə, Ləmbəlinin, Aşağı Körpülünün, Zəngibasar rayonunun Hacı Elyas kəndlərinin əhalisinin köçürülməsini sürətləndirilməsi barədə Ermənistan SSR Nazirlər Sovetinin sədr müavini A.Piruzyanın Azərbaycan SSR Nazirlər Sovetinin sədri T.Quliyeva 18 oktyabr 1948-ci il tarixli məktubunda ətraflı bəhs olunur. Məktubun mətnindən aydın olur ki, bu kəndlərdə Ermənistan hökuməti subtropik və tərəvəzçilik sovxozu yaratmış və bu kəndlərin köçürülməsi "zərurəti" bildirilirdi [1, v.52 ].

Ermənistan SSR-nin hökuməti bu kəndi ilkin olaraq köçürməyə can atır, bunu onunla əlaqələndirirdilər ki, onların köçürülməsi xalq təsərrüfatı əhəmiyyəti daşıyır [1, v.153]. Bütün bunlar bəhanə idi. Məgər azərbaycanlılar qalıb həmin sovxozda işləyə bilməzdilər? Və yaxud onların sovxozda işləmələri xalq təsərrüfatına hansı zərəri verirdi?

Ərazisində tərəvəzçilik sovxozu yaradılan Zəngibasar rayonunun Hacı Elyas kəndinin əhalisi isə çıxış yolları arayır, onlar üçün daha münasib olan Naxçıvan MSSR-də məskunlaşmaq istəyirdilər.Kənd kolxozunun 220 üzvünün kolxoza daxil olan 150 təssərüfatın Naxçıvan MSSR-də yerləşdirilməsi xahiş edilirdi.Kolxozçuların qərarında deyilirdi ki, kolxozumuz varlı kolxozdur.Belə bir kolxozu dağıtmaq yaxşı deyil. Bütün kolxozun bir yerə köçməsi daha münasibdir və nizamı pozmaz... Noraşen rayonunun (Şərur – Ə.Q ) iqlimi və suyu da bizə düşür... Xahiş edirik, bizim kolxozun üzvülərinin rayonun Şəngiley və Dərəkənd kəndlərinə köçürülməsinə icazə versinlər [2, v.92].

Ləmbəli kəndinin köçürülməsi Ermənistan rəhbərliyi tərəfindən Respublika Kənd Təsərrüfatı Nazirinin müavini A.Qriqoryana tapşırılsa da, onlar Azərbaycanın Salyan rayonuna köçməkdən qəti imtina edir və açıqdan-açığa hökumətin qərarına

itaətsizlik nümayiş etdirirdilər. Azərbaycan SSR Köçürmə idarəsinin rəisi A.Gözəlovun, Azərbaycan SSR NS-nin sədri Teymur Quliyevin adına göndərilmiş 26 oktyabr 1948-ci il tarixli məktubunda ona məlumat verərək bildirirdi ki, 245 təsərrüfatdan (1192 nəfər) ibarət olan Ləmbəli kəndinin əhalisi Azərbaycanın Salyan ərazisinə köçmək istəmirlər [1, v.148].

Ləmbəli kənd sakini Seyidov Əlinin Gürcüstanın Sadaxlı stansiyasından Azərbaycan K(b)P MK-nın birinci katibi M.C.Bağırovun ünvanına göndərdiyi məktub təkcə Ləmbəlidə deyil, bütün Ermənistanda Azərbaycan türklərinin necə və hansı şəraitdə köçürülməsinə aydınlıq gətirir. Məktubun mətnindən aydın olur ki, azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürülməsi könüllülük prinsipinə əsaslandığına baxmayaraq, respublikada köçürülmə zorakı yolla aparılır və həmin metod eynilə Ləmbəli kəndində də tətbiq edilir [1, v.151].

Ləmbəli əhalisini köçürməyə razı sala bilməyən rayon rəhbərləri kolxozun ümumi yığıncağında saxta protokol tərtib etmiş, təzyiq altında kolxozçuların 25%-nin razılığını almışlar. Yığıncaqda 150 adam iştirak etdiyi halda protokolda 450 nəfərin iştirakı qeyd olunmuşdur [1, v.151]. Əhalini köçürməyə məcbur etmək məqsədilə Ləmbəli kolxozunun sədri B.İnsanov rayon partiya komitəsinə çağrılaraq ona təzyiqlər göstərilmişdir. Lakin buna baxmayaraq kənd camaatına arxalanan B.İnsanov onların təklifini rədd etmişdi [36, s.178].

Köçürülmənin qəti olduğunu başa düşən B.İnsanov ehtiyyatı əldən buraxmır, azərbaycan ziyalılarından bu işə kömək göstərmələrini xahiş edirdi. O, Ləmbəlilərin köçmək istəmədiklərini və köçərlərsə onlar üşün iqlim şəraitinin uyğun olduğu Qazax, Akstafa, Tovuz rayonlarında məskunlaşdırılması məsələsinin yuxarı təşkilatlarda qaldırılmasına köməklik göstərilməsi barədə Səməd Vurğuna müraciət etmişdi. (Bu müraciət AMEA-nın Əlyazmalar İnstitutunun arxivində indiyədək qorunub saxlanılmaqdadır).

S.Karapetyanın göstərişi ilə milis dəstələrinin köməyi ilə Ləmbəlilər maşınlara dolduralaraq Gürcüstanın azərbaycanlılar yaşayan kəndlərinə köçürülür. Gürcüstan hakimiyyət orqanları isə öz növbəsində əhalini vaqonlara doldurub İrəvana göndərir. [36, s.178]. C.Vəlibəyov və B.İnsanov bu məsələ ilə bağlı Ermənistan K(b)P MK-da olmuş, bundan sonra hökumət Ləmbəlilərin Basarkeçərin Zod, Ağkilsə kəndlərində yerləşdirilməsinə icazə vermişdi [36, s.178].

Azərbaycan SSR Kənd Təsərrüfatı Nazirinin müavini M.Poladovun Ermənistanda olarkən hazırladığı arayışda göstərilirdi ki, Ləmbəli əhalisinin evləri bura köçürülən erməni ailələri arasında paylanmış, azərbaycanlıların qəbiristanlığı dağıdılaraq məzar daşlarından yeni binaların tikintisində istifadə olunmuşdur [2 b, v.84-89 ].

Yerli əhalinin Mərkəzi hökumətə ardı-arası kəsilməyən şikayəti nəticəsində SSRİ Kənd Təsərrüfatı Nazirliyi Baş Köçürmə idarəsi rəisinin müavininin rəhbərliyi altında xüsusi komissiya Ləmbəlidə olmuşlar. Aparılan yoxlamalar və aşkar olunmuş faktlar barədə Ermənistan K(b)P MK-nın yeni təyin edilmiş birinci katibi S.Tovmasyana məlumat verilir [2b, v.84-82].

1950-ci illərin ortalarında Ermənistan K(b)P MK “Ləmbəlidə evlərin keçmiş sahiblərinə qaytarılması və onların sovxozda işə qəbul edilməsi barədə” qərar qəbul edir [2b, v.84-82]. Ləmbəlinin azərbaycanlı sakinləri kəndlərinə qayıdarkən, onların evlərinə sahib çıxmış ermənilərlə münaqişə baş vermiş, iki azərbaycanlı qadın ermənilər tərəfindən öldürülmüşdü [36, s.183].

Ermənistanın kommunist rəhbərləri və hüquq mühafizə orqanları azərbaycanlıların köçürülməsini sürətləndirmək məqsəd ilə yerli partiya, sovet, təsərrüfat rəhbərlərinə təzyiqlər edir, onları əhali ilə birlikdə köçməyə məcbur edirdilər. Əzizbəyov RİK sədri Yusif Abbasov və rayon partiya komitəsinin ikinci katibi Əziz Cəfərov Ermənistan K(b)P MK-ya çağırılmış və oradaca vəzifələrindən azad edilmişlər. Bütün bunları görən rayonun azərbaycanlı əhalisi, o cümlədən Əziz Cəfərovun qohumları

yaşayan Her-her, Qarmraşen kəndləri də köçməyə məcbur olmuşdu [43, s.68].

Ermənistan rəhbərləri Vedi rayonundan Azərbaycan türklərini köçürmək üçün daha sərt üsuldan istifadə edirdi. Köçürmənin ilk ilində planda nəzərdə tutulduğu kimi Vedi rayonundan 500 adamın köçürülməsi nəzərdə tutulsa da, 1948-ci ilin aprelin 28-nə kimi 9.915 min adamın köçmək üçün ərizəsi alınmışdı [5, v.27]. Halbuki bütün Ermənistandan 1948-ci il üçün 10 min əhalinin köçürülməsi SSRİ NS-nin 23 dekabr 1947-ci il tarixli qərarında nəzərdə tutulmuşdu. Təkcə Vedi rayonundan 1948-ci il üçün 9.915 min əhalinin köçürülməsi əlbəttə ki, çox böyük bir rəqəm idi. Bununla belə rayondan daha çox azərbaycanlı əhalini köçürmək məqsədilə Ermənistan K(b)P MK-nın xüsusi tapşırığı ilə rayonun əlaqədar təşkilatları bir neçə kəndlərdən 628 təsərrüfatın köçürülməsi haqqında ərizələri alınmışdı [2, v.296]. Bu, həm də məcburi qaydada həyata keçirilirdi.

Vedi rayon İcraiyyə Komitəsinin sədri Ə.Məmmədov 1949-cu ilin noyabrın 3-də Ermənistan SSR NS sədrinin müavini Çarçoğluyana vurduğu teleqramdan aydın olur ki, köçürülməyə məruz qalan azərbaycanlı əhalinin böyük əksəriyyəti evlərini, mal-qaralarını satmış və onlar arasında çox gündəlik ərzaq, çörək ehtiyatları tükənmiş adamlar var [2, v.296].

RİK sədrinin “Bir azdan qar yolları örtəcək və onların köçürülməsi mümkün olmayacaq” barədə xəbərdarlığına baxmayaraq Ermənistan rəhbərləri bu vəziyyətdən faydalanmağa çalışır, zavallı insanların taleyinə qarşı dözümlülük və biganəlik nümayiş etdirir. Ermənistan SSR NS-nin 7 oktyabr 1949-cu il tarixli 117 saylı qərarında 628 təsərrüfatın 1949-cu ilin oktyabrın 29-dan noyabrın 6-dək köçürülməsi nəzərdə tutulsa da qərarın icrası təmin edilməmişdir.

Vedi rayonunun Gölçığ, Məngük, Ərmik, Qaraqoyun, Sünbül kəndlərinin əhalisi binalarını, qış yanacağını, mal yemini, ev əşyalarını sataraq şose yollarını yığışsalar da onların köçürülməsi yubadılırdı. Bir aydan artıq şose yollarında qalmış əhali

çörək problemi ilə üzləşmişdir. Rayonda baş vermiş quraqlıq isə rayon rəhbərliyinə onları çörəklə təmin etməyə imkan vermirdi.

Həmin illərdə nəinki Vedi rayonunda, eləcə də Ermənistan SSR-də baş vermiş quraqlıq bütün rayonlarda özünü göstərir, respublika ərzaq qıtlığı ilə üzbəüz qalmışdı. Belə olan vəziyyətdə Azərbaycan Ermənistana baxanda "çörəkli" hesab olunurdu. Bu amilin özü də Azərbaycan türklərinin özbaşına olaraq öz yaşayış yerlərini tərk edib Azərbaycan SSR-yə üz tutmasına səbəb olurdu.

Vedi RİK sədri Ə.Məmmədovun Ermənistan SSR NS-nin sədri C.Karapetyana göndərdiyi məktubunda bildirilirdi: "Azərbaycan nümayəndəsinin son "köçürmürəm" cavabından sonra beş gün ərzində artıq 75 təsərrüfat özbaşına köçmüşlər və günügündən onların sayı artır. Mən RİK sədri kimi sizi təkidlə inandırıram ki, əgər mütəşəkkil surətdə köçürmə işi təxirə salınsa qeyd olunmuş təsərrüfatlardan ən azı 80-85 faizi bir neçə gün müddətində qeyri-qanuni köçəcəklər. Bu vəziyyət köçürüləsi kəndlərdə olan 8 min baş xırda buynuzlu və 3.500 baş iribuynuzlu malların saxlanılmasını təhlükə qarşısında qoymaqla bərabər insan tələfatı da gözlənilir. RİK təkrarən xahiş edir ki, bu işə şəxsən özünüz qarışasınız, çünki, 3.200 nəfərin həyatına belə qayğıkeşsizcəsinə yanaşmaq olmaz. Əgər vəziyyət belə davam edərsə çox pis nəticələr verəcək..." [2, v.297].

Azərbaycan SSR Nazirlər Sovetinin Ermənistan üzrə müvəkkili Əliyev həmin təsərrüfatların köçürülməsindən imtina etməsinin səbəblərinə, onun Ermənistan SSR Nazirlər Sovetinin sədri C.Karapetyana və Nazirlər Sovetinin sədr müavini Piruzyana göndərdiyi məktubda bütün yuxarıda deyilənlərə aydınlıq gətirilir.

Məktubda bildirilirdi: "Son zamanlar Ermənistan SSR-nin Amasiya, Spitak Vedi və başqa rayonlarının ayrı-ayrı təşkilatları köçürülmə barədə sənədlərin tam rəsmiləşdirilməsini, kolxozların köçürülməyə razılıq vermələrini gözləmədən, təsərrüfatları köçürmək üçün sürətli hazırlıq işləri aparırlar. Həmin təşkilatlar

bu təsərrüfatların əmlakını bölüşdürür, kolxozları məcbur edirlər ki, yemi satsınlar və hətta nə vaxt yola düşəcəklərini göstərsinlər. Onlar kolxozçuların bu və ya digər rayona köçürülmək arzusunda olub-olmaması ilə hesablaşmırlar. Halbuki, hökumətin köçürülmə barədə təlimatlarına əsasən kolxozların nümayəndələri köçürüləcəkləri yerləri qabaqcadan görüb baxmalı, öz istəklərinə uyğun yerlər seçməlidirlər. Köçürülmə qaydalarının bu cür pozulması isə kolxozçuları məcbur edir ki, onlar yuxarı təşkilatlara şikayət etsinlər və köçmək istəmədikləri rayonlara köçürülmələrindən narazı olduqlarını bildirsinlər" [2, v.293-294].

Göründüyü kimi, Ermənistanın kommunist rəhbərlərinin təqsiri üzündən bu məsələ öz müsbət həllini tapmamış, nəticədə Vedi rayonunun dağ kəndlərinin azərbaycanlı sakinləri azuqəsiz vəziyyətdə qalmışlar. Ermənistan hökumətindən heç bir kömək görməyən və ac qalmaq qarşısındakı vahimə həmin təsərrüfatların köçürülmə qanunlarına məhəl qoymadan doğma yurd-yuvalarını ataraq Azərbaycan SSR-ə köçməsinə səbəb olmuşdur.

Bununla bağlı 1949-cu il noyabrın 23-də Ermənistan SSR Vedi Rayon İcraiyyə Komitəsinin sədri Ə.Məmmədov Nazirlər Sovetinin sədri S.Karapetyana məktubunda ona bildirirdi ki, 1948-1949-cu illərdə təkcə Vedi rayonundan 700-dən çox təsərrüfatın özbaşına Azərbaycanın rayonlarına köçmüşlər. RİK sədri daha sonra bildirirdi ki, rayondan bu cür köçənlərin sayı gündən-günə artmaqdadır [2, v.92 ] .

Azərbaycan SSR Nazirlər Soveti yanında Köçürmə İdarəsinin məlumatında isə bildirilirdi ki, Naxçıvan Vilayət Komitəsi və Nazirlər Soveti Ermənistan SSR-nin Qarabağlar, Vedi, Qəmərli (Artaşat) rayonlarından buraya özbaşına gələn 500 azərbaycanlı təsərrüfatını qəbul edir və yerləşdirir. İdarənin məlumatında həmçinin o da bildirilirdi ki, onlar arasında Kür-Araz ovalığına köçürmə bileti olanlarda vardır. Azərbaycan SSR NS-i yanında Köçürmə İdarəsi Naxçıvan rəhbərliyini xəbardar edirdi ki, gələcəkdə bu kimi hallara yol verməsin [2, v.92.].

Azərbaycanlı əhalini narahat edən və qorxudan məsələlərdən biri də köçürüləcək ərazinin olduqca isti iqlimə malik olması idi. Belə ki, Ermənistan SSR-də köçürülməsi nəzərdə tutulan azərbaycanlı əhalinin 1939-cu il siyahıya alınmasına görə, Ermənistan SSR Kənd Təsərrüfatı Nazirliyinin 1948-ci ilin məlumatı üzrə Ermənistan SSR-də 110 min azərbaycanlı əhalinin (25000 ailə) yaşadığı və bunun yalnız 9 min ailənin (35 min nəfərin) düzənlikdə yaşadığı, yerdə qalanın isə 75 mininin dağlıq rayonlarda yaşadığı bildirilirdi [2c, v.211-214].

Bu səbəbdən bir çox ailələr köçürülmə qanunlarına məhəl qoymadan öz yaşayış yerlərini tərk edərək Azərbaycana üz tutur, xüsusilə Azərbaycanın dağlıq və dağətəyi rayonlarında məskunlaşmağa can atırdılar.Azərbaycan SSR NS-nin sədri T.Quliyevin SSRİ Nazirlər Sovetinin sədr müavini G.M. Malenkova 13 dekabr 1948-ci il tarixli məlumatında 1948-ci ilin 1 noyabrına qədər Ermənistan SSR-dən Azərbaycan SSR-ə 7747 nəfərin (1799 təssərrüfat) köçürüldüyü bildirilirdi [2, v.71-74]. Azərbaycan SSR Nazirlər Soveti yanında Köçürmə idarəsinin tam olmayan məlumatına görə 1949-cu ildə özbaşına olaraq 4.396 nəfəri özündə birləşdirən 856 ailə Ermənistan SSR-dən Azərbaycan SSR-ə köçüb gəlmişdi [41, s.32].

Qaçqınlıq probleminin yaranmasının və onların "köçürülmə" qanunlarına məhəl qoymadan yaşayış yerlərini tərk etməsinin bir səbəbi köçkün soydaşlarının köçürüldükləri Kür-Araz ovalığının əlverişsiz iqlim şəraiti ilə üzləşib, acı məhrumiyyətlərə məruz qalmasının onların da taleyində təkrarlanma qorxusu idisə, ən əsas səbəbi Azərbaycan türklərinin bundan sonra ermənilərlə bir yerdə yaşamağın perspektivsizliyini dərk etməsi idi. Azərbaycan türklərinin tarixi torpaqlarından deportasiyası olduqca bu ciddi amili üzə çıxardı.

Köçürülmə zamanı Ermənistanın hüquq mühafizə orqanları Azərbaycanı əhalinin köçürülməsi məqsədilə onlara qarşı inzibati qaydada hədə-qorxu gəlir, onları köçməyə məcbur edirdilər. Zəngibasar rayonunun Sarıcalar kəndinin azərbaycanlı əha-

lisi, Əzizbəyov rayonunun Cul, Gomur, Safoylu kəndlərində belə faktlar qeydə alınmışdır. Erməni millətçiləri tərəfindən hədələnib bu kəndlərdən köçməyə məcbur edilən 35 ailə Zar-Zəylik (Kəlbəcər rayonu) kəndi yaxınlığında qara düşmüş, 16 nəfər kişi, qadın və uşaq həlak olmuşdur [36, s.172].

Basarkeçər rayonundan azərbaycanlı əhalinin köçürülməsi 1951-1953-cü illərin köçürmə planına salınmışdı. Rayonun ermənilərlə qarışıq olan Yarpızlı, Qızılvəng, Yuxarı Zağallı, Kərkibaş və Qanlı kəndlərinin əhalisi qismən 1948-ci ildə köçürülməyə məruz qalmışdı.

Ermənistan SSR Daxili İşlər Naziri X.Qriqoryanın M.C. Bağırova göndərdiyi məxfi arayışda da bildirilirdi ki, Basarkeçər rayonunda da azərbaycanlı əhali köçürməyə öz mənfi münasibətini bildirir, köçmək barədə fikirləşmirlər. Arayışdan Basarkeçər rayonun Zod kəndinin sovet sədri Bala Hacıyev həmkəndlilərinin adından yer axtarmaq üçün Azərbaycan SSR-ə üz tutduğu məlum olur [5, v.21]. B.Hacıyev Azərbaycan Mərkəzi Komitəsində olmuş, M.C.Bağırovun qəbuluna düşür və Zod kəndinin 100-dən çox ailəsinin Xanlar rayonunda (Göygöl) yerləşməsinin icazəsini alır və beləliklə, onların məskunlaşma problemi həll edilir[ 2 ç, v.181-187].

Ermənistan rəhbərləri türk əhalisinin olduqca sıx yaşamış olduqları bu rayonun əhalisini köçürmək üçün Ermənistan SSR NS sədrinin müavini Çarçoğluyan başda olmaqla respublikanın vəzifəli şəxsləri yük maşınları ilə birgə rayona gəlib, 600 ailənin köçməsini tələb etmişlər [36, s.195].

RPK-nın birinci katibi Talıb Musayevin göstərişi ilə RPK-nın əməkdaşları Y.Rzayev, T.Əmiraslanov, Q.Məmmədov və başqalarının səyi ilə rayonun azərbaycanlı əhalisinin müqaviməti təşkil edilmiş, komissiya üç gün rayonda qaldıqdan sonra 150 boş maşınla geri qayıtmışdır [36, s.200]. RPK-nın birinci katibi T.Musayev köçürmə işində yol verdiyi səhv və "nöqsanlara" görə Ermənistan K(b)P MK və Kirovakan Dairə Komitəsi Bürosunda işdən azad edilərək ciddi partiya cəzası almışdı [36, s.223-224].

Azərbaycanlı köçkünlərin Ermənistandan yola çalınması da maraq doğuran məsələlərdən biridir. SSRİ NS-nin "Kolxozçuların və başqa azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürülməsi haqqında" 23 dekabr 1947-ci il tarixli qərarının yeddinci bəndində Nəqliyyat Nazirliyinə bir vəzifə olaraq tapşırılırdı ki, Ermənistan SSR Nazirlər Sovetinin sifarişləri əsasında, azərbaycanlı əhalinin, onların əmlakı və mal-qarasının təchiz və dezinfiksiya edilmiş vaqonlarda xüsusi təşkil edilmiş eşalonlarla Azərbaycan SSR-ə daşınmasını təmin etsin" [4, v.16].

Bu qərardan irəli gələrək Vedi, Qarabağlar, Eçmiəzzin, Zəngibasar, Qəmərli, Əzizbəyov rayonlarından köçürülən əhalinin köçləri İrəvan, Qəmərli, Şirazlı, Dəvəli stansiyalarına, Basarkeçər, Nor-Bayazet, Axtadan köçürülənlər isə Uluxanlı, (Zəngibasar) stansiyalarından ev əşyaları, mal-qaraları ilə birlikdə yük vaqonlarına doldurulub İrəvan-Naxçıvan-Mincivan-Horadiz-Saatlı istiqamətində yola salınırdı [43, s.192]. Köçürülmənin gedişinə mənfi təsir göstərməsin deyə qatarların hərəkəti dəmiryolu stansiyalarından gecələr keçir, köçkün əhali kütləvi surətdə Kür-Araz ovalığındakı Ucar, Zərdab, Əli-Bayramlı, Salyan, Saatlı, Sabirabad, Yevlax, Kürdəmir, Mirbəşir (indiki Tərtər) rayonlarına köçürülürdü.

Köçürülən ərazilərdə yaşayış evlərinin, ictimai binaların, içməli suyun və s. olmaması həmin rayonların rəhbərlərini məcbur edirdi ki, bütün vasitələrdən istifadə edərək köçürülənləri qəbul etməkdən imtina etsinlər. Ermənistan SSR-dən gəlmiş eşalonlar günlərlə dəmir yol stansiyalarında dayanır, yalnız yuxarıdan təzyiq onları məcbur edirdi ki, köçürülənləri qəbul etsinlər.

Yevlaxda, Sabirabadda, Ucarda və s. başqa rayonlarda bu cür faktlar qeydə alınmışdır. 1950-ci ildə Qaradonludan alınmış teleqramda bildirilirdi ki, 3-cü sutkadır ki, 11 köçkün vaqonu boşalmır, Zərdab rayonuna köçürülmək üçün Ucar stansiyasına gəlmiş 52 ailə isə bir aydan çoxdur ki, stansiyalarda gecələyirlər [41, s.22].

Azərbaycan türklərinin Ermənistandan məcburi köçürülməsi ilə paralel olaraq yaşayış məntəqələrinin adlarının dəyişdirilməsi, təhsil və mədəniyyət ocaqlarının bağlanması, rayonların birləşdirilməsi əməliyyatı aparılırdı. 1947-1953-cü illərdə 60-dan artıq azərbaycanlı yaşayış məntəqələrinin, eyni zamanda Ermənistan SSR Ali Sovetinin 19 sentyabr 1950-ci il fərmanı ilə dəmiryol stansiyalarının adları dəyişdirilmiş, Kolagirən-Tumanyan, Hamamlı-Spitak, Ortakilsə-Maisyan, Tomardaş-Vapdakar, Arpaçay-Axuryan, Buğdaşeş-Baqravan, Qaraqula-Gedan, Ələyəz-Araqats, Boğudlu-Armeni, Qaraburun-Qarmraşen, Qamışlı-Sovetaşen, Uluxanlı-Masis, İmanşahlı-Mxçyan, Qəmərli-Artaşat, Şirazlı-Ayçavan adlandırılmışdır [8, s.119].

Ermənistan SSR Ali Sovetinin 1951-ci il martın 19-da verdiyi digər bir fərmanla Dilcan rayonu İcevanla, Əzizbəyov rayonu Mikoyanla, Ələyəz rayonu Vediyə, Qukasyan rayonu Amasiya rayonu ilə birləşdirilmişdi. Azərbaycanlı kadrlar ixtisar edildikdən sonra həmin rayonlar ayrılaraq müstəqil rayonlara çevrildilər [8, s.119].

Köçürməyə qədər Ermənistanda azərbaycanlı yaşayış məntəqələri bir-biri ilə sıx əlaqəli idi və demək olar ki, Azərbaycan mahalları biri digərinə söykənirdi. Ermənilərin tərtib etdiyi köçürmə planı nəticəsində tarixən yaranmış mövcud əlaqələr kəsilmiş oldu [12, s.11].Göyçə gölünün sağ sahili boyunca yaşayan (Kamo və Martuni rayonları) türkləri köçürməklə Dərəçiçək, Gərnibasar, Dərələyəz mahalları ilə sol sahil Göyçənin, Qəmərli əhalisini köçürməklə Zəngibasarla Vedibasarın, Gümrünü köçürməklə Ağbaba, Pəmbək və dağ Borçalının əlaqəsi tamam kəsilmiş oldu [12, s.11]. Talin, Artik, Əştərək, Oktomberyan, Kotayk rayonlarında yaşayan axırıncı azərbaycanlılarda bu rayonlardan tamamilə çıxarıldılar.

Köçürməyə nəinki azərbaycanlı əhali məruz qalmış, hətta onlara məxsus bir sıra sosial, mədəni obyektlər, o cümlədən İrəvan Pedaqoji İnstitutunun dörd azərbaycan dilli fakültəsi bağ-

lanmış və Bakıya köçürülmüşdü. Bu barədə Azərbaycan SSR NS-nin 1 iyul 1948-ciil 700 №-li xüsusi qərarında geniş bəhs olunur [37, s.116].

SSRİ NS yanında Baş Köçürmə İdarəsi özünün kollegiya iclaslarında üç dəfə Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürülməyə dair vəziyyəti müzakirə etmişdi. BKİ kollegiyasının 31 yanvar 1951-ci il tarixli qərarında göstərilirdi ki, 1948-1950-ci illərdə köçürülmüş 8.110 ailədən 4.787-si yaşayış evləri ilə təmin olunmamışdır [41, s.23].

A.Paşayevin fikrincə, BKİ-nin köçürülmə ilə bağlı məsələlərə maraq göstərməsi səbəbsiz deyildi. Belə ki, 1951-ci ildən başlayaraq Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürülmüş azərbaycanlı əhalisi arasında geri qayıtma hallarına təsadüf edilirdi. Ermənistan SSR NS-nin sədri Karapetyanın məlumatında 376 ailənin, Axta RİK sədrinin məlumatında isə 117 ailənin geriyə qayıtdığı bildirilir [37, s.24]. Göründüyü kimi, Ermənistan rəhbərlərini qorxudan əsas məsələ məcburi köçkünlərin köçürüləcək soydaşları arasında aparacaqları əks-təbliğat idi. Bununla bağlı Ermənistan SSR NS-nin sədri S.Karapetyan teleqram vasitəsilə bildirirdi ki, hökumət tərəfindən müəyyən olunmuş köçürmə qaydalarını pozduqları üçün Ermənistan hökuməti onları qəbul edə bilməz [41. s.24].

Azərbaycan Köçürmə İdarəsinin rəisi N.Allehverdiyev Respublika Nazirlər Sovetinin 7 iyun tarixli qərarına əsasən faktları yerindəcə dəqiqləşdirmək üçün 1951-ci ilin iyul ayında Ermənistanda olmuşdur. Məlumatların dəqiqləşdirilməsi zamanı aydın olmuşdur ki, 1951-ciilin iyun ayının 1-nə qədər 217 təsərrüfat əvvəlki yaşayış yerlərinə qayıtmışlar [2ç, v.209].

Azərbaycan SSR NS yanında Köçürmə İdarəsinin rəisi N.D.Allahverdiyevin 28 mart 1952-ci ildə SSRİ NS sədrinin müavini və Baş Köçürmə idarəsinin rəisi S.D.Çeremuşkinə ünvanlanmış arayışdan məlum olur ki, geri qayıdanlar əsasən Ermənistanın Axta, Basarkeçər, Əzizbəyov, Kirovakan, Vedi,

Kotayk rayonlarının köçkün əhalisidir. Onların sayı 247 təsərrüfat (872 nəfər) aşkar edilmişdir. [37,s.185]

Arayışda geriyə qayıtmanın səbəbləri kimi, köçürülmə qaydalarının pozulması ilə izah edilsə də, əslində, qayıtmanın əsl səbəbi bu insanların min illər boyu yaşadıqları torpaqları olan isti münasibətlərindən irəli gəlirdi. Bu həm də onların məcburi köçürülməsinin təsdiqidir.

İ.V.Stalinin vəfat etməsi ilə əlaqədar məcburi köçkünlərin geriyə qayıdışı güclənir. Ermənistan rəhbərlərinin Azərbaycan hökumətinə etirazları ilə bağlı Azərbaycan SSR Kənd Təsərrüfatı Nazirinin müavini Möhsün Poladov başda olmaqla nümayəndə heyəti Ermənistanda olmuş və bu barədə arayış hazırlamışdır. Arayışdan məlum olur ki, 1954-cü ilin aprel ayına qədər 1155 təsərrüfat (6930 nəfər) geriyə, əvvəlki yaşayış yerlərinə qayıtmışdır [41, s.27-28].

1949-1950-ci illərdə Ermənistan SSR-dən Azərbaycana köçürülmüş azərbaycanlı kolxozçuların 1950-ci ilin yazından başlayaraq icazəsiz öz əvvəlki yaşayış yerinə qayıtması halları müşahidə edilmişdir. Ermənistan SSR Nazirlər Soveti yanında Köçürmə İdarəsinin rəis müavini S.M.Martirosyanın Azərbaycan SSR Nazirlər Sovetinin sədri T.Quliyeva və SSRİ Baş Köçürmə İdarəsinin rəisi S.D.Çeremuşkinə məktubunda bu barədə bəhs edilir. 24 may 1951-ci il tarixli məktubda Ermənistan SSR-ə geri qayıtmanın müşahidə olunduğunu, 360 ailənin qayıtdığı və onların köçürüləcək soydaşları arasında köçməmək barədə təbliğat apardığı qeyd edilir, Azərbaycan hökumətindən tədbir görülməsinin zəruriliyi tələb edilirdi [2c, v.205-206].

Ermənistan SSR rəhbərləri köçkünlərin geriyə qayıtmasından narahatçılığını gizlətmir, Mərkəzi hökumət və Azərbaycan SSR hökumətini intensiv olaraq məlumatlandırılırdı. Ermənistan SSR Nazirlər Sovetinin sədr müavini A.Çarçoğluyanın Azərbaycan SSR Nazirlər Sovetinin sədr müavini M.F.Əmiraslanova yazdığı 1952-ci il 19 yanvar tarixli məktubunda 1953-1954-cü illərdə Azərbaycan SSR-ə köçürüləcək 3.800 azərbay-

canlı təsərrüfatının köçürülməsindən qəti imtina etdiyini bildirirdi. Məktubda deyilirdi ki, 1952-ci ilə qədər Azərbaycana öz arzusu ilə köçürülmüş 500 azərbaycanlı təsərrüfatı geri, əvvəlki yaşayış yerinə qayıtmışdır. Bundan çıxış edərək Ermənistan SSR Nazirlər Soveti 1953-1954-cü ildə köçürüləcək 3.800 təsərrüfatın köçürülməsinə razılıq verə bilməz [2e, v.62]. Beləliklə, Ermənistanda köçürmə rəsmən dayandırılmışdı.

Ermənistan SSR Nazirlər Soveti yanında Köçürmə İdarəsinin rəisi K.Mutafyanın Ermənistan SSR Nazirlər Sovetinin sədri S.K. Karapetyana, Ermənistan KP MK-nin I katibi Q.A. Harutyunova və SSRİ BKİ-nin rəisi S.D.Çeremuşkinə məktubunda Azərbaycan SSR-ə köçürülmüş azərbaycanlı əhalinin əvvəlki yaşayış yerlərinə kütləvi qayıtmaları haqqında 12 may 1952-ci il tarixli məxfi məktubunda geriyə qayıtma hallarının artmasının əsas səbəbi kimi Kür-Araz ovalığında onlar üçün yaşayış şəraitinin olmaması göstərilirdi [2e, s.67-69] .

Geriyə qayıtma halları ilə bağlı Ermənistan SSR hökuməti tərəfindən bir sıra tədbirlər görülür, geriyə qayıdanların Ermənistan SSR-də qəbul etməmək, qeydiyyata götürülmək qadağan edilir, onların ev tikmək, təsərrüfat yaratmaq və s. hüquqları əlindən alınırdı. Bütün bunlar totalitar sistem daxilində azərbaycanlıların adi insan hüquqlarının, SSRİ konistitusiyasıda təsbit olunmuş hüquqlarının pozulmasını, tapdalanmasını göstərən ən bariz faktdır.

Azərbaycan türklərinin məcburi köçürülməsi ilə bağlı məsələlərdən biri də deportasiyaya məruz qalmış əhaliyə verilməli olan ictimai və fərdi təsərrüfatlara məxsus mal-qaranın sayı ilə bağlı məsələdir. Köçürülən əhali Azərbaycan SSR-yə özləri ilə ictimai təsərrüfatlardan 4502 baş qaramal, 12.720 baş davar, 206 baş at, 66 baş donuz, şəxsi təsərrüfatlardan isə 2607 baş qaramal, 4168 baş davar, 64 baş at gətirmişlər [41, s.20-21]. N.Allahverdiyevin Ermənistanda olarkən hazırladığı arayışda isə bildirilir ki, köçürülmə zamanı 1000 nəfərdən yuxarı azərbay-

canlı ailəsi ictimai əmlakına toxunmadan Ermənistan ərazisini tərk etmişlər [41, s.25].

1947-1950-ci illərdə SSRİ və Ermənistan SSR rəhbərlərinin Azərbaycan türklərinə qarşı yeritdiyi deportasiya siyasəti nəticəsində Ermənistanın dağlıq və dağətəyi rayonlarında yaşayan türk əhalinin yaşamaq üçün adi şəraiti olmayan Kür-Araz ovalığına köçürülməsi nəticəsində mil illər boyu yaşadığı mühitə alınmış deportantların yarıdan çoxu aran zonasında malyariya kimi xəstəliklərdən tələf oldu. Çox təəssüflər olsun ki, baş vermiş kütləvi ölüm faktları və xəstəlik vərəqələri Arxiv idarəsində toplanılmamışdır.

SSRİ Nazirlər Sovetinin "Kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürülməsi haqqında" 23 dekabr 1947-ci il tarixli qərarında SSRİ Səhiyyə Nazirliyinə bir vəzifə olaraq tapşırılırdı ki, bütün köçkünlər tibbi baxışdan keçirilsin və eyni zamanda onlar arasında tibbi-sanitar xidməti aparılması məqsədilə tibbi personala lazımi tibbi ləvazimat ayrılmasını təmin etsinlər [4, v.16]. Lakin buna baxmayaraq aydın olur ki, köçkünlərin köçürüldükləri Kür-Araz ovalığında adi sanitar-profilaktik məntəqələr belə olmamışdır.

Ermənistan SSR-nin Zəngibasar rayonu Rəhimabad (Çobankərə) kənd sakini, Əmir İsmayılovun 1951-ci ilin avqust ayının 13-də SSRİ NS-nin sədri İ.V.Stalinin adına vurduğu teleqramda yuxarıda deyilən faktlar təsdiq olunur. Teleqramın mətnində deyilirdi: "Əziz atamız Stalin! Sizə məlum edirəm ki, bizi 1950-ci ildə Ermənistan SSR-dən Azərbaycan SSR-ə köçürdülər. Yenə də geriyə Ermənistana qayıtmalı olduq. O səbəbə ki, Azərbaycanda bizim yaşayışımız üçün şərait yoxdur. Azərbaycanın iqlim şəraiti bizə uyğun deyil. Uşaqlarımız orada tələf - oldu, özümüz isə bugünə qədər də xəstəyik...Əziz ata! Sizdən xahiş edirik ki, bizə imkan verəsiniz, yenədə Ermənistan SSR-də yaşayaq." [2ç, v.58].

Azərbaycan SSR NS yanında Köçürmə İdarəsinin rəisi N. Allahverdiyevin məlumatında isə bildirilirdi: "Bir çox rayonlarda tibbi-sanitar işləri lazımi səviyyədə qurulmamışdır. Belə hallara daha çox Ağcabədi, Səfərəliyev rayonlarında rast gəlinir, bu rayonlarda rayon səhiyyə şöbələri köçkünlərin tibbi xidmətinə diqqət yetirmirlər. Bu cür vəziyyət köçkünlər arasında kütləvi narazılıqlar doğurmuş, hətta Səfərəliyev rayonu Çaparidze adına kolxozda məskunlaşmış köçkünlər arasında ölüm faktlarına təsadüf edilir" [ 2, v.26-27].

Köçkünlərin geri qayıtmasının səbəbləri haqqında Azərbaycan SSR Nazirlər Soveti yanında Kİ-nin rəisi N.Allahverdiyevin, Azərbaycan SSR Nazirlər Soveti sədrinin müavini M.F.Əmiraslanova və SSRİ BKİ-nin rəisi S.D.Çeremuşkinə məxfi qrifli arayışında köçkünlər arasında malyariya xəstəliklərinin geniş yayıldığı, bununla mübarizə aparıldığı,3-4 ay ərzində bu sahədə əməli işlərin görüldüyünü, Əlibayramlı, Sabirabad, Saatlı, İmişli və b. rayonlarda məskunlaşmış köçkünlər arasında malyariya xəstəliklərinin aradan qaldırıldığı bildirilirdi. [ 2e, v.74-82]

Azərbaycan SSR Kənd Təssərüfatı və Tədarük Naziri İ.K.Abdullayevin "Kür-Araz ovalığının bəzi rayonlarında köçkün kolxozçuların şəraitinin qurulması sahəsində aparılan yoxlamaların nəticələri haqqında" Azərbaycan SSR Nazirlər Sovetinə və Azərbaycan KP MK-nə 15 0ktyabr 1953-cü il tarixli arayışında 1948-1953-cü illərdə Azərbaycana 11.914 təsərrüfatın (52.956 nəfərin) köçürüldüyü bildirilir ki, bunun, 1.795 təsərrüfatın Ermənistandan köçürülmə qanunları ilə deyil, özbaşına köçdüyü qeyd olunur. [1.c , v. 1-8]

Azərbaycan SSR Kənd Təssərüfatı və Tədarük Nazirinin müavini M.M.Poladovun və Köçürmə İdarəsinin Təşkilat şöbəsinin müdiri Q.K.Kazımlının Nazirlər Sovetinin sədri S.Q. Rəhimova və Azərbaycan KP MK-nin I katibi İ.D.Mustafayeva 15 aprel 1954-cü il tarixli "Ermənistan SSR-dən Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürülmüş kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-ə geri qayıtması səbəblərinin

öyrənilməsi nəticələri barədə"ki arayışda isə 1948-ci ilin başlanğıcından Ermənistan SSR-dən Azəbaycan SSR-ə 9.875 təssərrüfatın köçürüldüyü və 1954-cü ilin 10 aprelinə qədər Ermənistan SSR Kİ-nin məlumatında 1555 təsərrüfatın geriyə qayıtdığı, Azərbaycan Kİ-nin məlumatında isə bu rəqəmin 1500 təsərrüfatın olduğu məlum olur [2b, v.84-89].

Azərbaycan SSR Nazirlər Sovetinin sədri S.Q.Rəhimov Azərbaycan KP MK-nin I katibi İ.D.Mustafayev 1954-cü ilin sentyabrında Rayon İcraiyyə Komitəsi sədrlərinə və Rayon Partiya Komitələrinin katiblərinə göstəriş vermişdi ki, köçkünlərin başqa rayonlara köçməsinə və əvvəlki yaşayış yerlərinə qayıtmasına bütün vasitələrlə maneçilik törədilsin [2b, v.125-150].

Ermənistan SSR-dən Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürülmüş Azərbaycan türklərinin sayı barədə də müxtəlif, mübahisəli rəqəmlər göstərilir.Bəzi mənbələrdə köçürülən azərbaycanlı əhalinin sayının 53.000 göstərilməsi real vəziyyəti əks etdirmir. Belə ki, bu illərdə köçürülmə qanunları ilə deyil, tarixi torpaqlarını məcburən atıb Azərbaycan SSR-ə köçənlər heç də Kür-Araz ovalığına rəsmi köçürülənlərdən az deyildi.

O dövrün bəzi rəsmi mənbələrdə gətirilən mübahisəli rəqəmlər bir çox dolaşıqlıqlara səbəb olmuşdur. Rəsmi köçürülənlərin, köçürülmə bileti almış köçkünlərin sayı barədə düzgün rəqəm söyləyə bilsək də, bunu özbaşına, köçürülmə qanunları ilə deyil, kortəbii köçənlərə şamil etmək olmaz. Biz bir məsələdə A.Paşayevlə razıyıq ki, Ermənistandan icazəsiz, kortəbii köçənlər rəsmi köçürülənlərin sayından çox olmuşdur.Müəllifin təbirincə desək, köçürülən mal-qaranın sayı belə dəqiqliklə qeydiyyatdan keçirildiyi halda, 1948-1953-cü illərdə Ermənistandan SSR-dən Azərbaycana köçürülmüş azərbaycanlı əhalinin dəqiq uçotu olmamış, Azərbaycan SSR Nazirlər Soveti yanında Köçürmə idarəsinin məlumatlarında da köçkünlərin sayı müxtəlif cür verilmişdir. Köçürmə idarəsi Azərbaycan SSR-ə köçürülən və köçənlərin umumi sayını deyil, yalnız Kür-Araz ovalığına köçənlərin uçotunu aparmışdır [41, s.21].

Ermənistan mətbuatı bu barədə heç bir iz belə buraxmamışdır. Erməni mənbəsində Kür-Araz ovalığına köçürülənlərin sayı 58.5 min nəfər göstərilir [130, s.57-58]. Qəribədir ki, bu məlumat da Azərbaycanda buraxılmış mənbəyə istinadən verilmişdir. Bununla belə, onlar iddia edirlər ki, guya köçkünlərin böyük əksəriyyəti sonradan Ermənistana qayıtmışlar [79, s.57-58].

Keçmiş SSRİ-də müxtəlif illərdə Ümumittifaq siyahıyaalınması qaydalarına görə bir təssərrüfatın orta hesabla beş nəfərdən hesab olunması düzgün sayıla bilməz. Faktlar göstərir ki Ermənistanda SSR-də xristan əhalidən fərqli olaraq müsəlman əhali, xüsusən də azərbaycanlı ailələri "böyük ailələr" sayılır, hər bir azərbaycanlı ailəsi 6-12 uşaqdan ibarət idi. Ermənistan SSR-də əhalinin demoqrafik vəziyyətinin tədqiqi də bizim bu qənaətimizi daha da gücləndirir. Tarixçi, demoqraf V.İ.Kozlov yazır ki, bu illərdə Ermənistan SSR-də kənd yerlərində yaşayan ermənilər arasında uşaq doğumu göstəricisi xeyli aşağı idi və azərbaycanlılar arasında bu göstərici erməniləri xeyli qabaqlayırdı [74a, c.193].

Göründüyü kimi azərbaycanlıların təbii artımı Ermənistanda ermənilərə nisbətən yüksək olmuşdur. Biz də bu faktdan çıxış edərək Ermənistan SSR-dən Azərbaycan SSR-ə nə qədər əhali köçürülüb sualına da aydınlıq gətirə bilərik. Azərbaycan SSR Nazirlər Soveti yanında Köçürmə İdarəsinin son-1956-cı il məlumatında Ermənistan SSR-dən Azərbaycan SSR-ə köçürülən azərbaycanlı əhalinin sayı 58.847 nəfər (13.230 təssərrüfat) göstərilir [4, v.35]. Əgər biz azərbaycan ailələrini orta hesabla hər ailəni 5 nəfərdən deyil, 7-8 nəfərdən hesablasaq və hər bir təssərrüfatı 7 və ya 8-ə vursaq, Azərbaycan SSR-ə 58.847 nəfər yox, təxminən 100.000 nəfər köçürüldüyünü və köçməyə məcbur edildiyini görürük.

Beləliklə bildiririk ki, 1947-1953-cü illərdə Ermənistandan SSR-dən 100 mindən şox Azərbaycan türkü köçürülmüş və ya köçməyə məcbur edilmişdir.

Ermənistan SSR-də müxtəlif illərdə azərbaycanlı əhalinin say dinamikasının və əhalinin orta illik artımının tədqiqi də bu rəqəmin düzgünlüyünü təsdiq edir. Qeyd etdik ki, köçürmə ərəfəsində Ermənistanda türk əhalinin sayı 170 mindən artıq olmuşdur. Rəsmi məlumata əsasən Ermənistandan 100 min nəfərdən artıq əhali köçürülübsə, köçürmədən sonra Ermənistanda 70 mindən artıq əhali qalmışdır. 1959-cu ildə Ermənistan SSR-də bütün əhalinin siyahıya alınmasının nəticələrinə görə azərbaycanlıların sayı 107.7 min nəfər təşkil etmişdir [18, s.146].Orta illik artım müxtəlif illərdə orta hesabla 3.0 mindən artıq olmuşdur. Deportasiyadan sonrakı illərdə orta illik artım 2.1, mütləq azalma isə 1.16 olmuşdur [18, s.146].

1949-1959-cu illər arasında azərbaycanlı əhalinin orta illik artımı 2.1 olmuşsa, deməli, 10 il ərzində azərbaycanlı əhalinin artımı 20 mindən artıq olmuşdur. Bütün bu təhlildən sonra belə qənaətə gəlmək olar ki, Azərbaycan SSR-ə köçürülən əhali 100 mindən artıq, geriyə qayıdan əhali isə təxminən 10-12 min arasında olmuşdur.

Bu rəqəmin düzgünlüyünü hökumət rəqəmləri də təsdiq edir. Belə ki, "Köçkünlərin təsərrüfat və əmək şəraitinin yaradılması sahəsində yol verilmiş ciddi nöqsanların və çatışmazlıqların təcili surətdə aradan qaldırılması və köçkünlərin geri qayıtmalarının qarşısının birdəfəlik alınması haqqında" Azərbaycan SSR Nazirlər Sovetinin sədri S.Q.Rəhimovun və Azərbaycan KP MK-nin I katibi İ.D.Mustafayevin RİK sədrlərinə və RPK-nə göstərişi ilə bağlı 1954-cü il sentyabr tarixli qərarında, göstərilən çatışmazlıqlar üzündən planlı təsərrüfatdan 3734 təsərrüfatın tərk etdiyi və o cümlədən, Ermənistana 2.141 təsərrüfatın (10.705 nəfər) qayıtdığı göstərilir. [2b, 125-150.]

Bizi maraqlandıran məsələlərdən biri də, geriyə qayıdan köçkünlərin sonrakı taleyidir. Ermənistan hakimiyyət orqanları və yerli rayon rəhbərləri geri qayıdan köçkün azərbaycanlı ailələrini onların yaşadığı kəndlərə buraxmaq istəmir, əvvəlki yaşayış yerlərinə qayıtmış köçkünlərin yenidən kolxozlarda işə bərpa

olunmasına Ermənistan SSR rəhbərləri tərəfindən maneçiliklər törədilirdi. Belə ki, azərbaycanlıların yaşadığı kəndlərdə evlər sökülmüş və təsərrüfatları erməni kəndlərinə birləşdirildiyindən, onların burada yenidən məskunlaşmasına imkan verilmirdi. Ermənistan SSR Kənd Təsərrüfatı və Tədarüki Naziri Qazaryanın RİK sədrlərinə və MTS direktorlarına 31 oktyabr 1953-cü il göstərişində isə deyilirdi ki, yalnız hökumət bir zamanlar Azərbaycana köçmüş, sonradan Ermənistana qayıtmış və evlərini satmış azərbaycanlıların ev tələb etmək hüququndan məhrum edilməsi şərti ilə kolxozlara üzv qəbul edilə bilərlər. [2b, s.95-96]

Geri qayıtmış azərbaycanlı köçkünlərin uzun müddət Ermənistanda pasport qeydiyyatına alınmamasına dair bir çox faktlar da mövcuddur.Belə faktlar azərbaycanlıların yaşadıqları Amasya rayonunda, Axta rayonunun Qaraqala, Üləşik kəndlərində v.s. başqa rayonlarda qeydə alınmışdır. Ağır şəraitə dözə bilməyən əhali sonradan yenidən Azərbaycan SSR-ə üz tutdular...

Azərbaycan türklərinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə bağlı onların boşaltdıqları evlərin və tikililərin erməni-repatriantların istifadəsinə verilməsi SSRİ NS-nin 23 dekabr 1947-ci il tarixli qərarında nəzərdə tutulsa da, apardığımız tədqiqat göstərir ki, azərbaycanlıların boşaltdıqları mənzil fondlarından və tikililərdən istifadə olunmamışdır. Xarici ölkələrdən sovet təbliğat maşınının gücü ilə inandırılaraq Ermənistana gətirilmiş erməni repatriantların böyük əksəriyyəti özlərini aldadılmış sayır, sosial-iqtisadi, mədəni inkişaf baxımından pis vəziyyətdə olan azərbaycanlı kəndlərində yaşamaq istəmirdilər.

Xarici ölkələrdən gələn 30 erməni ailəsi Basarkeçər rayonunun Qırxbulaq, Gödəkli, bir neçə erməni ailəsi Vedi rayonunun Böyük Vedi, Şirazlı, Qaralar, Taytan, Afşar kəndlərində, böyük əksəriyyəti isə İrəvan ətrafında salınmış Zeytun, Nor-Areş, Kilikiya, Malatya, Kirza qəsəbələrində və həmçinin Leninakan, Kirovakan, Oktomberyan şəhərlərində yerləşdilər.

Yekun olaraq onu qeyd edək ki, Azərbaycan türklərinin tarixi-etnik torpaqlarından kütləvi deportasiyasının nəticələri bunlardan ibarət idi. Belə ki:

- Azərbaycan türklərinin köçürülməsi haqqında SSRİ NS-nin 23 dekabr 1947-ci il tarixli qərarı SSRİ və Ermənistan SSR rəhbərlərinin türk əhalisinə qarşı həyata keçirdikləri cinayətkar siyasi akt idi.
- SSRİ NS-nin 23 dekabr 1947-ci il tarixli qərarında köçürülmənin "könüllülük" prinsipləri əsasında aparılması qeyd olunsa da, köçürülmə məcburiyyət prinsipi ilə həyata keçirilirdi. Bu əsl deportasiya idi.
- Məcburi köçürülmə nəticəsində 197-dən artıq kənd xarabaya çevrildi, bir sıra sosial, mədəni, maarif ocaqları bağlandı, 60-dan artıq türk mənşəli yaşayış məntəqələri "erməniləşdirildi".
- Azərbaycan türklərinin tarixi-etnik torpaqlarından məcburi köçürülməsi, min illər boyu bu ərazidə yaşamış türk əhalisinin tarix boyu formalaşmış özünəməxsus adət-ənənələrinin sıradan çıxarılmasına gətirib çıxartdı. Bu əsl soyqırımı idi.

Nəhayət, onu da qeyd edək ki, Azərbaycan türklərinin Qərbi Azərbaycan torpaqlarından deportasiyası dövlət səviyyəsində həyata keçirildi. Bu siyasət ermənilərin antitürk xarakterli siyasətinin mahiyyətini üzə çıxartdı və Ermənistan cəmiyyətində, xüsusən də ermənilərin milli əhval-ruhiyyəsində olan şovinist-millətçi meylləri daha da gücləndirmiş oldu.

Belə bir siyasət deportasiyadan sonrakı illərdə Azərbaycan türklərinin erməni millətçi dairələri tərəfindən bütün sahələrdə total diskriminasiyasında özünü göstərdi, onların 50-80-ci illərdə Azərbaycan SSR-ə məcburi köçməsinin əsasını qoydu.

# NƏTİCƏ

Azərbaycan torpaqlarına göz dikmiş erməni millətçiləri "Türksüz Ermənistan"uğrunda gizli və açıq mübarizə aparmış, Azərbaycan türklərinə qarşı soyqırım siyasəti yeritmiş, özlərinin məkrli və avantürist niyyətlərini həyata keçirmək məqsədilə tarixdə görünməmiş cinayətlər, vəhşiliklər, kütləvi qırğınlar, və vandalizm əməlləri törətmişlər. Erməni millətçiləri tərəfindən yeridilən bu siyasət tarixin bütün zamanlarında Azərbaycan türklərinə qarşı didərgin həyatı, torpaq və yurd həsrəti gətirmişdir. Qeyri-insani mübarizə formalarından istifadə edən erməni millətçiləri mənfur niyyətlərini reallaşdırmağa ciddi cəhdlər etmiş, öz məqsədlərinə nail olmaq üçün müxtəlif taktiki üsullardan istifadə etmişlər. Xüsusilə, XX yüzillikdə Qərbi Azərbaycan türklərinə qarşı məqsədyönlü şəkildə həyata keçirilmiş etnik təmizləmə, deportasiya və soyqırımı siyasəti nəticəsində xalqımız ağır məhrumiyyətlərə, milli faciə və məşəqqətlərə məruz qalmışdır. Antiazərbaycan dairələr tərəfindən dəstəklənən bu məkrli siyasət gah açıq təxribatlar, gah da milli qırğın vasitəsilə müstəsna qəddarlıqla həyata keçirilmişdir. Ümumilli lider H.Ə.Əliyevin qeyd etdiyi kimi mərhələ-mərhələ gerçəkləşdirilən bu qeyri-insani siyasət nəticəsində azərbaycanlılar öz doğma tarixi-etnik torpaqlarından didərgin salınaraq kütləvi qətl və qırğınlara məruz qalmış, xalqımıza məxsus minlərlə tarixi abidə və yaşayış məskəni dağıdılmışdır.

Azərbaycanlıların tarixən yaşadıqları ərazilərdən deportasiyası siyasəti bütün XX əsr boyu sistemli surətdə davam etdirilmiş, soyqırımı səviyyəsinə çatdırılmasına görə dünya tarixində analoqu olmayan aksiya olmuşdur. Sovetlər Birliyi daxilində azərbaycanlıların deportasiyası yeni metodlarla davam etdirilmiş, ikinci dünya müharibəsindən sonrakı illərdə isə bu siyasət amansızlıqla həyata keçirilmişdir.

Tarixi faktlar göstərir ki, Azərbaycan türklərinə qarşı ermənilər tərəfindən həyata keçirilmiş deportasiya və soyqırımı cinayətləri daha geniş vüsət almış, deportasiya siyasəti daha mütəşəkkil şəkildə və daha böyük qəddarlıqla həyata keçirilmişdir. Odur ki, Vətən tariximizin faciəli dövrü tarixi tədqiqata cəlb edilmiş, bu sahənin öyrənilməsində buraxılmış səhvlərin, təhriflərin aradan qaldırılması başlıca məqsəd olmuşdur. Tədqiqat nəticəsində aşağıdakı ümumiləşdirilmiş nəticələr çıxarılmışdır:

1.Uzun illər Azərbaycanda xalqımızın tarixi elmi kommunist ideologiyası əsasında "işıqlandırıldığından", yazıldığından  tarixi tədqiqatlarda birtərəflilik hökm sürmüş, tarixi faktlar bilərəkdən saxtalaşdırılmış, azərbaycanlıların deportasiyası problemi öyrənilməmişdir. Sovetlər dövründə Azərbaycan türklərinə qarşı yeridilən mənfur sıxışdırma siyasəti və ermənilərin törətdikləri deportasiya və soyqırımı cinayətləri ört-basdır edilmişdir.

2.Tarix elmi və bu sahədə aparılmış elmi tədqiqatların təcrübəsi göstərir ki, tarixi hadisə və prosesləri baş verdiyi konkret tarixi şəraitdə, daxili və xarici tərəflərini nəzərə almaqla kompleks tədqiq etdikdə obyektiv nəticələrə gəlmək olar. Tədqiqat prosesində bütün bunlara əməl edilmiş, hadisə və proseslərin öyrənilməsində tarixi yanaşma və obyektivlik əsas götürülmüşdür.

3.Tədqiqat göstərir ki,erməni millətçi dairələri bütün tarixi şəraitlərdə öz məkrli və avantürist niyyətlərini gerçəkləşdirməyə çalışmışlar. Erməni millətçiləri əlverişli tarixi şəraitdən istifadə edərək "etnik təmizləmə" planlarını reallaşdırmaq üçün totalitar rejimin yaratdığı imkanlardan yararlana bildilər. Nəticədə SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli "Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" və 1948-ci il 10 mart tarixli "Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar tədbirlər haqqında" qərarlarının verilməsinə nail ola bildilər. Azərbaycan türklərinə qarşı yönəldilmiş

bu xəyanətkar qərarlar İ.V.Stalinin və erməni millətçi dairələrinin sövdələşməsinin məntiqi yekunu idi. İ.V.Stalinin imzası ilə verilən qərarlarda Mərkəz erməni maraqlarına uyğun mövqe tutdu ki, bu da azərbaycanlıların sürgün və məhv edilməsinə səbəb oldu. Həmin fitnəkar qərarların verilməsi tarixinin, on minlərlə azərbaycanlı əhalinin zorakılıqla deportasiya edilməsinin acı nəticələrinin və bütövlükdə 1947-1953-cü illərdə tarixi hadisələrin mahiyyətinin obyektiv tədqiq edilməsi müstəsna elmi, siyasi və təcrübi əhəmiyyətə malikdir.

4.Azərbaycan tarixçiləri problemlə bağlı olan bəzi məsələlərə bu və ya digər dərəcədə toxunulmış, bir çox faktları üzə çıxarmış və qiymətli fikirlər söylənmişlər. Bütün bunlarında tədqiqat prosesində çox böyük elmi və elmi-metodiki köməyi olmuşdur. Bununla belə 1947-1953-cü illəri əhatə edən deportasiya tarixi bu vaxta qədər həmin dövrün tarixi hadisələr kontekstində kompleks halda tədqiq edilməmişdir. Ona görə də 1947-1953-cü illər tarixinin tədqiqi qarşımızda duran başlıca vəzifə olmuşdur.

5.Tədqiqat nəticəsində aydın oldu ki, Azərbaycan türklərinin Ermənistandan 1947-1953-cü illərdəki deportasiyası ikinci dünya müharibəsindən sonrakı illərdə SSRİ-Türkiyə münasibətləri kontekstində siyasi gündəmə çıxarılmış "erməni məsələsi" ilə bağlı olmuşdur. SSRİ-nin Türkiyəyə qarşı ərazi tələbləri, ermənilərin Türkiyəyə və Azərbaycana qarşı ərazi iddiaları və Azərbaycan türklərinin tarixi-etnik torpaqlarından deportasiyası bir-birilə sıx bağlı olan məsələlər olduğundan bunlar kompleks şəkildə tədqiq edilmişdir. Bu yanaşma 1947-1953-cü illər deportasiyasının ideya rəhbərləri, təşkilatçıları və həyata keçirənlərin bütün məsuliyyətini aydınlaşdırır.

6.Xarici ölkələrdən ermənilərin Ermənistana köçürülüb gətirilməsini şirnikləndirən və həyata keçirən də Sovet hökuməti və onun xüsusi xidmət orqanları idi. Onların köməyi ilə müxtəlif erməni təşkilatları Türkiyəyə qarşı geniş ərazi davası açmış, bu istiqamətdə fəaliyyət göstərirdilər. Erməniləri xaricdən köçürüb gətirməkdə məqsəd "itirilmiş torpaqların" geri qaytarılacağına

ermənilləri inandırmaq, ermənilər vasitəsilə sovet ərazi tələblərini sığortalamaq idi. Ermənilərin xaricdən köçürülməsi son nəticədə azərbaycanlıların tarixi torpaqlarından köçürülməsinə səbəb oldu. İ.V.Stalin başda olmaqla Sovet rəhbərliyi xaricdən köçürülüb gətirilmiş ermənilərin sosial-iqtisadi şəraitinin yaxşılaşdırmaq adı altında azərbaycanlıların köçürülməsinə qərar verdi. Əslində bunun üçün heç bir sosial-iqtisadi səbəb yox idi. Belə ki, Ermənistan rəhbəri Q.Harutyunov "respublikada 400-500 ermənin yerləşdiriləməsinin mümkün olduğunu" bildirirdi. Bütün bunlar monoqrafiyada geniş işıqlandırılmışdır.

7. Köçürülmənin rəsmi səbəb olaraq Mingəçevir Su Elektrik Stansiyasının istifadəyə verilməsindən sonra, pambıqçılığı geniş inkişaf etdirilməsi planlaşdırılmış və Kür-Araz ovalığı rayonlarının işçi qüvvəsi ilə təmin edilməsi nəzərdə tutulsa da, SSRİ Nazirlər Sovetinin "Kolxozçuların və başqa azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 23 dekabr 1947-ci il tarixli qərarı siyasi səciyyə daşıyırdı. Azərbaycan türklərinin deportasiyasına aid bütün qərar, sərəncam, göstəriş və təlimatlar "məxfiləşdirilmişdir" və "məxfidir" qrifi ilə aparılırdı. Bu Azərbaycan türklərinin məruz qaldığı məcburi köçürülməni, zorakılığı gizlətmək məqsədini daşıyır, deportasiyanın əsl mahiyyətini ört-basdır etmək üçün idi.

8.SSRİ Nazirlər Sovetinin "Kolxozçuların və başqa azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqındakı" 23 dekabr 1947-ci il tarixli qərarı SSRİ və Ermənistan SSR rəhbərlərinin Azərbaycan türklərinə qarşı həyata keçirdikləri cinayətkar siyasi akt idi.

9. Qərarda köçürülmənin "könüllülük" prinsipləri əsasında aparılması qeyd olunsa da köçürülmə məcburiyyət prinsipləri ilə həyata keçirilmişdir. Sənədlər göstərir ki, azərbaycanlı əhali Ermənistanın dövlət və hüquq mühafizə orqanlarının təzyiqi altında köçürməyə məcbur edilirdi. Belə bir vəziyyətdə Mərkəzi hökumətdən və Azərbaycan rəhbərliyindən umduqları köməyi

görə bilməyən azərbaycanlı əhali məcburi bir vəziyyətdə Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürdülər. Kimsəsiz qalmış on minlərlə azərbaycanlı əhalinin beləcə ağır vəziyyətdə köç etməsi zavallı insanların başına faciələr gətirdi. "Könüllü" köçürülmə pərdəsi altında köçürülən azərbaycanlı əhali Kür-Araz ovalığında ağır məhrumiyyətlərə və məşəqqətlərə məruz qaldılar, köçürdükləri yerin iqlim şəraitinə uyğunlaşa bilmədilər. Köçkünlərə göstərilən tibbi xidmət aşağı olduğundan onlar arasında xəstəliklər artdı, hətta ölüm hadisələri baş verdi. Nəticədə köçkün azərbaycanlı əhali əsl soyqırıma məruz qaldı.

10.Azərbaycan türklərinin deportasiyası ermənilərin azərbaycanlılara qarşı tarixi-etnik düşmənçiliyi zəminində həyata keçirilir, məcburi köçkünlərin köçürülmə siyasətinə qarşı bəzən açıq, bəzən gizli müqaviməti və etiraz formaları ilə müşaiyət olunurdu. Bu faktı Ermənistan Daxili İşlər Naziri X.Qriqoryanın 3 may 1948-ci il tarixdə M.C.Bağırova ünvanladığı "Köçürməyə dair əhval-ruhiyyə haqqında" məxfi arayışı də təsdiq edir. Azərbaycanlı əhalinin gizli və açıq müqaviməti aşağıdakı formalarda təzahür etmişdir; 1)Köçürülmənin könüllü olduğuna isnad etməklə, öz tarixi-etnik torpaqlarını tərk etməkdən boyun qaçırması; 2)İctimai təsərrüfatlarda çalışmaqdan imtina edilməsi; 3)Şəxsi əmlakların dağıdılması və məhv edilməsi; 4)Köçürməyə qarşı açıq müqavimət göstərilməsi; (Ləmbəlinin timsalında) 5)Köçkünlərin qızmar iqlimi olan Kür-Araz ovalığında deyil, Azərbaycanın onlar üçün əlverişli olan dağətəyi rayonlarda məskunlaşmaq cəhdləri; 6)On minlərlə azərbaycanlının köçürmə qanunları ilə deyil, kütləvi, kortəbii şəkildə köçməsi; 7)Azərbaycanlı rəhbər işçilərin köçürülməyə müqaviməti; 8)Azərbaycanlı köçkünlərin yenidən öz yaşayış yerlərinə dönməsi; Bütün bunlar monoqrafiyada faktlar və sənədlərlə açılıb göstərilmişdir.

11.Azərbaycan türklərinin tarixi-etnik torpaqlarından deportasiya olunmasında erməni lobbisi, "Hnçak", "Ramkavar", "Daşnaksütyun", Ermənistan Kommunist Partiyası, Eçmiazzin kilsəsi və başqa təşkilatlar fəal iştirak etdilər. Bu təşkilatların

Sovet rəhbərləri və Dövlət Təhlükəsizlik Komitəsi ilə sıx əməkdaşlığı Azərbaycan türklərinə qarşı cinayətkar siyasi tədbirin həyata keçməsində həlledici rol oynadı.

12. Azərbaycan türklərinə qarşı həyata keçirilmiş deportasiya dövlət səviyyəsində həyata keçirildi. Deportasiya ermənilərin antitürk xarakterli siyasətini üzə çıxardı. Bu siyasət sonrakı illərdə Azərbaycan türklərinin ermənilər tərəfindən bütün sahələrdə diskriminasiyasında özünü göstərdi, onların Azərbaycan SSR-ə axınının yeni əsasını qoydu.

**Gurbanly Asad**

# ROM THE HISTORY OF AZERBAIJANIS' DEPORTATION FROM ARMENIA SSR (1947-1953 years)

## Summary

Armenian nationalists strongly desiring the Azerbaijani lands have waged secret and open wars for the "Armenia without Turks", having pursued genocidal policies against the Azerbaijani Turks committed crimes and atrocities, massacres and vandalism unprecedented in history, to realize their crafty and adventurist intentions. As a result of this policy pursued by the Armenian nationalists at all times in history the Azerbaijani Turks were driven out from their native homes and deprived of the land and the hearths. Armenian nationalists who resorted to inhumane forms of struggle have made serious attempts to realize their intentions and have used various tactical methods to achieve their goals. Especially, in the 20th century our people suffered severe hardships, national tragedy and torments as a result of purposefully conducted ethnic cleansing, deportation and genocide policy against the Western Azerbaijan Turks. This insidious policy, supported by the anti-Azerbaijani circles, from time to time has been provoked by open provocations, or even with exceptional cruelty through national massacres and wars. As the National Leader H.Aliyev said, as a result of this inhumane policy realized step-by-step, Azerbaijanis were expelled from their native historical-ethnic lands, subjected to slaughters and massacres, thousands of historical monuments and dwellings belonging to our people have been destroyed.

The policy of deportation of Azerbaijanis from the territory where they historically lived had been systematically implemented throughout the 20th century and had been an

action raised to the level of the genocide unseen in the world history. The deportation of the Azerbaijanis also within the Soviet Union continued with new methods, and in the years following the Second World War, this policy was carried out with severity.

Historical facts show that deportation and genocide crimes committed by Armenians against Azerbaijanis had become more widespread, and deportation policy had been more organized and more ruthless. Thus, the tragic epoch of the history of our Homeland has been drawn into historical research work; the elimination of mistakes and distortions in the study of this area has become the main goal. As a result of the research, the following generalized outcomes were obtained:

1.Since for many years the history of our people in Azerbaijan was "illuminated" on the basis of scientific communist ideology, historic studies were conducted one-sidedly, historical facts were deliberately falsified and the issue of Azerbaijanis' deportation was not studied. The policy of oppression against the Turks and the deportation and genocide committed by Armenians during the Soviet era were concealed.

2.The history science and practice of scientific researches in this area show that it is possible to come to the objective conclusions when the historical events and processes are studied in complex in the specific historical circumstances where they occur, taking into account internal and external aspects. During the research all these terms were kept and in the study of these events and processes historical approach and objectivity were taken as a basis.

3.The research shows that in all historical conditions Armenian nationalist circles tried to realize their crafty and adventurist intentions. Using favorable historical conditions Armenian nationalists could benefit from the opportunities created by the totalitarian regime to carry out their "ethnic cleansing" plans. As a result, on December 23, 1947, they were

able issuing decrees by the USSR Council of Ministers on “The transfer of collective farmers and other Azerbaijani population from the Armenia SSR to the Kur-Araz lowland of the Azerbaijan SSR” and on March 10, 1948, “On the measures related to the relocation of the collective farmers and other Azerbaijani population from the Armenia SSR to the Kur-Araz lowland of the Azerbaijan SSR”. These treacherous decisions against the Azerbaijani Turks were the logical result of the deal of I.V.Stalin and Armenian nationalist circles. In the decisions made by I.V.Stalin the Center’s position was in line with Armenian interests, which led to the deportation and ruin of the Azerbaijanis. The objective study and investigation of the history of these trouble-making decisions, the bitter consequences of the violent deportation of tens of thousands of Azerbaijanis and on the whole, the essence of the historical events related to the problem in the 1947-1953s are of exceptional scientific, political and practical significance.

4.Azerbaijan historians have touched issues related to the problem in some way, have revealed many facts and have uttered valuable ideas. All these opinions have had great scientific and scientific-methodical contribution in the research process. However, the history of deportation covering the 1947-1953 years has not been studied extensively in the context of historical events until now. Therefore, the study of the main line of the thesis - the investigation of the 1947-1953 years’ history was our main task.

5.As a result of the research, it became clear that the deportation of the Azerbaijani Turks from Armenia in 1947-1953 years was related to the “Armenian issue” put on the political agenda in the context of the USSR-Turkey relations in the post-World War II era. Since the territorial claims of the USSR against Turkey, the territorial claims of the Armenians against Turkey and Azerbaijan and the deportation of the Azerbaijani Turks from their historical and ethnic lands were

closely connected they should be investigated integrated. This approach clarifies the responsibility of the idea movers, organizers and implementers of the 1947-1953 years deportations.

6.The Soviet government and its intelligence agencies were the ones who allured Armenians to resettle from abroad to Armenia and implemented it. With their help, various Armenian organizations put forward extensive territorial claims against Turkey and acted in this direction. The aim of relocation of Armenians out of the country was to persuade the Armenians that the “lost lands” would be returned, and to insure the Soviet territorial claims through Armenians. The relocation of Armenians from abroad at the end led to the eviction of Azerbaijanis from their historical lands. The Soviet leadership I.V.Stalin being at the head, under the name of “improving the socio-economic conditions of the Armenians relocated from abroad”, decided to move Azerbaijanis. In fact, there was no social and economic reason for that. Thus, the head of Armenia, Q.Arutyunov, noted “the possibility of resettlement of 400-500 Armenians in the republic”. All these are widely covered in the monograph.

7.Although as the official reason for the resettlement was stated in the decision that after the Mingechevir Hydroelectric Power Station was put into operation, it was planned to expand cotton-growing and to provide the Kur-Araz lowland districts with the manpower, however, the USSR Council of Ministers’ decree on “The transfer of collective farmers and other Azerbaijani population from the Armenia SSR to the Kur-Araz lowland of the Azerbaijan SSR” issued on 23 December 1947, was of political nature. All decisions, decrees, orders and instructions relating to the deportation of the Azerbaijani Turks were carried out under the name of “classified” and “top secret”. It was intended to cover the forced eviction and violence of the Azerbaijani Turks and to conceal the true essence of deportation.

8.Decision of the USSR Council of Ministers' on "The transfer of collective farmers and other Azerbaijani population from the Armenia SSR to the Kur-Araz lowland of the Azerbaijan SSR" dated December 23, 1947 was a criminal act of the USSR and Armenia SSR leaders against the Azerbaijani Turks.

9.Although the decision on resettlement was based on the principle of "voluntariness", it had been implemented with the principle of coercion. Documents evidence that the Azerbaijani population was forced to move under the pressure of state and law enforcement bodies of Armenia. In such a situation, the Azerbaijani population, who were not supported by the Central Government and the Azerbaijani leaders, was forced to resettle in the Kur-Araz lowland of Azerbaijan SSR. In such a difficult situation, the moving of tens of thousands of Azerbaijanis that were left homeless had a tragic end for these poor people. The Azerbaijani population, moved on a "voluntary" basis was subjected to severe hardships and tortures in the Kur-Araz lowland and could not adapt to the climatic conditions of their new place. Since the medical service for settlers was low, the illnesses, even death cases increased among them. As a result, the Azerbaijani population was exposed to a true genocide.

10.The deportation of the Azerbaijani Turks was carried out on the ground of the historical and ethnic hostility of the Armenians against the Azerbaijanis and was sometimes accompanied by open, sometimes covert resistance of the settlers to the policy of relocation. This fact is also confirmed by the confidential information on "The Relocation Moods", which was addressed by the Minister of Internal Affairs of Armenia H.Grigoryan to M. Bagirov on May 3, 1948. The covert and open resistance of the Azerbaijani population manifested itself in the following forms; 1) refusing to leave their historical and ethnic lands, stating that the relocation is voluntary; 2) refusal to work in the public sector; 3) destruction and destroy of personal property; 4) open resistance against relocation (in the case of

Lambeli); 5) attempts to settle in foothill regions favorable for them, but not in the Kur-Araz lowland with sultry climate; 6) resettlement of tens of thousands of Azerbaijanis not according the resettlement rules, but spontaneous, massive migration; 7) return of Azerbaijanis to their place of residence. All these are shown in the monograph with facts.

11.The Armenian lobby, “Hnchak”, “Ramkavar”, “Dashnaksutyun”, Armenian Communist Party, Echmiadzin Church and other organizations actively participated in the deportation of Azerbaijani Turks from their historical and ethnic lands. The close cooperation of these organizations with the Soviet leaders and the State Security Committee played a crucial role in the implementation of the criminal political acts against the Azerbaijani Turks.

12.The deportation against Azerbaijani Turks was carried out at the state level. Deportation has revealed the anti-Turkish policy of the Armenians. This policy has shown itself in the discrimination of Azerbaijani Turks in all spheres by the Armenians in the following years and laid a new foundation for their inflow into the Azerbaijan SSR.

**Асад Гурбанлы**

# ИЗ ИСТОРИИ ДЕПОРТАЦИИ АЗЕРБАЙДЖАНЦЕВ ИЗ АРМЯНСКОЙ ССР (1947-1953 гг.)

## Резюме

